# Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 205 (9660) 20 sentyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Suverenliyimiz milli sərvətimizdir



### Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin**

**SƏRƏNCAMI**

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq **qərara alıram:**

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2024-cü il*

◆ Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

## Azad, abad yurdumuz



Prezident İlham Əliyev sentyabrın 19-da Ağdam, Xankəndi və Şuşaya səfər edib. İlham Əliyev Ağdamın Eyvazxanbəyli kəndinin təməlini qoyub. Kəngərli kəndində aparılan bərpa, eləcə də Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılışlarında iştirak edib. Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışı olub . Prezident İlham Əliyev "Aghdam City Hotel"in açılışında iştirak edib, Ağdam şəhərində "İmarət" stadionunun təməlini qoyub. Prezident İlham Əliyev Ağdamın Xıdırlı kəndində və Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanış olub. Xankəndi şəhərində "Bulud" hotelində təmir-bərpa işləri görülüb. Xankəndidə Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəb təmirdən sonra istifadəyə verilib. Prezident İlham Əliyev Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub və Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak edib. Prezident İlham Əliyev Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub, Şuşada Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin və Bayraq meydanının açılışında iştirak edib.

→ 2-7

### "Əsrin müqaviləsi" - 30

## Azərbaycan dünyanın enerji xəritəsini dəyişdi

Azərbaycanın yeni neft strategiyasının əsasının qoyulduğu "Əsrin müqaviləsi"ndən 30 il ötür.

Ulu Öndər Heydər Əliyevin səyləri, uğurlu siyasəti nəticəsində imzalanan müqavilə, dahi liderin özünün də dediyi kimi, Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün unikal imkanlar yaratdı.

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında imzalanan "Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsinə və Hasilatın Pay Bölgüsünə dair Saziş" tarixi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırıldı. Səkkiz ölkənin - Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya,



Türkiyə, Norveç və Səudiyyə Ərəbistanının 11 məşhur neft şirkətinin iştirakı ilə imzalanmış saziş Azərbaycan iqtisadiyyatının dönüş nöqtəsinə çevrildi.

→ 18



## DÖVLƏT SUVERENLİYİ GÜNÜNÜZ MÜBARƏK, QALİB AZƏRBAYCANIN QÜRURLU ÖVLADLARI!

*Bu günü çox gözləmişdik!*

*Həsrətlə, yanğı ilə gözləmişdik!*

Bəzən ümidimizin itəcəyinə qədər yaxınlaşmışdıq!

**Amma nə ümid, nə də inam bizi tərk etdi!**

Yaxşı bilirdik ki, erməni öz ağzı ilə hürmür!

Yaxşı bilirdik ki, onun arxasında kimlər dayanır, kimlər onu müdafiə edir, qoruyur.

Yaxşı bilirdik ki, beynəlxalq hüquq da, BMT-nin 4 qətnaməsi də, ATƏT-in Minsk qrupu da mənasız, heç bir nəticəsi olmayacaq "illüziya pərdəsi"dir.

*Bilirdik ki, həqiqətdə dünya ikili standartlarla idarə olunur.*

*Bilirdik ki, ikili standart dünya erməniliyinə, onun puluna xidmət edir!*

*Bilirdik ki, özümüzdən və Tanrımızdan başqa kimsə bizə kömək etməyəcəkdir!*

**Bu inamla, bu istəklə Qurtuluşa sığındıq!**

**Bu inamla, bu istəklə Ulu Öndər Heydər Əliyevə inandıq, arxalandıq!**

**Bu inamla, bu istəklə İlham Əliyevə güvənərək onun ətrafında "dəmir yumruq" kimi birləşdik!**

*Tarixinin ən qüdrətli Azərbaycanı yarandı!*

*Azərbaycanın ən qüdrətli ordusu yarandı!*

*Xalqın görünməmiş birliyi yarandı!*

**Torpaqların işğaldan azad edilmə vaxtı çatdı!**

**Xocalı, Qaradağlı, Başlıbel, Bağanıs Ayrım və digər soyqırımlarının qisasının alınma zamanı çatdı!**

**Qudurmuş düşmənlə haqq-hesab çəkmə anı çatdı!**

**İlham Əliyev "İrəli!" əmrini verdi!**

*İgid əsgərlərimiz, mərd oğullarımız, Vətən uğrunda hər an şəhidliyə hazır olan balalarımız hayqıraraq düşmən üzərinə yeridilər!*

*"Ya Qarabağ, ya ölüm!" deyənlər Qarabağ uğrunda son savaşa başladılar!*

Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida!" çağırışı əsl Zəfər marşına çevrildi!

Vətənin igid oğulları Vətəni murdar ləpirlilərdən təmizləmək üçün sonsuz qəzəb və nifrətlə düşmən üzərinə yürüdülər.

*Hər biri bir aslana çevrilən Azərbaycan əsgəri görünməmiş qəhrəmanlıqlar, fədakarlıqlar, igidliklər göstərdilər!*

*Müqəddəs Azərbaycan torpağını 30 illik işğaldan azad etmək üçün cəmi 44 gün bəs etdi!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli ordusu düşməni darmadağın etdi, işğalçıları qorxaqlar və fərarilər dəstəsinə çevirdi, bir-birinin ardınca 300-dən çox yaşayış məntəqəsini azad etdi!**

Bu döyüşlərin pik nöqtəsi Şuşanın yalın əllə, görünməmiş şücaətlə alınması oldu!

*Düşmən Baş Sərkərdəmizin ayaqlarına düşərək yalvarmağa, aman diləməyə başladı!*

**10 noyabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün şərtlərini əks etdirən üçtərəfli Bəyanat imzalanaraq torpaqlarımız yağı düşməndən azad edildi!**

Lakin ermənilər yenə də ikiüzlülüklərindən əl çəkmədilər.

Onlara verilən boş vədlərə inanaraq qisas niyyətinə düşdülər.

*Laçın dəhlizini xəyanət yoluna, separatizmi qidalandıran qan damarına çevirdilər.*

*"Dəmir yumruq" ikinci dəfə işə düşdü!*

**23 aprel 2023-cü ildə Laçın yolunda, Həkəri körpüsü üzərində sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılaraq Azərbaycanın ərazi bütövlüyü bərpa edildi!**

*Ermənistan yenə məkrli niyyətindən əl çəkmədi.*

*"Dəmir yumruğ"un üçüncü zərbəsi 19-20 sentyabrda şimşək kimi çaxdı!*

*Cəmi 23 saat ərzində Azərbaycanın dövlət suverenliyi və Konstitusiya əsasları da bərpa olundu!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı qalib xalqa, qalib dövlətə çevirdi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev erməni separatizminə birdəfəlik və əbədi olaraq son qoydu!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "Qarabağ problemi"ni tarixin arxivinə göndərdi!**

Dünən cənab İlham Əliyev Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq 20 sentyabrın Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd olunması barədə Sərəncam imzaladı!

*Eşq olsun Müzəffər Ali Baş Komandanımıza!*

*Suverenlik Günün mübarək, Şanlı Azərbaycanım!*

**Gözün aydın, qalib xalqım!**

**Qarabağ Azərbaycandır!**

***Bəxtiyar SADIQOV***

Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

# Azad, abad yurdumuz

## Ağdamın Eyvazxanbəyli kəndinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, kəndin layihələndirilən ümumi ərazisi 300 hektara yaxındır. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Şişpapaqlar, Kosalar və Eyvazxanbəyli kəndləri ilə birlikdə layihələndirilib.

Eyvazxanbəyli kəndində 4038 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Bu məqsədlə 1091 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 88,3 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1563 nəfərin köçürülməsi üçün 427 fərdi evin inşası planlaşdırılır. İnşa ediləcək evlər iki, üç, dörd və beşotaqlı olacaq.

Diqqətə çatdırıldı ki, kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, bayraq meydanı, tibb məntəqəsi, digər xidməti obyektlərin tikintisi və istirahət parkının salınması planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

Prezident İlham Əliyev Eyvazxanbəyli kəndinin təməlini qoydu.










## Prezident İlham Əliyev Ağdamın Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görülən işlər barədə məlumat verildi.

İşğaldan azad olunan digər ərazilərdə olduğu kimi, Ağdam rayonunda da quruculuq işləri geniş vüsət alıb. Quruculuq işlərinin davam etdiyi yerlərdən biri də rayonun Kəngərli kəndidir. Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Qeyd edildi ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2544 nəfərin (632 ailə) məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşdırılacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 292 fərdi ev inşa edilir.





Bildirildi ki, kəndin ərazisində söküntü və şaquli planlaşdırma işləri artıq tamamlanıb. Bundan başqa, 292 fərdi evin torpaq, bünövrə, hörgü işləri və 278 fərdi evin isə xarici tamamlama işləri başa çatdırılıb.

Hazırda 94 fərdi ev üzrə daxili bəzək işləri görülür və mebel avadanlığı quraşdırılır. Həmçinin kəndin mərkəzi kommunikasiya sisteminin və yol infrastrukturunun da inşası davam etdirilir.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə sakinlərin işlə təmin olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev kənddə hazır evlərə baxdı.



## Prezident İlham Əliyev Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılışlarında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak edib.**








AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sənaye parkında görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. İqtisadiyyatımızın inkişaf vektorlarının dayanıqlı mənbələr hesabına qlobal çağırışlara uyğunlaşdırılması qeyri-neft sənayesinin gücləndirilməsinin önəmini artırır.

Buna görə də mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə olunması, innovativ metodların cəlb edilməsi ilə sənaye istehsalının artırılması, yeni sənaye sahələrinin yaradılması, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər görülür.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır.

Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi də fəaliyyət göstərir.

Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma (müəyyən edilmiş siyahıya əsasən) aiddir. Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 73 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 6,8 milyard manat investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb.

Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 1 milyard manata yaxın investisiyanın yatırılması, 7100-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Sənaye zonalarında indiyədək ümumilikdə 13,5 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 4,3 milyard manatlıq hissəsi ixrac olunub. 2024-cü ilin birinci yarısında sənaye zonalarının rezidentləri tərəfindən 1,4 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 476,6 milyon manatı ixracın payına düşür. Xüsusi qeyd olunmalıdır ki, sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 70-dək ölkəsinə ixrac edilir.

Xatırladaq ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam Sənaye Parkı dövlətimizin başçısının 2021-ci il 28 may tarixli fərmanına əsasən yaradılıb. Sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

*Ardı 3-cü səh.*

◆ Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

# Azad, abad yurdumuz

## Prezident İlham Əliyev Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılışlarında iştirak edib

*Əvvəli 2-ci səh.*

Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılır. Bunun nəticəsidir ki, artıq İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parkları arasında Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci yerdədir. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham Əliyev sənaye parkında əvvəlcə "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun açılışında iştirak etdi.

Dövlətimizin başçısına məlumat verildi ki, "BAFCO İnvest" MMC 2023-cü ilin mart ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Sənaye parkının 2,5 hektar ərazisində Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikintidə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı həyata keçirilir. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə ümumilikdə 120 nəfər işlə təmin ediləcək. İşçilərin Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavod ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir ki, bunun da 350 min cütü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək. İstehsal olunan məhsulların 65 faizinin yerli, 35 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır.

"BAFCO İnvest" MMC sənaye parklarında tətbiq olunmuş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər bir milyon manatdan çox vəsaitə qənaət edib.

Dövlətimizin başçısı zavodu işə saldı.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodunun açılışında iştirak etdi.

Dövlətimizin başçısı zavodun fəaliyyəti ilə tanış oldu.

Bildirildi ki, sənaye parkının 1,7 hektar ərazisində "Eel Electric" MMC tərəfindən Avropa və Türkiyənin qabaqcıl texnologiyasının tətbiqi ilə 35 kV, 10 Kv və 0.4 kV-luq elektrik paylayıcı qurğularının istehsalı üzrə müəssisə fəaliyyət göstərəcək.

"Eel Electric" MMC 2022-ci ilin noyabr ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İnvestisiya dəyəri 3 milyon manatdan çox olan müəssisədə 70 nəfər işlə təmin ediləcək. Burada da işçilərin əsasən Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Müəssisədə ildə 600 ədəd ortagərginlikli qurğu, 600 ədəd aşağıgərginlikli qurğu, 150 ədəd monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün 140 ədəd şarjdoldurma avadanlığı istehsal ediləcək. İstehsal olunan məhsulların 60 faizinin yerli, 40 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır.

"Eel Electric" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 73 min manatdan çox vəsaitə qənaət edib.

❖ ❖ ❖

Prezident İlham Əliyev Ağdam Sənaye Parkının rezidentlərindən biri olan "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun açılışında da iştirak etdi.

Məlumat verildi ki, "Rail Trans Service" MMC 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. "Rail Trans Service" MMC sənaye parkının 1,6 hektar ərazisində "Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı" layihəsini həyata keçirəcək.

İnvestisiya dəyəri 8,92 milyon manat olan müəssisədə 60 nəfər işlə təmin ediləcək. İşçilərin əsasən Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavodun illik istehsal gücü 5 min ədəd rabitə və işarəvermə, 250 ədəd mikroprosessor mərkəzləşmə sistemi avadanlığı həcmindədir. İstehsal olunan mallar daxili və xarici bazarlar üçün nəzərdə tutulub.

"Rail Trans Service" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 70 min manata yaxın vəsaitə qənaət edib.

❖ ❖ ❖

Daha sonra dövlətimizin başçısı "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) divar kağızları istehsalı zavodunun açılışında iştirak etdi.

Bildirildi ki, "Mister Decor" MMC-yə 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti statusu verilib.

Ərazisi 1,6 hektar olan müəssisədə divar kağızlarının istehsalı həyata keçiriləcək. İnvestisiya həcmi 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. İllik gücü 2,1 milyon ədəd rulon divar kağızının istehsalı olan müəssisədə 76 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur.

Alman texnologiyasından istifadə edilən müəssisədə istehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə ixracı da planlaşdırılır.

"Mister Decor" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 400 min manatdan çox vəsaitə qənaət edib.

Dövlətimizin başçısı zavodu işə saldı.

❖ ❖ ❖

Prezident İlham Əliyev Ağdam Sənaye Parkında həmçinin "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun açılışında iştirak etdi.

Zavodun fəaliyyəti ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, layihə çərçivəsində havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatları istehsal ediləcək.

MMC 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Müəssisə üçün sənaye parkında bir hektar ərazi ayrılıb.

Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu müəssisənin illik gücü 33 min ədəd müxtəlif avadanlıq istehsalıdır. Ümumi investisiya dəyəri 3,9 milyon manat olan müəssisədə 90 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Zavodda istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

Digər istehsal müəssisələri kimi, "Metkons" MMC də sənaye parkında tətbiq edilmiş idxal ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 91 min manatdan çox vəsaitə qənaət edib.

❖ ❖ ❖

Dövlətimizin başçısı eyni zamanda parkın rezidenti "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) dam örtükləri istehsalı zavodunun açılışında iştirak etdi.

Bildirildi ki, layihə çərçivəsində dam və fasad örtülməsi üçün nəzərdə tutulmuş profilli təbəqələrin, metalkirəmit plitələrin, sendviç panellərin və müxtəlif dam örtüyü aksesuarlarının istehsalı təşkil ediləcək.

Qeyd olundu ki, "Prof-Dam" MMC 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İki hektar ərazidə yaradılan müəssisədə məhsul buraxılışı İtaliya, Finlandiya, Türkiyə, Rusiya və Çin istehsalı olan soyuq metalşəkilləmə texnologiyalarının tətbiqi ilə həyata keçiriləcək.

İnvestisiya dəyəri 8,5 milyon manat olan müəssisədə 40-dək iş yeri yaradılacaq. Bu müəssisədə də işçilərin Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavod ildə 1.4 milyon kvadratmetr profilli təbəqələrin, 1 milyon kvadratmetr metalkirəmit lövhələrin, 1 milyon kvadratmetr sendviç panellərin, habelə 2 min ton dam aksesuarı istehsalı gücünə malikdir. İstehsal olunan məhsulların 90 faizi yerli bazar, 10 faizi isə xarici bazar üçün nəzərdə tutulub.

Prezident İlham Əliyev zavodu işə saldı.

















◆ Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

# Azad, abad yurdumuz

## Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Ağdam rayonunda erməni vandalizmi nəticəsində dağıdılıb talan edilmiş tarixi-memarlıq tikililərdən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Saray Azərbaycan ərazisində inşa edilmiş digər xan saraylarından fərqli olaraq dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. İşğalda olmuş ərazilərdəki digər tarixi-mədəni və dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş İbrahimxəlil xanın, onun oğlu, Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı, görkəmli şair, rəssam Xurşidbanu Natəvanın məzarları İmarət Kompleksində yerləşib. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər buradakı qəbiristanlıqda dəfn ediliblər. Ağdam şəhəri işğal edildikdən sonra qəbiristanlıq erməni vandalizminin qurbanı olub. İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də bədnam qonşularımız tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2023-cü ildə Ağdam İmarət Kompleksində yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiya və arxeoloji tədqiqat işlərinə başlanılıb. Ərazisi 3,3 hektar olan kompleks mərasimlərin keçirilməsi üçün nəzərdə tutulmuş tikililər, türbələr, tarixi qəbiristanlıq, Qarabağ atlarının təqdimatı üçün atçılıq kompleksi və ziyarətçi mərkəzindən ibarətdir.

Kompleksdə yaradılan Qarabağ atları parkında qədim dövrlərdən şöhrəti dünyanı dolaşan Azərbaycanın Qarabağ atlarının auksionunun keçirilməsi, eyni zamanda parkda müxtəlif vaxtlarda bu atların iştirakı ilə təlim və şou-proqramların təşkili nəzərdə tutulur.

Dövlətimizin başçısı Qarabağ atlarına baxdı.

Bildirildi ki, hazırda kompleksin ərazisindəki 6 min kvadratmetrlik sahədə yerləşən tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işləri ikinci mərhələdə davam etdirilir. Aparılan araşdırmalar nəticəsində yeni tarixi faktlar üzə çıxarılıb.

Qeyd olundu ki, Ağdam İmarət Kompleksi artıq ziyarətçilər üçün açıqdır. Kompleksə gələn qonaqlar, turistlər burada yaradılmış park, ziyarətçi mərkəzi, muzey və kafenin xidmətlərindən istifadə edə bilərlər.

Məlumat verildi ki, işğaldan əvvəl kompleksin ətrafında müxtəlif növ ağaclardan ibarət yaşıllıq zonası mövcud olub. İşğal zamanı digər ərazilərimizdə olduğu kimi, burada da düşmən tərəfindən ekoloji terror həyata keçirilib. Kompleksin qarşısındakı dörd qədim çinar və digər ağaclar məhv edilib.

Prezident İlham Əliyev həmin tarixi çinarların yerində ağac əkdi.

Sonda xatirə şəkli çəkdirildi.













## Prezident İlham Əliyev "Aghdam City Hotel"in açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində "Aghdam City Hotel"in açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Oskad" şirkətinin İdarə Heyətinin sədri Oğuz Kadıoğlu dövlətimizin başçısına hoteldə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, "City Hotel" Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub. Hotelin binası 5 mərtəbədən ibarətdir. Ən müasir standartlara cavab verən hotelin binasında 130 otaq vardır. Burada qonaqların zövqünü oxşayan interyer işləri görülüb. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zalları yaradılıb. Hoteldəki restoran və barlar qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını daha maraqlı keçirmələrinə geniş imkanlar açır.

Diqqətə çatdırıldı ki, hoteldə fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş 4 otaq da mövcuddur. "City Hotel"də qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes və SPA mərkəzləri də yaradılıb.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir.




## Ağdam şəhərində "İmarət" stadionunun təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində "İmarət" stadionunun təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına stadionda yaradılacaq şərait barədə məlumat verdi. Bildirildi ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq inşa ediləcək stadion üçün 19,2 hektar torpaq sahəsi ayrılıb.

"İmarət" stadionunun UEFA-nın 4-cü kateqoriya tələblərinə uyğun inşa edilməsi nəzərdə tutulub. 11 min 700 nəfərlik tamaşaçı tutumuna malik stadionun oyun meydançası təbii ot örtüyünə malik olacaq.

Stadionda UEFA tələblərinə uyğun VVIP, VIP lounge, konfrans zalı, iclas otaqları, hakim otaqları, komandalar üçün





soyunma-geyinmə sahələri, media otaqları, muzey, şərhçi otaqları və digər inzibati, köməkçi sahələr olacaq. Stadionun ərazisində əlavə məşq meydançası, qaçış zolağı, avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri, texniki bina və qurğular inşa ediləcək.

Şəhər əhalisi stadionun ərazisindən park, əyləncə zonası kimi də istifadə edə biləcək. Bu məqsədlə stadionda fitnes zalı, kafe, restoran, idman malları mağazaları və digər ictimai xidmət sahələrinin yaradılması nəzərdə tutulur.

Stadionda müasir monitorlar, nəzarət, giriş-çıxış, səs, işıqlandırma və digər kommunikasiya sistemləri quraşdırılacaq. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq.

Dövlətimizin başçısı stadionun təməlini qoydu.

Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

# Azad, abad yurdumuz

## Prezident İlham Əliyev Ağdamın Xıdırlı kəndində görülən bərpa işləri ilə tanış olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Xıdırlı kəndində görülən bərpa işləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi. Qeyd edək ki, Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yaşayış məskənlərindən biri də Xıdırlı kəndidir. Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5093 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşdırılacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 170 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Qeyd olundu ki, kəndin ərazisində söküntü və şaquli planlaşdırma işləri artıq tamamlanıb.



Kənddə 719 fərdi evin torpaq və bünövrə işləri, 643 fərdi evin isə hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. Həmçinin kənddə mərkəzi kommunikasiya sisteminin və yol infrastrukturunun da inşası davam etdirilir.

Eyni zamanda 10 qeyri-yaşayış binası üzrə torpaq və bünövrə işləri tamamlanıb. Həmçinin bu binalarda dəmir-beton və hörgü işləri aparılmaqdadır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə sakinlərin işlə təmin olunması nəzərdə tutulur.

Dövlətimizin başçısı kənddə hazır evlərə baxdı.

## Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2024-cü il 13 yanvar tarixli sərəncamı ilə Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun yenidən qurulması işləri sürətlə davam etdirilir.

Bildirildi ki, uzunluğu 33,6 kilometr olan yolda 5 körpünün, 2 keçidin, suötürücü boruların tikintisi və digər infrastruktur işləri görülür. Yol bölgədə gediş-gəlişi asanlaşdıracaq, kənd təsərrüfatının, turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək.

Avtomobil yolu Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərin Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirmələrinə imkan verəcək.

## Xankəndi şəhərində "Bulud" hotelində təmir-bərpa işləri görülüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına hoteldə yaradılacaq şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 5 min kvadratmetrə yaxın olan hotel beş mərtəbə və zirzəmi qatından ibarətdir. Hoteldə müxtəlif tipli 44 otaq olacaq. Burada ən müasir iaşə məkanları - "lobby lounge", kafe, açıq və qapalı restoranlar da fəaliyyət göstərəcək.

"Xankəndi" Mehmanxana Kompleksinə aid olan "Bulud" hotelində 50 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Xankəndinin mərkəzində yerləşən "Bulud" hotelindən açılan gözəl mənzərə qonaqların zövqünü oxşayacaq.





## Xankəndidə Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəb təmirdən sonra istifadəyə verilib








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi. Qeyd edək ki, Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Nizami Gəncəvi adına Xankəndi şəhəri 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmiri nəzərdə tutulub.

Bu təhsil ocağı böyük tarixə malikdir və 1945-ci ildən Azərbaycan məktəbi kimi fəaliyyət göstərib. Məktəbin səmərəli fəaliyyətinin təmin edilməsinin zəruriliyi nəzərə alınaraq Xankəndi sakinlərinin böyük bir qisminin müvəqqəti məskunlaşdığı Bakı şəhərinin Sabunçu rayonunun Ramana qəsəbəsində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 dekabr tarixli sərəncamına əsasən 300 şagird yerlik yeni bina tikilib.

Bildirildi ki, Xankəndidə 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmirinə Elm və Təhsil Nazirliyinin sifarişi ilə bu ilin mayında başlanılıb. Məktəbin layihəsi 0,67 hektar ərazini, 3760 kvadratmetr ümumi sahəni əhatə edir. Məktəbdə 11 sinif otağı, kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 2 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, həmçinin yeməkxana yaradılıb.

◆ Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

# Azad, abad yurdumuz

## Prezident İlham Əliyev Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Xankəndi Dövlət Dram Teatrının binası 1932-ci ildə Azərbaycan hökuməti tərəfindən tikilib istifadəyə verilib. 1949-cu ildə binanın konstruksiyasına müəyyən əlavələr olunub. Bina sovet dövrü memarlığının əsas elementlərini özündə əks etdirir.

Teatrın binası XX əsr abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib.

Mədəniyyət Nazirliyinin və digər qurumların mütəxəssisləri tərəfindən 2023-cü ilin noyabrında Xankəndi şəhərində yerləşən mədəniyyət müəssisələrinin monitorinqi aparılan zaman teatrın binasına da baxış keçirilib. Məlum olub ki, işğal dövründə bina istismar üçün yararsız vəziyyətə salındığına görə əsaslı təmirə ehtiyacı var.

## Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışı olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına körpələr evi-uşaq bağçasında yaradılan şərait barədə məlumat verildi.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmiri nəzərdə tutulub.

Bildirildi ki, Elm və Təhsil Nazirliyinin sifarişi ilə bu ilin mayında Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmirinə başlanılıb. Məktəbəqədər təhsil müəssisəsinin layihəsi 80 yerlik olmaqla 0,21 hektar ərazini, 1340 kvadratmetr ümumi sahəni əhatə edir. Burada 4 qrup otağı, tibb otağı, metodiki kabinet, mətbəx, akt və idman zalları və camaşırxana yaradılıb.

## Prezident İlham Əliyev Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərinin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, mərkəzin binası dörd mərtəbədən və bir zirzəmi qatından ibarət olacaq. Buradakı hoteldə ümumilikdə 102 otaq inşa ediləcək. Otaqlardan 91-i standart, 4-ü suit, 4-ü isə "executive" qonaq otaqlarıdır. Digər 3 otaq isə sağlamlığı məhdud insanlar üçün nəzərdə tutulub. Bundan başqa, mərkəzdə restoranlar, ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ən müasir tələblərə uyğun şərait yaradılacaq.



## Şuşada Bayraq meydanının açılışı olub







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Şuşada Bayraq meydanının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına Bayraq meydanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Bayraq meydanının yenidən qurulması işlərinə 2024-cü ilin may ayında başlanılıb. Meydanın layihəsi "Chapman Taylor" şirkətinin konsepsiyası əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Bayraq meydanı amfiteatr ilə əhatələnib. Ərazinin ümumi sahəsi 9190 kvadratmetr, yaşıllıqların sahəsi 3693 kvadratmetr, bayraq dirəyinin hündürlüyü isə 11,7 metrdir. Ərazidəki çoxillik bitkilərin mütləq əksəriyyəti saxlanılaraq layihəyə inteqrasiya olunub. Yaşıllaşdırma işlərində yerli bitkilərdən, o cümlədən çinar ağaclarından istifadə edilib. Burada müasir oturacaqlar və işıqlandırma sistemi quraşdırılıb.

Qeyd edək ki, Bayraq meydanının ətrafında Şuşa şəhərinin Baş Planına uyğun olaraq Zəfər muzeyinin, çoxfunksiyalı konsert-tamaşa zalının və alış-veriş mərkəzinin inşa edilməsi nəzərdə tutulur.

◆ Prezident İlham Əliyevin Ağdam, Xankəndi və Şuşaya səfəri

# Azad, abad yurdumuz

## Prezident İlham Əliyev Şuşada Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Şuşada Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına ev-muzeyində yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, Üzeyir bəy Hacıbəylinin evi XIX əsrdə inşa olunub. 1959-cu ildə bina ev-muzeyi kimi fəaliyyətə başlayıb. Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir bəy Hacıbəylinin ev-muzeyi Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib. Muzeydə Hacıbəylilər ailəsinə məxsus ev əşyaları, həmçinin bəstəkarın şəxsi əşyaları, fotomateriallar, kitablar - ümumilikdə 1700 eksponat qorunub saxlanılırdı. Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra muzey fəaliyyətini dayandırmış, eksponatları talanmış, binası isə dağıdılmışdı. Muzeyin mövcud 1700 eksponatından yalnız 136-sını qorumaq mümkün olmuşdu.

Bildirildi ki, Üzeyir bəy Hacıbəylinin ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2022-ci ilin aprel ayından başlanılıb. Bərpa prosesi evin ilkin görünüşünə uyğun olaraq analizlərin hazırlanması, bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasını, həmçinin həyətyanı sahənin yaşıllaşdırılmasını əhatə edib. Ərazidə mövcud divar daşlarının sökülərək ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası və yenidən qurulması işləri görülüb. Həyətin daş divarının bərpası üzrə bünövrənin qazılıb betonlanması, tarixi görkəminə uyğun hörgüsü və dekorativ elementlərin qoyulması işləri həyata keçirilib.

Muzey binasında aparılan bərpa işlərinin yekununda yeni ekspozisiya yaradılıb. Burada muzeyin konsepsiyası üzrə Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin xilas edilən eksponatları nümayiş olunur. Mədəniyyət ocağının birinci mərtəbəsində Üzeyir bəy Hacıbəylinin ailəsi, uşaqlıq illəri, təhsili haqqında sənədlər, məlumat və digər müxtəlif eksponatlar yer alıb. Bu mərtəbədəki ikinci otaqda Ü.Hacıbəylinin Qori Müəllimlər Seminariyasında təhsili, pedaqoji fəaliyyəti, müəllifi olduğu əsərlər və məqalələri nümayiş olunur. Burada divarboyu "Sənsiz" romansından notların əks olunduğu fraqment də yer alıb.

İkinci mərtəbədə bəstəkarın tamaşaya qoyulan əsərlərinin ilk premyeralarının afişa və proqramları, eləcə də tələbələrini, səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Burada divarboyu "Koroğlu" operasından notların əks olunduğu fraqment yer alıb.

Ev-muzeyində Üzeyir bəy Hacıbəylinin səhnələşdirilən əsərlərindəki obrazlar üçün çəkilən eskizlər, əsərlərinin proqram və afişalarının kollajından ibarət divar da dizayn edilib. Həmin bölmədə bəstəkarın həyatı, fəaliyyəti, onun əsərləri əsasında lentə alınan filmlərdən kadrlar nümayiş olunur.
















# Birinci vitse-prezident Mehriban Əliyeva Üzeyir bəy Hacıbəylinin Şuşadakı ev-muzeyi ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Prezident İlham Əliyevin bu gün Şuşada bərpadan sonra açılışını etdiyi Üzeyir bəy Hacıbəylinin ev-muzeyi ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: **"Üzeyir bəy Hacıbəylinin ev-muzeyi bərpadan sonra. Şuşa. 19.09.2024".**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə Bakıda növbəti ağacəkmə aksiyası keçirilib

Sentyabrın 19-da Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Bakı şəhəri, Nərimanov rayonu, Məmməd Araz küçəsi ilə Molla Cümə küçələrinin kəsişməsindəki ərazidə ağacəkmə aksiyası keçirilib.



AZƏRTAC xəbər verir ki, "IDEA" könüllülərinin iştirakı ilə baş tutan budəfəki aksiya ümumi sahəsi 7 hektar olan yaşıllıq zonasının bir hissəsində təşkil olunub. Aksiya zamanı 200 ədəd Eldar şamı əkilib və ərazidə müvafiq abadlıq işləri aparılıb. Sözügedən ərazidə ağacların effektiv sulanması və su israfının qarşısının alınması məqsədilə damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub. Bu gün paytaxtımızda hava təbəqəsi avtomobil nəqliyyatı, istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir, havada olan toz və digər yad maddələr insan sağlamlığına, bütün ekoloji tarazlığa zərər verir. Meşə zolağının salınması və yaşıllaşdırma fəaliyyətləri ekoloji tarazlığın bərpasına və havanın keyfiyyətinin artırılmasına müsbət təsir edir.

"IDEA" İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir. Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda şikayət və təkliflərini şəhər və ya mobil telefonlardan 1113 qaynar xətt vasitəsilə "IDEA" İctimai Birliyinə çatdıra bilərlər.

Qeyd edək ki, "1113 - Təbiətin təcili yardımı" qaynar xətti və mobil qrupu 2014-cü ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində yaradılıb. Sözügedən "qaynar xətt"ə daxil olmuş minlərlə vətəndaş şikayəti üzrə tədbir görülüb.



# Leyla Əliyevanın iştirakı ilə növbəti abad həyət sakinlərin istifadəsinə verilib

Sentyabrın 19-da Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakı şəhəri, Binəqədi rayonu, Abay Kunanbayev küçəsində yerləşən çoxmərtəbəli binaları əhatə edən, 1100-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.



AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Leyla Əliyeva "IDEA" könüllüləri ilə birlikdə keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib, həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim edib.



"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi, yenidən qurulmuş növbəti həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda həyətyanı sahədə beş söhbətgah, çoxsaylı oturacaq, quş yuvaları və pişik evləri yaradılıb. Bundan əlavə, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.



Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ ağaclar, kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

Məlumat üçün bildirək ki, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən etibarən "Bizim həyət" layihəsi icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.



"Bizim həyət" layihəsi çərçivəsində bu günədək 153 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, "IDEA" İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır.

Müraciətlərinizi "IDEA" İctimai Birliyinin qaynar xətti "1113" və ya e-mail ünvanına (info@idea-campaign.org) göndərməyiniz xahiş olunur.

# ÜST-nın ekspertləri Azərbaycanda qızılcaya qarşı görülən işləri yüksək dəyərləndiriblər

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Ofisinin qızılca və məxmərək xəstəliklərinin eliminasiyası üzrə ekspert qrupu Azərbaycana missiya səfəri edib.

Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, missiyanın əsas məqsədi ötən il ölkəmizdə qızılca hadisələri ilə bağlı xəstəliyin alovlanmasının qarşısının alınması sahəsində görülən işlərin qiymətləndirilməsidir. Səfər çərçivəsində beynəlxalq ekspertlər tərəfindən epidemioloji nəzarətə dair monitorinq və xarici qiymətləndirmə işləri həyata keçirilib.

Missiyanın yekununda qızılca alovlanmasına qarşı ölkədə aparılan cavab tədbirləri, laborator imkanların qiymətləndirilməsi, Azərbaycanda qızılca və məxmərək xəstəliklərinin eliminasiya statusunun qorunub saxlanmasına dair fəaliyyətlərin planlaşdırılması məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) struktur rəhbərlərinin və beynəlxalq ekspertlərin iştirakı ilə görüş təşkil olunub.

Görüşdə çıxış edən missiya nümayəndələri qızılca və məxmərək xəstəliklərinin eliminasiyasının ÜST-nin Avropa Regional Bürosunun qarşısında duran prioritet məsələlərdən biri olduğunu vurğulayıblar.

Tədbirdə çıxış edən Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova qeyd edib ki, ÜST tərəfindən 2015-ci ildən etibarən Azərbaycanda rəsmi olaraq qızılca və məxmərək xəstəliklərinin eliminasiyası (ölkə ərazisində endemik halların qeydə alınmaması) elan edilib. Bildirilib ki, həmsərhəd ölkələrdən 2023-cü ilin aprel ayından başlayaraq gətirilmə qızılca hadisələri ilə əlaqəli olaraq, əhali arasında xəstəliyin ocaqlı yayılma halları qeydə alınıb. Səhiyyə Nazirliyinin şöbə müdiri hazırda ölkəmizdə qızılca və məxmərək xəstəlikləri üzrə epidemioloji vəziyyətin tam nəzarət altında olduğunu diqqətə çatdırıb. Belə ki, Səhiyyə Nazirliyi tərəfindən UNICEF xətti ilə ölkəyə ÜST-nin prekvalifikasiyasından keçən vaksin preparatları gətirilib və əhali arasında vaksinasiya kampaniyası aparılır. Həyata keçirilən əks-epidemik və profilaktik tədbirlər nəticəsində qızılca hadisələrinin sayı minimuma çatıb və hazırda epidemioloji sabitlik əldə edilib.

Sonda missiya nümayəndələri Azərbaycanda qızılca alovlanmasına dair görülən işləri yüksək dəyərləndiriblər.

# "YAŞAT" Fondunun Himayəçilik Şurasının növbəti iclası keçirilib

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun Himayəçilik Şurasının növbəti iclası keçirilib.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, agentliyin sədri Ülvi Mehdiyev fondun bu günə qədər həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Həmçinin gələcək fəaliyyətə dair planlar, nəzərdə tutulan məsələlər diqqətə çatdırılıb. "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov fondun hesabatının əks olunduğu təqdimatla çıxış edib.

Himayəçilik Şurasının üzvləri də cari məsələlər, həmçinin gələcək fəaliyyətə dair təkliflərini diqqətə çatdırıblar.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi fondun vəsaitinin sərəncamçısı müəyyən edilib. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti isə Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

## 20 Sentyabr Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günüdür

# Sentyabrın şanlı səhifələri



**Azərbaycan son illər özünün unudulmaz, yaddaqalan anlarını, günlərini yaşayır, yeni tarixinin qızıl səhifələrini yazır.**

Prezident İlham Əliyevin düşünülmüş siyasi xətti, xalqımızın bir məqsəd uğrunda səfərbərliyi, əldə olunan iqtisadi uğurlar, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi, mühüm dövlət proqramlarının, sosial layihələrin həyata keçirilməsi insanların həyatını mənalandırır və daha xoşbəxt gələcəyə yollar açır.

Düşmən üzərində 44 gündə və 23 saatlıq antiterror tədbirlərində qazanılan tarixi qələbə isə ömrümüzün dəyəri, başımızın ucalığı, qəhrəmanlığımızın nümunəsi, illərimizin bəzəyi, tarixi yaddaşımızın silinməyən, heç vaxt unudulmayacaq anları, günləridir. Sentyabr qələbələrimizə aparan yolun başlanğıcı, həm də erməni faşistlərinin



ayağının torpaqlarımızdan silindiyi gündür. 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən müharibə və qazanılan parlaq qələbə nəinki xalqımıza, həm də dünyaya sübut etdi ki, Azərbaycan Prezidenti qətiyyətlidir, müdrikdir, sözü ilə əməli birdir. Ordumuz qüdrətlidir, əsgər və zabitlərimiz qorxmazdır, cəsarətlidir, mübarizdir. Xalqımız birdir, həmrəydir, vətən, torpaq uğrunda varlığını, canını qoymağa qadirdir.

Bu əzəmət, qəhrəmanlıq, qələbə əhvali-ruhiyyəsi 23 saatlıq antiterror tədbirlərində özünü daha bariz şəkildə nümayiş etdirdi. İllər boyu yaratdıqları, təbliğ etdikləri, alqışladıqları erməni ordusu, "qəhrəman" erməni əsgəri mifi saatlar içərisində dağıdıldı, məhv edildi. Azərbaycan Ordusu nəyə qadir olduğunu, hansı müqəddəs amallar uğrunda mübarizə apardığını, əsgərlərimiz, zabitlərimiz içdikləri anda necə sadiq qaldıqlarını, torpaq məhəbbətinin, valideyn nəsiyyətinin, el-oba təəssübkeşliyinin sahibi olduqlarını sübuta yetirdilər. Şuşanın sıldırım qayalarını, çətin aşırımları, meşələri, çayları dişləri, dırnaqları ilə fəth edən, düşmənin tanklarına, toplarına sinələrini gərən, bir neçə saat davam edən antiterror tədbirlərində faşistlərin mövqelərini külə döndərən oğulların şücaəti bu günlərimizin qürur mənbəyi, şərəf səhifəsidir. Bu qələbə haqqın-ədalətin təntənəsi idi. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, ancaq uzun illər kağız üzərində qalan dörd qətnaməsinin, bir çox beynəlxalq təşkilatın yerinə yetirilməyən qərarlarının həyata keçirilməsinin ifadəsi idi. Antiterror tədbirləri 44 günlük müharibədən sonra imzalanmış üçtərəfli Bəyanatın maddələrinə Ermənistanın əməl etməməsinə verilən cavabın nümunəsi idi.

İkinci Qarabağ müharibəsindən sonra dövlətimizin başçısı Ermənistan rəhbərliyini imzalanmış sənədlərin tələblərinə əməl etməyə, silahlı birləşmələri Qarabağ torpaqlarından çıxarmağa, regionda sabitlik yaratmağa dəvət etsə də, təcavüzkar dövlət və himayədarları buna əhəmiyyət verməmiş, əksinə, həmin ərazilərdə istehkamlar qurmağa, əlavə qüvvələr cəmləşdirməyə cəhd göstərmişlər. Qarabağa silahlar daşınmış, hərbi təlimçilər gətirilmiş, müharibəyə çağırışlar edilmiş, saysız-hesabsız təxribatlar törədilmişdir. Ərazidə olan maddi sərvətlər vəhşicəsinə talanmağa başlanılmış, Azərbaycanın bir sıra vətəndaş cəmiyyəti nümayəndələrinin və ekoloji fəalların Şuşa-Laçın yolunda aylarla davam edən etiraz aksiyalarına məhəl qoyulmamışdır.

Azərbaycanın dəfələrlə Ermənistana davamlı sülh, ərazilərimizdə silahlı təxribatlara son qoyulması, münasibətləri yaxşılaşdırmaq çağırışları da cavabsız qalırdı, təcavüzkar dövlət sülh danışıqlarından boyun qaçırırdı. Əksinə, düşmən gizli yolla silah əldə edilməsini, ərazilərimizə minaların basdırılmasını sürətləndirirdi. 19 sentyabr 2023-cü il tarixdə erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslərin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının şəhid olması, yaralanması, ordumuzun bölmələrinin vaxtaşırı atəşə tutulması, terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində mülki şəxslərin həlak olması, erməni silahlı birləşmələrinin döyüş mövqelərini möhkəmləndirmələri bir daha göstərdi ki, Ermənistan təcavüz yolundadır, müharibəyə üstünlük verir və torpaqlarımızı yenidən işğal etmək fikrindədir. Belə olan halda antiterror tədbirlərinin görülməsi, qeyri-qanuni erməni birləşmələrinin məhv edilməsi zəruri idi və bu, Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsindən, insanlarımızın həyatının qorunmasından irəli gəlirdi.

Azərbaycan Prezidenti, şanlı ordumuz bu zərurəti reallığa çevirdi. Antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri, hərbi təyinatlı obyektləri tamamilə sıradan çıxarıldı. Düşmən ağ bayraq qaldırdı və təslim oldu. Bu tədbirlər zamanı mülki obyektlərə, əhaliyə zərrəcə ziyan dəyməməsi Azərbaycanın humanistliyini bir daha ortaya qoymaqla dünyaya nümunə oldu. Cəmi 23 saatdan sonra Qarabağdakı xunta rejimi təslim oldu, özünü buraxdı və təcavüzkar rejimin cinayətkar başçıları həbs edildilər. Nəhayət, uzun illər keçdikdən sonra Azərbaycan öz suverenliyini tam bərpa etdi və torpaqlarımız yağılardan tamamilə təmizləndi. 20 sentyabr 2023-cu il tariximizin ən şərəfli səhifələrindən biridir və bu günümüzlə qürur duyuruq. Bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istəyən hər bir ölkə üçün nümunədir. Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olunması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər".

Azərbaycan şanlı qələbəsi ilə yeni reallıqlar yaratmaqla yeni dövrə qədəm qoyub. Bu dövr sülh, inkişaf, sağlam münasibətlər, qarşılıqlı əməkdaşlıq dövrüdür. Azərbaycan dövrün reallıqlarını düzgün qiymətləndirən qalib dövlət olmasına baxmayaraq, sülhə böyük önəm verən ölkə kimi Ermənistanla münasibətləri sağlamlaşdırmaq, əlaqələri möhkəmləndirmək əzmindədir. Ancaq Ermənistan hər vəchlə sülh müqaviləsini imzalamağı ləngidir, xarici dövlətlərin təsiri ilə ölkəmizə qarşı məkrli niyyətlərdən əl çəkmir. Bu ölkə silahlanmaya, özünə havadarlar axtarmağa, ərazisində xarici dövlətlərin hərbi qüvvələrini yerləşdirməyə, yeni təxribatlar törətməyə səy göstərir. ABŞ və Fransa kimi dövlətlərin, Avropa İttifaqının, AŞPA-nın şirnikləndirici vədlərinə, maliyyə vəsaitlərinə aludə olan Ermənistan son günlər Naxçıvan Muxtar Respublikasının bir sıra yaşayış məntəqələrini, Kəlbəcər rayonunun ərazilərini atəşə tutmaqla münaqişəni alovlandırmağa çalışır.

Görünür, ermənilər sentyabrın dərslərindən lazımi nəticə çıxarmayıblar, yenidən "dəmir yumruğ"un zərbəsini almaq istəyirlər. Bilməlidirlər ki, növbəti dərs daha acınacaqlı ola bilər və Ermənistanın bir dövlət kimi Yer üzündən silinməsi ilə nəticələnər. Paşinyan başda olmaqla erməni şovinistləri və onların havadarları öz taleləri barədə ciddi düşünməli, sentyabrda uğradıqları məğlubiyyəti tez-tez xatırlamalı və nəticə çıxarmalıdırlar.

**Tahir RZAYEV,**
***Milli Məclisin deputatı***

# Dövlətimizin iradəsinin və prinsipiallığının növbəti göstəricisi

"Vətən müharibəsindən əvvəlki dövrdə də, sonra da Azərbaycan-Ermənistan münaqişəsi mövzusunda danışarkən Prezident İlham Əliyev hər zaman bəyan edirdi ki, Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına heç vaxt icazə verilməyəcək. 44 günlük hərbi əməliyyatlar nəticəsində diz çökərək kapitulyasiya aktı imzalamış Ermənistan, eləcə də Qarabağda olan separatizmin qalıqları nə bu bəyanatlardan, nə də müharibədən dərs çıxarmaq fikrində idi.



2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərini icra etmək əvəzinə Ermənistan gizli yollarla Qarabağdakı separatçılara silah-sursat göndərir, erməni silahlı dəstələri mütəmadi olaraq təxribatlar törədir, mina terrorunu davam etdirmək məqsədilə 2021-ci ildə Ermənistanda istehsal edilmiş minaları ərazilərimizdə basdırmaqla məşğul olurdular".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, erməni separatçılar həmçinin əzəli Azərbaycan ərazilərində ekoloji terror törədir, qanunsuz formada təbii resurslarımızı talamağa çalışırdılar. Silahlı dəstələrin Azərbaycan ərazisindən çıxarılması üçün ölkəmizin haqlı tələblərindən, eləcə də Qarabağda yaşayan əhaliyə reinteqrasiya çağırışından yayınan Ermənistan tərəfi və separatçılar təxribatları intensivləşdirirdilər. Hətta separatçılar müstəqillik iddialarından əl çəkmir, özlərinin oyuncaq "prezident"lərini seçir, qondarma "parlament"ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər. "2023-cü ilin 19 sentyabr tarixində isə Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətdilər. Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldu və yaralandılar. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak oldu. Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edildi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Cəmi 23 saat ərzində separatçılar ağ bayraq qaldırmalı oldular və bununla da separatizmin kökü kəsildi. Azərbaycan Ordusu antiterror tədbirləri zamanı yüksək peşəkarlıq nümayiş etdirərək yalnız hərbi hədəfləri zərərsizləşdirdi. Heç bir mülki şəxs xəsarət almadı, həmçinin heç bir mülki obyektə ziyan dəymədi.

Separatçı rejimin rəhbəri Samvel Şahramanyanın sentyabrın 28-də qondarma rejiminin ləğvi ilə bağlı sənəd imzaladığını xatırladan K.Bayramov qeyd edib ki, antiterror tədbirləri nəticəsində Qarabağdakı xunta rejimi, bu rejimə rəhbərlik edən və imkan düşən kimi xalqımıza qarşı hədə-qorxular səsləndirən, müharibə olacağı təqdirdə Bakıya qədər gələcəklərini deyən sözdə "prezident"lər", "nazir"lər və "general"lar bir-bir həbs edildi. Azərbaycan oğullarının müşayiəti ilə onların qolları bağlı vəziyyətdə həbsxana kameralarına salınması isə dünya xəbər agentliklərinin ən çox tirajladığı xəbərə çevrildi. İmperialist siyasətindən əl çəkməyən bəzi dövlətlərin, kökləri islamofob fəaliyyətlərə dayanan müxtəlif beynəlxalq qurumların dəstəklədiyi bu ermənilərin həbs edilməsi dövlətimizin iradəsinin, gücünün və prinsipiallığının növbəti göstəricisi idi.

Üçrəngli bayrağımız Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda da ucaldıldı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən, qətiyyətli siyasəti nəticəsində ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam təmin edildi.

K.Bayramov vurğulayıb ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun keçirdiyi antiterror tədbirləri suveren dövlətimizin qüdrətini və lazım gəldikdə ədaləti bərpa etmək qabiliyyətini dünyaya bir daha göstərdi.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# 20 Sentyabr Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günüdür

**Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən bir il ötür. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən və cəmi 23 saat çəkən bu hərbi əməliyyatla Azərbaycan ərazilərində 200 il idi davam edən erməni separatçılığına birdəfəlik son qoyuldu. Qəhrəman ordumuzun möhtəşəm zəfəri ilə yekunlaşan bu əməliyyatla bütün torpaqlarımız üzərində dövlətimizin suverenliyi təmin edildi, Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq kimi sərsəm ideya həmişəlik tarixin zibilliyinə atıldı. Bununla da möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətçilik tariximizin növbəti şərəfli səhifəsi yazıldı.**
**Əslində, antiterror tədbirlərinə Vətən müharibəsində qazandığımız tarixi Zəfərin məntiqi davamı kimi də yanaşa bilərik. Dövlətimizin, xalqımızın qürur mənbəyinə çevrilən 44 günlük Vətən müharibəsində Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımız azad edildi, sözdən və sülhdən anlamayan düşmən döyüş meydanında ordumuz tərəfindən layiqli şəkildə cəzalandırıldı.**



# Azərbaycanı bütövləşdirən zəfər

### Azərbaycanın yaratdığı nümunə, yaxud Zəfər çələngli Lider

Xalqımız bu müharibədə yumruq kimi bir oldu. Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, bu müharibə xalqımızın əyilməz ruhunu göstərdi. 44 gün ərzində dünya Azərbaycanı yenidən tanıdı, onun rəhbərinin yenilməzliyinə, siyasi müdrikliyinə şahidlik etdi.

Bu Zəfər Ulu Öndər Heydər Əliyev yolunun, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təntənəsinə çevrildi. Bir daha bu tarixi gerçəklik öz təsdiqini tapdı ki, xalqımız Ulu Öndər Heydər Əliyevin ideyalarına söykənməklə, öz taleyini məhz cənab İlham Əliyevə etibar etməklə böyük müdriklik və uzaqgörənlik nümayiş etdirib. Eyni zamanda Vətən müharibəsindəki tarixi Zəfər onu göstərdi ki, Prezident İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının həyata keçirilməsini, dövlətçiliyimizin güclənməsini, ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılmasını təmin edib. Nəticə etibarilə bu amillər torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanın uğurla yerinə yetirilməsinə xidmət etdi.

Vətən müharibəsində yalnız torpaqlarımızı azad etmədik, həm də bütün şəhidlərimizin, Ermənistanın hərbi cinayətlərinin, törətdiyi soyqırımlarının qurbanı olan bütün vətəndaşlarımızın qisasını aldıq, onların qanını yerdə qoymadıq. Tək müasir deyil, son bir neçə əsrlik tariximizin ən böyük hadisəsi olan bu zəfərlə möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ziddiyyətli beynəlxalq münasibətlər şəraitində dövlətin təkbaşına və güc yolu ilə öz hüquqlarını təmin etməyinin nümunəsini yaratdı.

Vətən müharibəsində Azərbaycan yalnız Ermənistanı məğlub etmədi. Biz bu savaşda düşmənin arxasında dayanan güclərə, siyasi mərkəzlərə, erməni təəssübkeşlərinə, ümumilikdə götürdükdə dünya erməniliyinə qalib gəldik. Torpaqlarımızın 30 ilə yaxın işğal altında qalmasının da səbəbkarı məhz dünya erməniliyinin ünvanlarına çevrilmiş Qərb siyasi mərkəzləri idi. Hansı ki, onların məqsədi Qarabağda ikinci erməni dövlətinin yaradılması və ya onun zamanla Ermənistana ilhaq edilməsi idi. Bu baxımdan biz həm də erməni təəssübkeşi olan siyasi mərkəzlərə qalib gəldik, onların saxta iddialarını, ATƏT-in Minsk qrupunu tarixin zibilliyinə göndərdik. Cənab İlham Əliyev dünya erməniliyinə qalib gəlməklə göstərdi ki, heç bir qüvvə Azərbaycanı öz yolundan döndərə bilməz.

### Antiterror tədbirlərinə gedən yol

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanat Azərbaycanın 44 günlük müharibədəki qələbəsinin, Ermənistanın isə məğlubiyyətinin siyasi-hüquqi təsdiqi oldu. Bu bəyanatla Ermənistan həm də üzərinə bir sıra öhdəliklər götürdü və onlardan biri də erməni silahlı qüvvələrinin Qarabağ ərazisindən tamamilə çıxarılması idi. Bu öhdəlik bəyanatın 4-cü bəndində öz əksini tapıb.

Üçtərəfli Bəyanat imzalandığı dövrdə Azərbaycanın Qarabağ bölgəsində 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri mövcud idi. Amma Ermənistan bəyanatın 4-cü bəndini kobud şəkildə pozdu və ordusunun qalıqlarını Qarabağdan çıxarmaqdan imtina etdi. Müharibədən ötən 3 il ərzində onlar Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə qarşı davamlı şəkildə terror həmlələri həyata keçirir, əraziləri minalayır, yeni hərbi obyektlər yaradır, mühəndis qurğuları inşa edirdilər. Bütün bunların yolverilməz olması barədə Azərbaycanın xəbərdarlıqlarından nəticə çıxarmayan separatçıların Ermənistandan Qarabağa silah-sursat daşıdıqları da məlum idi. Aşkarlanmış minaların 2021-ci ildə Ermənistanda istehsal olunması Qarabağdakı separatçıların silah-sursatla təchiz edilmələrini təsdiqləyirdi.

Bütün bunların qarşısını almaq üçün Azərbaycan dövləti dəfələrlə xəbərdarlıq etdi. Eyni zamanda təmkinli davranış nümayiş etdirən rəsmi Bakı Qarabağda Azərbaycan dövlətinin konstitusion quruluşunun bərqərar edilməsi, birgəyaşayışın təmin olunması, o cümlədən separatçılığa son qoyulması üçün bütün siyasi-diplomatik imkanları işə saldı. Bir sözlə, rəsmi Bakı azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin həyata keçirilməsi, bu məsələlərin danışıqlar yolu ilə ölkə Konstitusiyası və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi.

Lakin Ermənistan və Qarabağdakı separatçılar hər vəchlə Azərbaycanın bütün təşəbbüs və təkliflərinə qarşı çıxdılar. Azərbaycanın humanist çağırışlarının əvəzinə Ermənistan Qarabağdakı silahlı qüvvələrini gücləndirməklə, Qarabağdakı ermənilərdən alət kimi yararlanmaqla, bütövlükdə sülh prosesini sabotaj etməklə məşğul oldu.

Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə 2023-cü il aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" nəzarət-buraxılış məntəqəsinin yaradılması, əslində, Qarabağdakı separatçılar üçün xəbərdarlıq idi. Qeyd edək ki, Laçında sərhəd-buraxılış məntəqəsinin yaradılması Prezident İlham Əliyevin Azərbaycanın milli maraqları uğrunda həyata keçirdiyi qətiyyətli və uzaqgörən siyasətinin mühüm təcəssümü idi. Bu, yalnız müasir müstəqillik dövrümüzün deyil, son bir neçə əsrlik dövlətçilik tariximizin böyük hadisəsi oldu. Çünki bununla Orta əsrlər xanlıqlar dövründən bu yana ilk dəfə olaraq bütün sərhədlərimiz üzərində tam nəzarət hüququ təmin olundu. Bu tarixi uğur bir daha göstərdi ki, Prezident İlham Əliyev Azərbaycanın milli maraq və mənafelərinin qorunması və təmin edilməsi istiqamətində dəqiq, uzaqgörən və müdrik strateji siyasi kurs müəyyən edib.

Laçında nəzarət-buraxılış məntəqəsinin yaradılması Ermənistan və separatçılar üçün xəbərdarlıq olmaqla yanaşı, onu göstərirdi ki, bütün sərhədləri boyu milli suverenliyini tam təmin edən Azərbaycan öz ərazisindəki "boz zona"nın da mövcudluğu ilə barışmayacaq, Qarabağdakı erməni separatçılığına mütləq son qoyacaq. 2023-cü ilin may ayında Prezident İlham Əliyev Laçından separatçılara bir daha xəbərdarlıq edərək dedi: *"Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər".*

Lakin ermənilər bundan nəticə çıxarmaq, 44 günlük müharibədəki məğlubiyyətlərindən dərs götürmək əvəzinə həm şərti sərhəddə, həm də Qarabağda Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdə təxribatçı fəaliyyətlərini davam etdirdilər. Həmin günlərdə Qarabağdakı ermənilərin Azərbaycan tərəfindən guya blokadaya alınması ilə bağlı Ermənistanın riyakarcasına məzlumluq obrazına girməsi, Fransanın yardım canfəşanlığı da ölkəmizə qarşı təxribatın tərkib hissəsi idi. Bununla onlar hər vəchlə sülh danışıqlarını sabotaj edir, kommunikasiyaların açılmasını əngəlləməyə, regionun problemlərinin həlli və inkişafı ilə bağlı bütün səyləri heçə endirməyə çalışırdılar. Hətta separatçılar elə arxayınlaşmışdılar ki, müstəqillik iddialarından dəm vurur, özlərinin oyuncaq "prezident"lərini seçir, qondarma "parlament"ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər.

Bütün bunların fonunda Qarabağdakı separatçılar tərəfindən Azərbaycan Ordusunun mövqelərinin sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi işlərinin aparılması, eləcə də səngər və sığınacaqların sayının artırılması, Azərbaycanın və xarici ölkələrin mülki təyyarələrinə qarşı radio-elektron müdaxilə halları gərginliyi daha da artırmış, antiterror tədbirlərinin aparılmasını labüd etmişdi.

Artıq 2023-cü ilin sentyabrında vəziyyət daha dramatik hal almışdı. Sentyabrın 2-də Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Qarabağ iqtisadi rayonunda qondarma "prezident seçkiləri"nin keçirilməsi, Ermənistanın baş naziri Nikol Paşinyanın üzərinə düşən öhdəlikləri yerinə yetirmək əvəzinə bu təxribatçı əməli dəstəkləməsi, qondarma və separatçı rejimə təbrik göndərməsi göstərirdi ki, Ermənistan məsələlərin danışıqlar və sülh yolu ilə həllindən uzaqdır. 2023-cü ilin sentyabrında Qarabağdakı erməni sakinlərə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni anda istifadə etməklə Beynəlxalq Qızıl Xaç Komitəsinin yük avtomobilləri ilə qida məhsullarının göndərilməsi Azərbaycanın gərginliyin azaldılması ilə bağlı niyyətinin göstəricisi olsa da, ermənilər bundan nəticə çıxarmadılar, Azərbaycanın sülh təşəbbüslərinə, bölgədə birgəyaşayışın, sülh və sabitliyin, qanunun aliliyinin bərqərar olmasına yönəlmiş siyasətinə rəğmən pozucu fəaliyyətlərini davam etdirdilər.

### "Dəmir yumruğ"un növbəti zərbəsi

2023-cü ilin 19 sentyabr tarixində baş verənlər isə Azərbaycanın səbr kasasını daşdıran hadisələr oldu. Həmin gün erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldular. Bundan başqa həmin gün erməni separatçılarının törətdiyi növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak oldu. Ordumuzun bölmələrinin minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması nəticəsində isə iki hərbi qulluqçumuz yaralandı.

Bütün bunlar göstərdi ki, ermənilər "dəmir yumruq" üçün darıxıblar və onlarla güc dili ilə danışmaqdan başqa yol yoxdur. Beləliklə, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, ermənilər tərəfindən törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan ordusunun birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, separatçıların cəzalandırılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Qarabağda Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa olunması məqsədilə ordumuzun bölmələri tərəfindən lokal xarakterli antiterror tədbirlərinin keçirilməsinə qərar verildi.

Sentyabrın 19-da başlayan antiterror tədbirləri cəmi 23 saat 43 dəqiqə çəkdi. Elə əməliyyatın ilk dəqiqələrindən gedişat Azərbaycan Ordusunun ən yüksək və modern döyüş imkanlarına malik olduğunu göstərdi. Cəmi bir neçə saat ərzində düşmənin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri sıradan çıxarıldı. Hər günü bir şanlı tarix olan 44 günlük Vətən müharibəsində olduğu kimi ildırımsürətli antiterror tədbirlərində də ordumuz yenidən möhtəşəm zəfər tarixi yazdı.

Antiterror tədbirləri ordumuzun şəxsi heyətinin, əsgər və zabitlərimizin hərbi peşəkarlığının və vətənpərvərliyinin növbəti təsdiqi oldu. Vətən müharibəsində olduğu kimi, bu dəfə də düşmən əlverişli və üstün mövqelərdə idi. Dağlıq ərazi separatçılar üçün təbii istehkam rolunu oynayırdı. Amma nə gücləndirilmiş müdafiə qurğuları, nə coğrafi relyef ordumuzun qarşısını kəsə bildi və bir sutkadan da az davam edən əməliyyatda düşmən darmadağın edildi. Əməliyyat zamanı düşmənin min nəfərdən çox canlı qüvvəsi, yüzlərlə hərbi texnikası məhv edildi və bir o qədər də qənimət götürüldü. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də günorta lokal xarakterli antiterror tədbirləri dayandırıldı və separatçılar ağ bayraq qaldırdılar.

Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində keçirilən paradda çıxışında bu barədə bildirib: *"Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik".*

Antiterror tədbirlərinin unikallığı həm də ondadır ki, bir nəfər də olsun mülki şəxsə və obyektə ziyan dəymədi. Baxmayaraq ki, ermənilər məqsədli şəkildə öz mövqelərini və hərbi texnikalarını yaşayış evlərinə, mülki infrastrukturlara yaxın ərazilərdə yerləşdirmişdilər. Ona görə antiterror tədbirləri hərb tarixində nadir əməliyyatlardan hesab olunur.

44 günlük savaşı zəfərlə başa vuran Azərbaycan qalib ölkə kimi bir çox təsir mexanizminə sahib olsa da, hər zaman sülh və humanizm prinsiplərindən çıxış etdi. Lakin xəstə təfəkkürdən uzaqlaşa bilməyən ermənilər bunu anlaya bilmədilər. Beləliklə, cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xəbərdarlıqlarından nəticə çıxarmayan düşmən "dəmir yumruğ"un zərbəsini yenidən aldı. Cəmi 23 saat ərzində başda Fransa olmaqla dünya erməniliyi Azərbaycanın qarşısında diz çökdürüldü, Qarabağda qeyri-qanuni xunta rejimi ləğv olundu, Azərbaycan dövləti özünün suverenliyini tam təmin etdi. Düşmənin bir zamanlar qurduğu "Artsax" adlı qondarma dövlətçilik oyunları və müstəqillik xəyalları iflasa uğradıldı. Prezident İlham Əliyev bir daha sübut etdi ki, heç bir qüvvə Azərbaycanın milli maraqlarının qarşısını ala bilməz.

### Mehriban xanım Əliyevanın təşəbbüsləri cəmiyyətimiz tərəfindən alqışlarla qarşılanır

Antiterror tədbirlərində Azərbaycan hərbçiləri Vətən müharibəsində olduğu kimi, vətənpərvərliyin və Vətəni sevməyin nümunələrini yaratdılar. 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərindəki çıxışı zamanı Prezident İlham Əliyev bu barədə deyib: *"Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir".*

Bu əməliyyat zamanı 200-dən çox hərbçimiz şəhidlik məqamına yüksəldi, 500-dən artıq hərbçimiz yaralandı. Bu gün doğma Qarabağ bizim üçün həm də ona görə müqəddəsdir ki, o torpaqlara qəhrəman şəhidlərimizin qanı hopub.

Böyük qürur hissi ilə qeyd etməliyəm ki, Silahlı Qüvvələrimizin sıralarında xidmət edən naxçıvanlılar da Vətən müharibəsində olduğu kimi antiterror əməliyyatları zamanı qəhrəmancasına döyüşdülər, həlak oldular, yaralandılar. Vətən müharibəsində 3 mindən artıq şəhidimiz, eləcə də onlarla Naxçıvandan olan şəhidlərimiz kimi bu diyardan olan 10 hərbçimiz Qarabağda milli suverenliyimizin təmin edilməsi uğrunda gedən antiterror döyüşlərində şəhidlik zirvəsinə ucaldı. Müstəqil, suveren Azərbaycanımızın hər yerində olduğu kimi bu gün ulu diyarımız olan Naxçıvanda da şəhidlərimizin hər birinin xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilir, onların ailələri, qazilərimiz hərtərəfli qayğı ilə əhatə olunur, xüsusi diqqət mərkəzində saxlanılır. Bu sırada Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlər, fondun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri nəinki seçilir, həssas insanlar, bütün Naxçıvan sakinləri və bütöv cəmiyyətimiz tərəfindən həmişə böyük rəğbət və alqışlarla qarşılanır.

Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondunun nümayəndələri Vətən müharibəsindən sonra hər bir şəhid ailəsinin üzvləri, o cümlədən yaralanmış hərbçilərimizlə görüşlər keçiriblər. Heydər Əliyev Fondunun xətti ilə 100-ə yaxın Vətən müharibəsi qazisinin müxtəlif ölkələrdə yüksək səviyyədə müalicəsi təmin olunub. Bütün bunlar Heydər Əliyev Fondunun timsalında dövlətimizin şəhid ailələrinə, veteranlara olan qayğısını göstərir.

Heydər Əliyev Fondunun prezidenti, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Vətən müharibəsində olduğu kimi, antiterror tədbirlərində də yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini dərhal nəzarətinə götürdü, şəhid ailələrinin yanında oldu. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti kimi ötən 7 ildən artıq fəaliyyət dövrünün reallıqları Prezident İlham Əliyevin ona özü qədər əminliyinin təsdiqi olmaqla yanaşı, sosial-humanitar sahədə, kadr siyasətində də nə qədər müdrik olduğunu sübut edib. Çünki Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın missiyası Prezident İlham Əliyevin həyata keçirdiyi dövlətçilik kursunun prinsip və şərtlərinə uyğun olaraq respublikamızın inkişafına, beynəlxalq əlaqələrinin genişlənməsinə və xüsusilə sosial məsələlərə yönəlib. Eyni zamanda antiterror tədbirlərindən sonra Mehriban xanım Əliyevanın Prezident İlham Əliyevlə birlikdə Qarabağa səfərlər etməsi, erməni separatçılarının iki əsr əsarətdə saxladıqları yurd yerlərimizlə yaxından tanış olması onun vətənpərvərliyinin əsl təcəssümü oldu.

Bunlarla yanaşı, Mehriban xanım Əliyeva bütün yüksək tribunalardan istifadə edərək dövlətimizin haqq işini, milli suverenliyimizin bərpa olunmasını dünyaya bəyan edir. Məsələn, İstanbulda keçirilən dövlət və hökumət başçılarının xanımlarının "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına Mehriban xanım Əliyevanın müraciətində deyilir: *"Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzü nəticəsində ərazilərimiz işğal olunmuş, bir milyona yaxın soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüş, 300-dən artıq şəhər və kəndimiz darmadağın edilmiş, dini və mədəni irsimiz dağıdılmışdır. Vaxtilə işğal edilmiş torpaqlarımızda 67 məsciddən 65-i yerlə yeksan edilmişdir.*

*Təəssüflə qeyd etmək istərdim ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını özü işğaldan azad etdi və bu ilin sentyabr ayında antiterror əməliyyatı ilə Ermənistan silahlı qüvvələrinin qalıqlarının mövcudluğuna və separatizmə son qoyaraq suverenliyini tam bərpa etdi. Bütün torpaqlarımız üzərində milli suverenliyimiz təmin olundu".*

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şəhidlərimizin bizə əmanəti olan övladlarına da xüsusi diqqətlə yanaşır, onların hər zaman qayğı ilə əhatə olunmasına çalışır. Naxçıvanda ev-ev bütün şəhid ailələrinin, qazilərimizin qapısını döyən, onlara xanım Mehriban Əliyevanın, dövlətimizin xüsusi dəstəyini göstərən Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun qayğısını, diqqətini bu diyarın sakinləri heç vaxt yaddan çıxarmayacaqlar. Fond təkcə Naxçıvanda deyil, bütün ölkəmizdə şəhid və qazi ailələrinə birdəfəlik müavinətdən tutmuş məişət şəraitinin yaxşılaşdırılmasına qədər, müalicə xərclərinin ödənilməsindən tutmuş təhsil haqqının, istehlak kreditinin ödənilməsinədək humanist fəaliyyət göstərir. Heydər Əliyev Fondunun ənənəvi bayram şənlikləri də bu kateqoriyadan olan ailələri, uşaqları sevindirmək məqsədilə təşkil edilir. Son olaraq ötən ay Heydər Əliyev Fondunun təşkilatçılığı və "Dəniz Mall"un dəstəyi ilə keçirilən tədbirlərin də məqsədi məhz şəhid övladlarını sevindirmək olmuşdur.

❖ ❖ ❖

Hər bir dövlətin və xalqın tarixində həlledici sayılan hadisələr baş verib. 1991-ci ildə müstəqilliyimizin bərpası, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin dövlətçiliyimizi və müstəqilliyimizi xilas etməsi, 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi də Azərbaycan xalqının tarixinin möhtəşəm hadisələridir. Ötən ilin sentyabrında keçirilən antiterror tədbirlərinin nəticəsində tariximizin möhtəşəm hadisələrinin sırasına biri də əlavə olundu.

*Qarabağda separatizmə son qoyulması və milli suverenliyimizin təmin edilməsi olduqca əlamətdar dövrə təsadüf etdi. Belə ki, həmin vaxt respublikamızda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə bağlı tədbirlər keçirilir, qarşıdan isə Prezident İlham Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyə başlamasının 20-ci ildönümü gəlirdi. Bu mənada Qarabağda milli suverenliyimizin tam bərpa edilməsi həm Ulu Öndər Heydər Əliyevin xatirəsinə olan ümummilli ehtiramın ən böyük nümunəsinə çevrildi, həm də Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin 20 illik uğur hesabatının növbəti şərəfli səhifəsi yazıldı.*

**Bəxtiyar ƏSGƏROV,**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# 20 Sentyabr Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günüdür



## Xankəndi öz gününü bayram sevinci ilə yaşayır

### Azadlığın təntənə günündən reportaj

**Ezamiyyətdə olduğumuz həmin gün Xocalıda hava çox gözəl və sakit idi. Üfüqdən xeyli yuxarı qalxmış sentyabr günəşi "xəsislik" etmədən ılıq şəfəqlərini Qarabağın hər tərəfinə yayırdı. Havanın gözəlliyi, təbiətin əsrarəngizliyi bizi özünə çəkirdi. Elə bu səbəbdən də Qarabağın gözəl guşəsi olan Xocalıda çox qalıb hər yanı addım-addım gəzmək, doğma ocaqlarına yenicə qayıtmış keçmiş köçkünlərlə həmsöhbət olmaq istəyirdik. Amma nə edək ki, buna vaxtımız azlıq edirdi. Gün ərzində Xankəndidə, Şuşada, Laçında görülməli işlərimiz çox idi. Buna görə də vaxt itirmədən Xankəndiyə yola düşməyə hazırlaşırdıq.**

### Xocalı Şəhər Gününün təsis edilməsi sakinlər üçün ikiqat sevinc oldu

Elə bu ərəfədə məlumat yayıldı ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 20 sentyabr Xankəndi, Xocalı, Xocavənd və Ağdərə günü elan edilib. Xocalı sakinləri bu xəbəri böyük sevgi ilə qarşıladılar. Sevincdən, fərəhdən xocalılıların üzləri gülürdü, ürəkləri açılırdı. Eşitdikləri bu xəbər 32 illik ayrılıqdan sonra doğma ocaqlarına qayıtmış insanlar üçün ikiqat sevinc oldu. Bu ildən, bu gündən başlayaraq şəhər sakinləri 20 sentyabrı - Xocalı gününü böyük təntənə ilə, sevinc içində bayram edəcəklər. İllərdən bəri insanların ürəyini yandırıb-yaxan həsrət, kədər bu sevinc selinin içində əriyəcək. Soyqırımından qurtuluşa, yüksəlişə gedən yol xocalılılara sevinc qarışıq böyük uğur da gətirəcək!

Ətrafdakı gözəlliyi seyr edə-edə Xocalının yeni asfalt döşənmiş küçələrindən keçirik. Hara, hansı səmtə baxırıqsa, orada quruculuq işlərinin aparıldığını görürük. 2023-cü il sentyabrın 20-də erməni işğalından azad olunmuş Xocalı şəhəri ötən aylar ərzində görkəmini dəyişərək daha da gözəlləşib. Yeni salınan küçə və parklar, əkilmiş ağaclar, yaşıllıqlar zolağı şəhərə xüsusi yaraşıq verir.

İllər əvvəl bu yerlərin həsrətini çəkə-çəkə qalmışdıq. Qarabağın baş şəhəri Xankəndiyə getməyi arzulayar, əlçatmaz xəyallar qurardıq. Şükürlər olsun ki, qurulan xəyallar reallaşdı. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında Qarabağı erməni işğalçılarından təmizlədi. Düşmən üzərində qazanılan Zəfər Qarabağa gedən illər uzunu bağlı qalmış yolları üzümüzə geniş açdı. İndi biz bu yollardan keçib Xocalıdan Xankəndiyə tərəf yol almışıq.

Xocalıdan Xankəndiyə məsafə çox da uzaq deyil. Yol uzunu bir neçə yaşayış məntəqəsinin yaxınlığından keçirik. Köhnə yolun böyründən Xankəndiyə yeni yol çəkilir. Traktorlar dayanmadan işləyir, ağırtonnajlı maşınlar yeni çəkilən yollara daş, çınqıl daşıyır. Hiss olunur ki, bir dəqiqə də olsun işlər səngimir.

Xocalının mərkəzindən bir az uzaqlaşandan sonra bir vaxtlar Rusiya sülhməramlılarının "məskən" saldıqları ərazinin yaxınlığından keçirik. Xeyli ərazini əhatə edən vaqon evlərin yanından ötəndən sonra uzaqdan Xocalı aeroportunu gördük. Burada sakitlik idi. Nə bir havaya qalxan, nə də enən təyyarə gözə dəyirdi. Amma Qarabağın əbədi-əzəli sakinləri doğma ocaqlarına qayıdandan sonra burada həyat qaynayacaq...

### Zəfər paradı dostlarımızı sevindirdi, düşmənlərimizə gözdağı verdi

Bir az da irəli gedəndən sonra "Xankəndi" sözü yazılmış lövhəni görürük. Bu anlarda ürəyimiz sevinclə, fərəhlə dolub-daşır. Xocalı kimi Xankəndinin də səması günəşlidir. İndiyə qədər heç vaxt gəlmədiyimiz, görmədiyimiz bu gözəl yerlərə baxmaqdan gözlərimiz doymur. Xankəndi bizi doğma övladları kimi qarşılayır.

Küçələrdə çoxlu adamlar, maşınlar gəzişirdi. Mağazaların çoxunun qapısı açıq olsa da, işləmirdi. Amma bəziləri qapılarını şəhəri ziyarətə gələnlərin, burada abadlıq işləri aparanların üzünə geniş açmışdır. Xankəndi şəhərinin küçələri çox gözəldir, bənzərsizdir. Gördüklərimizdən qəlbimiz, ruhumuz rahatlıq tapır.

Xankəndidə gördüyümüz insanların üzündən sevinc yağırdı. Prezident İlham Əliyevin 18 sentyabr 2024-cü il tarixli sərəncamı ilə 20 sentyabrın Xankəndi, Xocalı, Xocavənd və Ağdərə günü elan edilməsi insanlara fərəh bəxş etmişdi. Hiss olunurdu ki, dövlət başçısının bu sərəncamı Xankəndidə oxuyan, yaşayan və bərpa işlərində çalışanların hamısının ürəyindən xəbər verir. Bu sərəncamın verilməsi erməni separatçıları, erməni faşizmi üzərində qazanılmış zəfərimizin, qələbəmizin daha bir təsdiqidir. Zəfər tariximizə göstərilən çox böyük hörmət və diqqətdir. Bu ildən başlayaraq Qarabağın bu gözəl şəhərində Xankəndi günü keçiriləcək. Bu əlamətdar gün şəhər sakinlərinin də, qonaqların da ovqatına ovqat qatacaq.

Bir az irəli gedəndən sonra Qarabağ Universitetinin yanına çatırıq. Universitetdə təmir işləri aparılırdı. Ali təhsil ocağının çox geniş həyəti var. İnşaatçılar çalışırdılar ki, tələbələrin burada oxuması, təhsil alması üçün hərtərəfli şərait yaratsınlar.

İrəli gedirik. Baş yoldan sağ tərəfə dönüb iki-üç küçəni də arxada qoyandan sonra bir binanın qarşısında dayanırıq. Baxanda əvvəlcə bina bizə o qədər də tanış gəlmədi. Amma yaddaşımızı təzələyəndən sonra bu məkanı tanıdıq. Ötən il noyabrın 8-də Zəfər paradı bu binanın qarşısında keçirilmişdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağ torpaqları işğaldan azad olunandan sonra hərbi paradı qarşımızdakı geniş meydanda qəbul etmişdi. Qalib Azərbaycan əsgəri Zəfər paradında nizami addımlarla bu meydandan keçmişdi. Bu, tarixi bir Zəfər paradı, tarixi bir gün idi. Qarabağın işğaldan azad olunduğunu bütün dünyaya göstərən möhtəşəm bir parad idi.





Yaddaşımızda daim canlı qalan həmin parad dostlarımızı sevindirdi, düşmənlərimizə gözdağı verdi.

### Keçmiş məcburi köçkünlər mərhələlərlə evlərinə dönürlər

Bir vaxtlar bu binanı xunta rejimi tutmuşdu. Neçə illər idi ki, separatçılar bu gözəl yerlərə sahiblik edirdilər. Özlərini bu yerlərin ağaları kimi aparırdılar. Heç vaxt onların olmamış və olmayacaq Qarabağdan çıxmaq istəmirdilər. Amma böyük zəfərlə başa çatan həm 44 günlük Vətən müharibəsi, həm də ondan sonra uğurla həyata keçirilən antiterror tədbirləri separatçıların sonunu gətirdi. 30 ildən çox Qarabağda məskən salmış separatizmin kökü kəsildi. Müxtəlif illərdə xunta rejiminə rəhbərlik edən baş separatçılar həbs olunaraq qolları qandallı Bakı şəhərinə gətirildilər.

İlk hərbi paradın keçirildiyi meydanda qürurla addımlayırıq. Gördüklərimizdən ürəyimiz, qəlbimiz iftixarla dolur. Üstündən on aydan çox vaxt keçməsinə baxmayaraq, meydanda sanki Azərbaycan əsgərinin addım səslərini eşidirik. Elə bil ki, bu dəqiqə yenə də zirehli texnikalar küçələrə səs sala-sala meydandan keçəcək. Bu günəşli gündə meydanda əsgərlərdən də çox ziyarətçilər gözə dəyir. Hamı Xankəndini görməyə gəlib. Gəliblər ki, Qarabağ xanının bu qədim kəndini görsün, onun küçələrini, meydanlarını gəzib-dolaşsın.

Vaxt keçdikcə ziyarətçilərin sayı da artır. Rastlaşdığımız insanların hamısının üz-gözündən sevinc yağır. Heyrət dolu baxışlardan hiss olunur ki, gələnlərin əksəriyyətinin Xankəndiyə ilk səfəridir.

Bir az yüksəkliyə qalxıb Qarabağın ən böyük şəhərinin gözəlliyinə tamaşa edirik. Qarşımızda geniş bir mənzərə açılır. Dayandığımız yerdən xeyli aşağıda yaşıllığa bürünmüş stadionu görürük. Stadionun lap yuxarı hissəsinə böyük hərflərlə "Qarabağ Azərbaycandır!" sözləri yazılıb. Bəli, tarix də, zaman da bir daha dünyaya göstərdi ki, Qarabağ Azərbaycandır! Xatırlayırıq ki, Qarabağ erməni işğalçılarından azad olunandan sonra 21 dekabr 2023-cü ildə bu stadionda Ağdamın "Qarabağ" klubu ilə Bakının MOİK komandaları arasında futbol yarışı keçirildi. Topa da ilk zərbəni Azərbaycan Prezidenti İlham Əliyev vurdu.

Dayandığımız yerdən Əsgəran qəsəbəsi də, Xocalı şəhəri də görünür. Bir vaxtlar ermənilər Xocalının üstünə Xankəndidən hücum etmişdilər. Bu gözəl diyarda yaşayan azərbaycanlıları qanlarına qəltan etmiş, evləri yandırmışdılar. Artıq bu qanlı hadisələr keçmişdə qalıb. İndi bu şəhərlərin özləri də, sakinləri də ömürlərinin ikinci baharını yaşayırlar. Bir vaxtlar Qarabağda məskən salmış erməni separatçıları məhv edilib, heç onların izi-tozları da qalmayıb. Amma Xocalı da, Əsgəran da, Xankəndi də, başqa şəhərlər də öz yerindədir. Bu gözəl şəhərlərin vaxtilə didərgin düşmüş sakinləri indi böyük sevinc içində yavaş-yavaş evlərinə qayıdır, doğma ocaqlarına dönürlər.

### Zəfər dolu günlərin ömrü də, sayı da uzun olacaq

Xankəndinin gözəlliyinə tamaşa edən ziyarətçilərlə görüşüb söhbət etdik. Onlardan biri olan Rasim Abdullayev deyir: "Bu günlər ömrümüzün ən gözəl, sevincli çağlarını yaşayırıq. Çünki artıq Qarabağa qayıtmışıq. Bu sevinci bizə bəxş edən Müzəffər Ali Baş Komandana, Azərbaycan əsgərinə, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə canlarından keçmiş şəhidlərə minnətdarıq. Mən hazırda Kərkicahan qəsəbəsində aparılan quruculuq və bərpa işlərində çalışıram. İşlərimiz sürətlə gedir. Çox keçməyəcək ki, bu qəsəbənin sakinləri də köçkünlük həyatına son qoyub doğma ocaqlarına qayıdacaqlar. Əvvəllər Kərkicahan qəsəbəsinin adını, gözəlliyini çox eşitmişdim. Amma təəssüf ki, heç vaxt bu yerləri görməmişdim. Şükürlər olsun ki, torpaqlarımız azad olunandan sonra Qarabağa gəlib Kərkicahanı gördüm. Nəinki gördüm, hətta bu gözəl qəsəbədə abadlıq işləri aparmaq da qismətim oldu. Doğrudan da, Kərkicahan çox gözəl yerdir. Belə yerdə işləmək də, yaşamaq da olduqca xoşdur. Bərpa işlərini sürətlə aparırıq ki, sakinlər doğma ocaqlarına tez bir zamanda dönsünlər. Qoy doğma Qarabağımız işğaldan əvvəlki xoş günlərinə qayıtsın. Bu gözəl diyarda müharibəsiz, firavan bir həyat sürsünlər. Qarabağımızı daha da gözəlləşdirsinlər, abadlaşdırsınlar".

Rasim Abdullayev söhbətinə davam edərək onu da dedi ki, bu günlərdə dövlət başçısının imzaladığı sərəncama əsasən, sentyabrın 20-sində Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü keçirilməsi bizi çox sevindirdi. 2023-cü ilin həmin günü Azərbaycan Ordusunun Qarabağda uğurla həyata keçirdiyi antiterror tədbirləri nəticəsində bu şəhərlər erməni işğalçılarından azad edildi. Qazanılan uğur nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Hər il keçiriləcək bu əlamətdar şəhər günləri tariximizi öyrənmək baxımından da çox qiymətlidir.

Digər bir həmsöhbətimiz isə Həsən Abdullayevdir. O deyir:

- Tərtər rayonunun Əskipara kəndindənəm. Xankəndiyə ilk gəlişimdir. Sevincimin həddi-hüdudu yoxdur. Çünki illərin arzusuna çatmışam. Bu günü həmişə arzulayırdım, ürəyimdən Qarabağı görmək keçirdi. Amma erməni işğalı buna imkan vermirdi. Çox şükürlər olsun ki, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Qarabağı düşməndən azad edərək bizi arzularımıza qovuşdurdu. İnsan arzusuna çantanda xoş hisslər keçirir. İndi mən də ömrümün ən yaddaqalan anlarını yaşayıram. Çünki ayağım Qarabağ torpağına dəyib. Bu yerlərin gözəlliyini görmüşəm. Buradan da Qarabağın musiqi beşiyi olan Şuşaya gedəcəyəm. Bu qədim şəhərin də gözəlliyinə tamaşa edəcəm. Nə xoşdur Qarabağı görmək, nə xoşdur bu gözəlliyin seyrinə dalmaq. Əvvəlki vaxtlar erməni işğalçıları Tərtər rayonunun sərhəd kəndlərini tez-tez atəşə tutur, camaata rahat yaşamağa imkan vermirdilər. Artıq indi atəş səsləri eşidilmir. Sakitlikdir, sakinlər evlərində çox rahat yaşayırlar. Çünki şanlı Azərbaycan Ordusu həm 44 günlük Vətən müharibəsində, həm də 19 sentyabr 2023-cü ildə Qarabağda həyata keçirdiyi uğurlu antiterror əməliyyatları zamanı düşməni diz çökdürdü, separatçıları məhv etdi. Ordumuz bu uğuru, bu zəfəri ilə Qarabağa əbədi-əzəli sülh gətirdi. Ürəkdən demək istəyirəm ki, yaşasın Azərbaycan Ordusu!

Həsən Abdullayev daha sonra əlavə edir: "Sentyabrın 18-də xoş bir xəbər də eşitdik. Həmin gün Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd edilməsi haqqında dövlət başçımızın sərəncamı elan olundu. Bu sərəncamı böyük fərəhlə qarşıladım. Həm Xandəndiyə gəlişim, həm də bu xəbəri eşitməyim mənim üçün ikiqat sevinc oldu. Həmin əlamətdar gün böyük təntənə və şəhidlərə böyük ehtiramla qeyd ediləcək. Çox sevinirəm ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında qazanılan Zəfər və qələbələrdən sonra Azərbaycan xalqının xoş günləri başlayıb. Qoy xalqımızın belə əlamətdar günləri davamlı olsun!"

Xankəndini ziyarətə gələn insanların sevinci yerə-göyə sığmırdı. Hamının gördüyü gözəllikdən ürəyi açılır, çöhrəsi gülürdü. Ziyarətçilərin üzündən, mehriban baxışlarından sanki Xankəndinin abadlaşdıqca gözəlləşən küçələrinə sevinc süzülürdü. Belə sevinc və qürur dolu anları çox yaşayacağıq. Çünki artıq Qarabağ azaddır!

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

*Bakı-Xankəndi-Bakı*



## Böyük qayıdışın böyük uğurları

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı cari ilin birinci yarısı üzrə monitorinq və qiymətləndirmə prosesini yekunlaşdırıb.

AZƏRTAC İİTKM-in yaydığı məlumata istinadən xəbər verir ki, mərkəzin icraçı direktorunun müşaviri Təranə Salıfova dövlət proqramının tədbirlər planı çərçivəsində "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioriteti üzrə 28 min hektara yaxın ərazinin minalardan və partlamamış hərbi sursatlardan təmizləndiyini bildirib. Laçın dövlət sərhədindən buraxılış məntəqəsində "Laçın" gömrük postu qurulub.

Hesabat dövründə əhalinin geri qayıdışının təmin edilməsi məqsədilə 767 ailə olmaqla, 2904 nəfər Şuşa, Füzuli və Laçın şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndlərinə köçürülüb. Azad edilmiş ərazilər üzrə ümumilikdə 612 nəfər işlə təmin edilib.

İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun yenidən qurulması ilə bağlı məlumatları da diqqətə çatdıran Təranə Salıfova qeyd edib ki, ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün



72,2 km 110 kv-luq, 262 km 330 kv-luq uzunluqda elektrik verilişi xətləri çəkilib. Ərazilərdə telekommunikasiya və poçt xidmətləri infrastrukturunun qurulması məqsədilə 2 yaşayış məntəqəsində, inzibati binada poçt xidmətləri yenidən təşkil edilib. 1 ədəd radio-televiziya yayımı stansiyasının fəaliyyəti təmin edilib. Mobil telekommunikasiya xidmətlərinin təşkili üzrə 11 yeni baza stansiyası quraşdırılıb. 5 km uzunluğunda dəmir yolu xəttinin çəkilişi başa çatdırılıb.

Respublika və yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi davam etdirilib. Hesabat dövründə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları üçün müvafiq kodlar əldə olunub. Füzuli və Zəngilan hava limanlarında uçuşların təşkili təmin edilib.

Geri qayıdacaq əhali üçün bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanını genişləndirmək məqsədilə regionda fəaliyyət göstərən bank filiallarının sayı ümumilikdə 2-yə çatdırılıb (Laçın şəhəri və Zəngilan rayonunda olmaqla). Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilmiş ərazilərdə banklar və "Azərpoçt" tərəfindən quraşdırılmış POS-terminalların sayı 611 ədəd təşkil edib.

Sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin yaradılması istiqamətində regionlarda fəaliyyət göstərən sənaye parklarında 11 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Emal sənayesi və xidmət infrastrukturunun inkişaf etdirilməsi istiqamətində ümumilikdə 170 layihə üzrə rezidentlərin fəaliyyəti təmin edilib. 3 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə güzəştli kredit verilib. Azad edilmiş ərazilərdə fəaliyyət göstərən 12 kənd təsərrüfatı məhsulunun istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına əkin subsidiyası ödənilib.

Dövlət Proqramının hesabat dövrü üzrə monitorinqi Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası" tələblərinə uyğun olaraq, icraçı orqanlar (qurumlar) ilə yaxından müzakirələr aparılmaqla elektron portal vasitəsilə (https://boyukqayidish.gov.az) şəffaflıq, hesabatlılıq və səmərəlilik prinsipləri əsasında həyata keçirilib.



# 20 Sentyabr Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günüdür

# "Xankəndiyə Şirin Mirzəyevin ruhu ilə birgə döndüm"



## Flora Qasımovanın yurd nisgili, Xankəndi xoşbəxtliyi, vətən arzuları...

### Biz qayıtdıq, Vətən!

**İllərdən sonra Xankəndiyə ayaq basıb hər döngəsi doğma, tanış olan küçələri ilə addımlayanda, doğulub boya-başa çatdığı evlərinə baş çəkəndə bir anlıq ona elə gəlir ki, bunların hamısı yuxudur... O qədər olmuşdu ki, bu cür şirin, əzizləri ilə bir yerdə olduğu röyalardan ayılıb hönkür-hönkür ağlamışdı... Səhərə qədər yatmamışdı...**

**Amma barmaqlarını ata-anasının əl izləri olan doğma evlərinin divarlarında gəzdirdikcə, həyətdəki yarıdan kəsilmiş tut ağacının pöhrələrinin son bahar küləyinin ahənginə qapılaraq sağa-sola yellənməsini, yarpaqların sevinclə aralarında pıçıldaşmasını gördükdə toxtamış, bütün bunların gerçəklik olduğuna əmin olmuşdu...**

**"İllərlə bu günün həsrətini çəkmişdim. Allahdan arzulayırdım ki, kaş bircə dəfə Xankəndini, Kərkicahanı görə biləydim. İndi bütün bunlar adama möcüzə kimi görünür. Artıq vətəndə qəribçilik çəkmirik, bütöv Azərbaycanın hər yerinə sərbəst gedə bilirik, yollarımız yarıda qırılmır... Torpaqlarımızı azad görmək Şirin Mirzəyevin ən böyük arzusu idi. İndi onun da ruhu şaddır. Xankəndiyə, Kərkicahana Şirinsiz getmək mənə çox ağır idi. O qədər xatirələr canlanırdı ki beynimdə... Sevincli, kədərli... Sadəcə mənə toxtaqlıq verən o idi ki, doğma torpağımıza Şirinin ruhu ilə bərabər döndüm. Ana Vətənə onun gözləri ilə də baxdım..."**



### Arzular çin oldu

İlk dəfə 2019-cu ilin payızında - duyğuların, düşüncələrin, xatirələrin ən kövrək, ən həssas məqamlara kökləndiyi xəzan fəslində görüşmüşdük Flora xanımla...

Onda hələ nə Vətən müharibəsi olmuş, nə Xankəndi azadlığına qovuşmuş, nə də ana vətən Qarabağla bütövləşmişdi...

O zamanlar idi ki, ürəklərdə torpaq həsrəti vardı, nə danışsaq da, haradan söhbət salsaq da, hərlənib-fırlanıb gəlirdik işğal altında olan Qarabağın üzərinə. Elə Flora xanımla müsahibəmiz də başdan-başa həsrət qaldığımız Şuşaya, Kərkicahana, Xankəndiyə - Qarabağa köklənmişdi. Vətən nisgilli o yazıya qəhrəman döyüşçü Şirin Mirzəyevin yoxluğundan doğan qəm, yurd itkisinin ağrı-acısı, xatirələrdən boylanan sevincqarışıq kədər hopmuşdu... Amma bu qüssəli yazının sonu nikbin notlarla bitir, böyük inamdan doğan əminliklə bildirilirdi ki, bir gün gələcək, Xankəndidən, Kərkicahandan, Qarabağdan zorla didərgin salınan insanlarımız qələbə köçləri ilə həmin yollarla yenidən geri, dədə-baba yurdlarına qayıdacaqlar...

Bu da Tanrının möcüzəsi, haqqın öz yerini tapmasının təcəssümüdür ki, üzərindən cəmi bir-neçə il keçdikdən sonra həmin xoşbəxt günlərin yetişdiyinə şahid olduq. Xankəndinin qurtuluşunun bir ilinin tamamı ərəfəsində Milli Qəhrəman, şəhid polkovnik-leytenant Şirin Mirzəyevin həyat yoldaşı, Milli Məclisin sabiq deputatı, "Şöhrət" ordenli Flora Qasımova ilə yenidən görüşdük. Bu dəfə torpaqlarmızın azadlığının verdiyi qüruru, fərəhi, sevinci bölüşmək, "Biz qayıtdıq, Vətən!" demək üçün...

"Xankəndinin azad olunmasını gözləyirdim, amma bunun cəmi 23 saata həyata keçiriləcəyini təsəvvürümə gətirmirdim. Qəhrəman döyüşçülərimiz şəhərdəki infrastruktura, yaşayış evlərinə heç bir ziyan vurmadan, mülki əhaliyə heç bir zərər yetirmə-



dən torpağımızı azad etdilər, erməni separatçılarını, xalqımızın qanına susayan faşistləri qarşılarında diz çökdürdülər. Bizi torpağımıza qovuşduran, qisasımızı alan Müzəffər Lider İlham Əliyevə minnətdaram. Qəhrəman qazilərimizə cansağlığı diləyirəm. Allah şəhidlərimizə rəhmət eləsin!"

### Bu tarix unudulmamalıdır

Ötən günlərə acılı-şirinli xatirələrdən körpü salan, Xankəndili, Xankəndisiz günlərindən söhbət açan Flora xanım deyir ki, Azərbaycan xalqının çörəyini yeyib onun üzünə ağ olan ermənilərin bu xainliyini heç zaman unutmamalıyıq. Bu günə qədər yaşananlar qan yaddaşımızdır:

- Bilirsiniz niyə ermənilər tələm-tələsik, kütləvi şəkildə Xankəndini tərk etdilər?! Çünki onların hamısının xalqımıza qarşı törədilən cinayətlərdən xəbəri var idi, çoxları da bunda iştirak etmişdi. Qarabağ hadisələri başlayandan az əvvəl idi, anam mənə dedi ki, Xankəndidəki erməni qonşumuz və onun Bakıda yaşayan qızı evlərini satıb köçüblər. Sonradan öyrəndim ki, ümumiyyətlə, həmin ərəfədə xeyli erməni bu cür edib. Bu mənə qəribə göründü, düşündüm ki, görəsən, birdən-birə bunlara nə olub? Az sonra hadisələr başladı. Deməli, onlar əvvəlcədən nələr olacağını bilirmişlər. Xankəndidə yerli ermənilərdən çoxu, hansılar ki, başa düşürdülər ki, nə olursa-olsun Qarabağı Ermənistana birləşdirə bilməyəcəklər, ya evlərini satmışdılar, ya da eləcə qoyub getmişdilər. Buna görə də Xankəndidə əhali azalmışdı. Sonradan xarici ölkələrdən, Ermənistandan insanlar gətirilib orada qanunsuz yerləşdirməklə əhalinin sayını artırdılar.



Onlar Azərbaycan xalqının başına müsibətlər gətirdilər, amma özləri də bunun bəlasını gördülər, qırıldılar, evlərini tərk etdilər. Ancaq həmin ermənilər bu gün də onları qara günə qoyan Sarkisyan, Koçaryan kimi quldurların yaxasından yapışıb etiraz etmirlər ki, "bütün bunları siz etdiniz"... Baxın, burada da erməni xisləti özünü göstərir, onların beynini o qədər yuyublar ki, manqurtlaşıblar...

O vaxt Moskvadan bir verilişə baxırdım. Xankəndidə bir məktəb müəllimi fəxrlə deyirdi ki, "bu hadisələrdə biz hamımız iştirak etmişik". İndi onların belə kütləvi surətdə getmələri də bunu sübut edirdi. Ona görə də biz nə qədər dedik ki, "qalın", "Azərbaycan vətəndaşlığını qəbul edib yaşayın", onlar qalmadılar. Çünki bilirdilər ki, xalqımıza qarşı tarixdə görünməmiş cinayətlər törədiblər. İnsanlarımıza divan tutublar, ev-eşiyimizi dağıdıb talayıblar, qəbiristanlıqlarımızı məhv ediblər... Bütün bunlar tariximiz, qan yaddaşımızdır...

### İlk görüş - ağrı-acılı xatirələr, ürəkdağlayan mənzərələr

Flora xanım bir qərinəlik ayrılığın ardından ilk dəfə 2023-cü ilin payızında, Xankəndi alınandan az sonra doğma yurduna yenidən qədəm qoyur. Amma 30 illik zaman ərzində ermənilərin yad münasibət bəsləyərək Xankəndini necə baxımsız vəziyyətə saldıqlarını görüb dəhşətə gəlir:

- Şəhərin mərkəzi hissəsindəkilərdən başqa, demək olar ki, bütün yollar tamamilə bərbad vəziyyətdə idi. Sovet dövründən qalan binaların hamısının suvaqları uçub-tökülmüşdü. Ümumiyyətlə, əvvəldən olan binaların, evlərin hamısı dağılıb tökülürdü. Ətrafda şəhərin planına uyğun olmayan o qədər evlər tikiblər ki, adamın ürəyi sıxılırdı. Sanki Xankəndidə yox, hansısa yad şəhərdə idim... Yəni ilk anda məndə elə bir hiss yox idi ki, bura dünyaya gəldiyim, böyüdüyüm, oxuduğum, işlədiyim doğma məkandır... Elə bilirdim ki, hansısa qaramat bir şəhərdəyəm... Bizim Xankəndimizdən əsər-əlamət qalmamışdı, sanki onun ruhunu da öldürmüşdülər...

- İlk dəfə Xankəndidə olanda şəhərin mərkəzi hissəsinə getdim. Cənab Prezidentimizin bayrağımızı qaldırdığı "Zəfər" meydanını gəzdim, o vaxt "Obkom", "İspalkom" adlandırılan binalara gedib vaxtilə öz işlədiyim otaqlara baş çəkdim. Buradan şəhər stadionuna baxdım. Yadımdadır, bir vaxtlar uşaqlı-böyüklü, qadınlı-kişili hamımız həmin stadiona gedib futbola tamaşa edərdik.

"Pioneraqan" 2 A adlandırılan küçəmizə, evimizə isə ikinci dəfə Xankəndiyə gedəndə yollandım.



Atam Qasım əslən Şuşanın Malıbəyli kəndindən olsa da, Xankəndidə yaşayırdı. O, müharibədən qayıdandan sonra Ağdama gedib-gələndə anam Tahirəni orada görmüşdü və onlar ailə qurmuşdular. Atam Daxili İşlər Nazirliyinin yanğından mühafizə idarəsində rəis müavini işləyirdi. Anam isə ibtidai sinif müəllimi idi. O, Xankəndinin Kərkicahan kəndində dərs dediyi üçün biz məktəb zamanı həmin kəndə köçüb kirayədə yaşayardıq. Tətildə isə Xankəndiyə, öz evimizə qayıdardıq. Ata-anam 6 sot həyətin içərisində min-bir zəhmətlə ikimərtəbəli ev tikmişdilər... Sevincli günlərimizi bu evdə yaşamışdıq...

Amma ailəmizin bütöv olduğu, xoşbəxt uşaqlıq, gənclik illərimin keçdiyi, gəlin köçdüyüm, qardaşıma gəlin gətirdiyimiz evimizi görəndə şoka düşdüm. Həyət-baca baxımsız, evimiz uçuq-sökük vəziyyətdə idi... Hər yer çəllək, taxta, dəmir qırıqlarıyla doluydu... Hətta ANAMA-nın əməkdaşı evdən xeyli patron da aşkarladı. Evimizi bu kökdə görmək mənə çox pis təsir elədi. Heç içəri girmədim, ömrümün ən gözəl illərinin keçdiyi evə qapıdanca boylandım...

Tək bircə ona sevindim ki, həyətimizdəki ağ tut ağacını yarıdan kəssələr də, o yenidən pöhrələmişdi... Payızda da bu tut ağacından şirin tut yeyərdik. Rəhmətlik anam həmişə deyərdi ki, ağacı tez-tez suladığımıza görə bu fəsildə də bəhər verir...

Gedib Kərkicahanı da gördüm. Yuxarı və aşağı hissədən ibarət olan Kərkicahanın əhalisinin əksəriyyəti azərbaycanlı idi. 1988-ci il hadisələrinə qədər orada azərbaycanlıların sayı 2000-ə yaxın idi. Kənddə 8 illik məktəb fəaliyyət göstərirdi, anam da orada ibtidai sinif müəllimi kimi çalışırdı. Bu məktəbi bitirənlər Xankəndiyə gəlib Nizami adına 4 nömrəli məktəbdə oxuyurdular.

Yolları bərbad olduğu üçün kəndin yuxarı hissəsinə gedə bilmədim, amma dedilər ki, azərbaycanlıların evlərini də, oradakı məktəbi də tamamilə dağıdıblar.



Burada məni sevindirən yalnız bu oldu: Kərkicahanın ətəyindəki bulaq dururdu. Xatirimdədir, kəndin qız-gəlini evdə paltarı yuyar, qış da olsa aparıb o bulağın qarşısındakı novda suya çəkərdilər... İndi də o mənzərələr gözümün qabağındadır...

### Elm və həyat məktəbi

Xankəndidə Flora xanıma doğma olan bir başqa ünvan isə Nizami adına 4 nömrəli məktəb idi. Şirin





Mirzəyevlə bir sinifdə oxuduqları bu təhsil ocağında onlara dərs deyən, həyat məktəbi keçən müəllimlərini unutmur, hər zaman minnətdarlıqla anırdı. İllərdən sonra həmin məktəbin kandarına ayaq basanda isə istər-istəməz bütün olub keçənlərin yenidən gözləri qarşısında canlanması təəccüblü deyildi. Bu həm də o məktəb idi ki, 1988-ci ildə hadisələr başlayanda ermənilər azərbaycanlı uşaqları, müəllimləri bura buraxmamış, həsrət qoymuşdular:

- 6-cı sinifdən 4 nömrəli məktəbdə oxudum. Tale elə gətirdi ki, elə bu məktəbdə müəllim kimi çalışmaq da qismətimə düşdü. Bakıda 4 müxtəlif məktəbdə müəllim işləmişəm, amma o 4 nömrəli məktəbdəki tələbkarlığı, müəllimlərin fədakarlığını heç yerdə görməmişəm. Məktəbimizin direktoru Sabir Əliyev (Allah can sağlığı versin, indi 92 yaşı var), müəllimlərimiz Eldar, Zemfira, Cəmil, hər biri unudulmaz in-



sanlar idi. Onlar təhsillə yanaşı, bizə həyat dərsi də öyrədirdilər. Ədəbiyyat müəllimimiz Vahid Əliyevin isə şəxsiyyət kimi yetişməyimizdə, milli kimliyimizdən hali olmağımızda əvəzsiz rolu oldu.

Onu da deyim ki, general-polkovnik Ramil Usubovla Şirin Mirzəyev məktəb illərindən bir-biriləri ilə dostluq edirdilər. Onların dünyagörüşləri, həyata baxışları, milli hissləri, ədalətsizliklə barışmaz mövqeləri üst-üstə düşdüyü üçün bu dostluq çox möhkəm idi. Sonradan Şirin Mirzəyevlə bağlı xatirələrində Ramil Usubov özü də qeyd edib ki, "ürəyimizdəki oxşar arzular bizi doğmalaşdırdı".

Kərkicahanda yuxarıda haqqında danışdığım bulağın aşağısında əski əlifba ilə Azərbaycan sözləri yazılmış qəbir daşları var idi. O zaman heç kim maraqlanmırdı ki, bu qəbir daşları kimindir, orada nə yazılıb? İbtidai sinifdə oxuyurdum, həmin qəbirləri kürüyüb yerində uşaq bağçası tikdiklərinin şahidiyəm. Heç kəs buna etiraz etmədi. Bu, biganəlikdənmiydi, bilməməzlikdənmiydi, indi də bilmirəm...

Bir mühüm məqamı deməliyəm ki, Xankəndidə milli-mənəvi dəyərlərimizi məhz məktəbimiz qoruyub saxlayırdı. Novruz bayramını təntənəli şəkildə keçirirdik, yazıçılarımızın əsərlərini səhnələşdirirdik. Vahid müəllimin təşəbbüsü ilə Cəfər Cabbarlının "1905-ci ildə" əsərini səhnəyə qoymuşduq. Mən də, Şirin də orada iştirak etmişdik. Düşünürəm ki, Vahid müəllim məhz o əsəri səhnələşdirməyi ilə, bəlkə də üstüörtülü bizə anladırdı ki, tariximizi bilək, heç nəyi unutmayaq... Sovet dövründə milli tariximizi çox az insan, ancaq ziyalılarımız bilirdilər...

O zaman ermənilər iş vermədikləri üçün ziyalılarımız hamısı Xankəndidən dağılışmışdılar. Bu da onların mənfur planlarının bir hissəsi idi. Demək olar ki, əksər azərbaycanlılar orada fəhlə kimi ən ağır işlərdə çalışırdılar. Bəlkə də hadisələr başlayanda Xankəndidə ziyalılarımızın sayı çox olsaydı, işlər bu yerə gəlib çıxmazdı...

### Qarabağ Azərbaycandır!

- Ümumiyyətlə, ötən əsrin əvvəllərindən etibarən ermənilər Qarabağa yiyələnmək üçün hər cür çirkin əməllərə əl atırdılar. 1967-ci ildə mərhum Heydər Əliyev bu məsələni çox tezliklə yatırdı. O, həmin zaman Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəriydi. Ermənilər deyirdilər ki, guya Xankəndidə iqtisadi cəhətdən çətinlik var. 1969-cu ildə Ulu Öndər Xankəndiyə dəmiryol, qaz çəkdirdi, institut açdırdı.

Amma ermənilər yalan danışırdılar, qaz, dəmiryolu çəkilənə qədər də Xankəndi Azərbaycanda demək olar ki, ən yaxşı təmin olunmuş şəhərlərdən idi. Orada işsizlik, evsizlik problemi yox səviyyəsində idi, ayaqqabı, tikiş, mebel və digər xeyli sayda fabrik fəaliyyət göstərirdi. Əksinə, Xankəndidə işçi qüvvəsi çatışmırdı, yaxın rayonlardan gəlib orada işləyirdilər. Sadəcə bu bəhanələrlə məqsədləri azərbaycanlı əhalini Xankəndidən didərgin salıb Qarabağa yiyələnmək idi. Orada yaşayan azərbaycanlılara çörək də vermirdilər. Ağdamdan, Şuşadan çörək gətirib evlərə paylayırdılar. Ermənilər azərbaycanlıları hədə-qorxu ilə didərgin salırdılar. Şirinin qardaşı oğluna xəbərdarlıq etmişdilər ki, "bir həftə ərzində Xankəndini tərk elə".

İlyas adlı poçtalyonumuzun arvadı ilə birlikdə başını kəsmişdilər. Fərhad adlı bir kişinin sümüklərini qırıq-qırıq etmişdilər, ki, o, Qarabağın Ermənistanın olduğunu desin, amma o, "Qarabağ Azərbaycandır" demişdi...

### Candan şirin Vətən

Flora xanım danışır ki, Qarabağ hadisələri başlayan zaman Şirin Mirzəyevlə birlikdə Moskvada olublar. O zaman Şirin Mirzəyev Lenin adına Ali Hərbi Akademiyada oxuyurmuş. Tariximizi yaxşı bildiyi üçün o hadisələri eşidəndə dərhal deyir ki, "bu çox dərin işdir". O vaxt Şirin Mirzəyev Dağıstanın Xalq şairi Rəsul Həmzətova, SSRİ Xalq artisti rəqqas Mahmud Esenbayevə məktub yazır ki, "millətlərin bir-birinə qarşı qardaş qırğınını dayandırın". Həmçinin o, Azərbaycanın Xalq yazıçısı, SSRİ xalq deputatı Mirzə İbrahimovla görüşür. Yazıçı ona deyir ki, çalışmaq lazımdır qan tökülməsin.

- Amma ermənilər günahsız azərbaycanlıların qanını tökürdülər...



Şirin Daxili Qoşunlarda çalışanda Qarabağ bölgəsində bir batalyonları var idi. Ezamiyyə götürüb ora hadisələri öyrənməyə gedirdi. Deyirdi ki, hərbi formadayam, həm də erməncə təmiz bilirəm, onlar mənim kim olduğumu tanıya bilməzlər. O ermənilərin azərbaycanlıların evlərini yandırmalarına, talan etmələrinə şahid olmuşdu. Gedib qəbiristanlığa baxanda görmüşdü ki, oradakı bütün başdaşlarını sındırıblar. O, atasının sınan başdaşını götürüb Kərkicahanda yaşayan bacısıgilə aparmışdı.

O, Böyükşorda yerləşən 6500 saylı hərbi hissədə xidmətdəydi. 1991-ci il sentyabrın axırları, oktyabrın əvvəllərində isə Müdafiə Nazirliyinin əmri ilə özünümüdafiə batalyonu yaratdı və onun komandiri oldu. O zaman Ermənistanla sərhəd cəbhə bölgələrində özünümüdafiə batalyonları yaradılırdı. Şirin qısa müddətdə silah tapıb ala bildi, əsgərləri geyimlərlə təmin etdi...

Şirin seçilmiş, üstün insani keyfiyyətlərə malik şəxsiyyət idi. Maddi çətinliyimiz olsa da, heç zaman malına haram qatmazdı, mənliyini qoruyardı. Mədəni, savadlı, incəsənəti sevən biriydi. Nə zaman baxsan, əlində kitab olardı, Nizamidən, Füzulidən, Mirzə Ələkbər Sabirdən şeirlər deyərdi...

Şirin üçün Vətən candan əziz idi. Həmişə deyirdi ki, "torpağın qədrini ayaqyalın o torpaqda gəzən bilər". Elə ömrünü də torpağına fəda etdi...

### Şəhərin ruhu dirçəlir

- Ötən illərdə Xankəndidən olan camaatımız çox əziyyət çəkib. İlk olaraq Xankəndi işğal altına düşüb, ilk köçkünlərimiz oradan olub. Hətta Şuşaya, Ağdama, Xocalıya pənah aparan xankəndililər ikinci dəfə köçkün düşüblər. Orada 100 nəfərdən çox şəhid vermişik.

Bu illər ərzində vaxtsız dünyalarını dəyişənlər də çox oldu. Bəlkə də onlar öz yurd-yuvalarında yaşasaydılar, Xankəndinin təmiz havasından udub, o yerlərin saf bulaqlarının suyundan içsəydilər, ömürləri daha uzun olardı.



Anamla atam Bakıda mənimlə qalırdılar. Onların necə əzab çəkdiklərini görürdüm. Heç ovunmur, elə Xankəndiyə, əziyyətlə tikdikləri evlərinə qayıtmaq istəyirdilər. Hər ikisi həsrətlə, əziyyətlə canlarını tapşırdılar. Elə Şirinin anası Nazpəri xanım da Bakıda məskunlaşdıqları 5 mərtəbəli yataqxanada çox əzab çəkirdi. 80 yaşı vardı, nə bir yerə gedə bilirdi, nə pilləkənləri qalxıb-düşə bilirdi... Hey deyirdi ki, məni oğlumun məzarına aparın... O illərdə köçkünlük həyatı yaşayan bütün insanlar bu mənəvi əzaba düçar idilər. Həmişə danışırdılar ki, öz doğma od-ocağımızdan ayrı düşmüşük, gedib əzizlərimizin qəbrini ziyarət edə bilmirik... Bir az vəziyyətləri pis olan kimi deyirdilər ki, Allah möhlət versin, gedib öz evimdə ölüm, doğulduğum torpağa qarışım...

Şükür, tarixi ədalət bərpa olunub, Xankəndi əsl sahiblərinə qovuşdurulub. Xankəndinin azadlığını eşidəndə sevincimizdən uçmağa qanadımız olmadı. Hadisələrin vaxtilə başladığı meydanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin üçrəngli bayrağımızı əbədi ucaltması hər birimizin qüruruna, xoşbəxtlik göz yaşlarına səbəb oldu. İndi xankəndililərin hər biri evlərinə dönəcəkləri günü səbirsizliklə gözləyirlər.

Artıq Xankəndinin tarixi siması, əzəməti, ən əsası azərbaycançılıq ruhu özünə qaytarılır. Burada Qarabağ Universitetinin fəaliyyətə başlaması, ilk tələbələrini qəbul etməsinin özünün də mühüm tarixi əhəmiyyəti var...

Bütün bunlar hər birimizin, xankəndililərin arzularının həyata keçməsidir. Sadəcə, ürəyimdə Şirinin, Xankəndi həsrəti ilə dünyadan köçənlərimizin bu günləri görməməsinin nisgili var...

### Ömrün həzin akkordları



O, acıyla şirinin, sevinclə kədərin qoşa addımladığı bir tale yaşadı. Doğma yurduna həsrət qaldı, qohum-qardaşı məcburi köçkün düşdü, ömür-gün yoldaşını vaxtsız itirdi, gənc yaşından iki övladını tək böyütdü, onlara həm ata, həm ana oldu... Amma heç zaman ümidini, inamını itirmədi... Bir gün Xankəndiyə, Kərkicahana - Qarabağa qovuşacağımız - qəhrəman Şirin Mirzəyev və bu torpaq uğrunda şəhid olan on minlərlə vətəndaşımızın ruhunun şad olacağı günün yetişəcəyinə əmin oldu: "Bilirdim ki, bir gün mütləq Xankəndiyə qayıdacağıq. Ancaq düzü, bu xoşbəxt günü özümün görəcəyimə inamım çox az idi. Görünür, bu da həyatda rast gəldiyim ağrı-acılara əvəz olaraq Tanrı tərəfindən taleyimə yazılan ən böyük xoşbəxtlikdir".

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# 20 Sentyabr Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günüdür



# "İndi bizim də günümüz var, Xocalı Şəhər Günümüz var!"

## Xocalılılar xilaskarları İlham Əliyevə növbəti hədiyyəsinə görə minnətdardırlar

### Azadlığın təntənə günündən reportaj

**...Elə Xocalıdan ayrılmaq üzrəydik ki, xoş xəbər ildırım sürəti ilə bütün evlərə yayıldı.**

**Hamı küçələrdə idi. Bir-birini təbrik edirdilər...**

**Prezident İlham Əliyev onlara azadlığın təntənə gününü - Xocalı Şəhər Gününü hədiyyə etmişdi.**

**Hər kəs telefonu vasitəsilə internet saytlarında bu barədə gedən xəbərləri bir-birinə oxuyur, gözaydınlığı verirdi...**

### "İlham Əliyev bizə əvvəlcə Xocalını hədiyyə etdi, arxasınca şəhər günümüzü bəxş elədi"

Xocalıdayıq...

32 il öncə, bir gecədə məhv edilən, yandırılıb külü göylərə sovrulan şəhər indi tam başqa mənzərə ilə canlanır qarşımızda. Yenidən qurulan müasir Xocalıda həyat qaynayır. Bir vaxtlar dörd tərəfindən Xocalıya tuşlanan silahların yerində indi üçrəngli bayrağımız qürurla dalğalanır. İllər sonra yurda qayıdan xocalılılar üçün heç bir təhlükə yoxdur. 32 il əvvəl Xocalını ayaqyalın tərk edib yalnız canlarını salamat qurtaranlar bu gün taleyin xoş günlərini yaşayırlar və bu əvəzedilməz sevinci onlara yaşadan Böyük Zəfərin memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq edirlər.

Prezident İlham Əliyevin tapşırığına əsasən, 8 ay ərzində bərpa edilmiş müasir Xocalı buraya gələnlərdə xoş təəssürat yaradır. Keçmişdə yaşadıqları faciənin ağrı-acısını unutmasalar da, yurda qayıdışın sevinci simalarındakı xoşbəxtlik cizgilərindən hiss olunur. Buna Müstəqillik Günündə İlham Əliyevin yeni mənzillərinin açarlarını təqdim etdiyi xocalılılarla keçirdiyimiz görüşlərdə bir daha şahidlik etdik.

Şad xəbəri sentyabrın 18-i günün ikinci yarısında Xocalıda eşitdik. Hamı sevinirdi. Xocalı sakini, ağbirçək ana Elmira Allahverdiyeva sevincini bizimlə belə bölüşdü: "Bala, indiyəcən Xocalının günü 26 fevral idi. Tək xocalılılar yox, Prezidentimizin, Mehriban xanımın sayəsində bütün dünya həmin gün dərdimizə şərik olurdu. Xocalılılar üçün əsas gün soyqırımına uğradığımız gün idi. Hər bir Xocalı sakininin evində şəhid var. O qanlı faciədə həyat yoldaşım Novruz, oğlum Mahir şəhid olublar. Sinəmdə şəhid yarası var. Hələ də onları axtarıram. Gözüm yollarda qalıb...

Övladlarıma da, nəvələrimə də deyirəm ki, o günü heç vaxt unutmamalıyıq, unutmayacağıq da. Amma bundan sonra kədər günümüzlə yanaşı, sevincli günümüz, qələbə günümüz də var. Allah İlham Əliyevin canını sağ eləsin, bizə əvvəlcə azad Xocalını hədiyyə etdi, arxasınca isə şəhər günümüzü bəxş elədi. Ömür boyu prezidentimizə minnətdar olacağıq".

Xocalının mərkəzi küçəsi ilə hərəkət etdikcə qarşımıza çıxan hər kəsin üzündə təbəssüm, sevinc hissini görəndə adamın ürəyi dağa dönür. Xocalının gənc sakini Elşən Mehrəliyevlə həmsöhbət oluruq. Elşən deyir ki, xoş xəbər tez yayılar. Bir qədər öncə Prezidentin imzaladığı sərəncamla bağlı artıq onun telefonuna 20-dən çox zəng gəlib: "Hamı sevinc içindədir. İki gündən sonra (20 sentyabr) ilk dəfə olaraq xocalılılar doğma yurdda şəhər gününü böyük təmtəraqla qeyd edəcəklər. Bundan qürurlu nə ola bilər ki?!

İllər öncə qanlı faciədən keçdik. Atalarımızı, analarımızı, bacı-qardaşlarımızı, ən əziz insanlarımızı itirdik. Tək bir canımızı götürüb bir gecədə əzab-əziyyətlə Ağdama üz tutduq. İllərlə məcburi köçkün həyatı yaşadıq. Bir sevincli günümüz olmadı. Hər il fevralın 26-da gözlərimiz qan ağladı. Yaralarımız qaysaq bağlamadı. Amma Allah sonunda fəryadımızı eşitdi və bizə xilaskar göndərdi. Elə bir xilaskar ki, bizlər bir ömür boyu ona minnətdar olmalıyıq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev bizi yenidən Xocalıya qaytardı. Özü də artıq heç bir təhlükəsi olmayan Xocalıya... İndi doğma yurdumuzdayıq, başımızın üstündə dalğalanan bayrağımız qürurumuzdur. İki gündən sonra Xocalı Şəhər Gününü qeyd edəcəyik. Bundan sonra qəmli, kədərli günlərimiz yox, bayram günlərimizin sayı çoxalacaq. Möhtərəm Prezidentimizə nə qədər alqış etsək, yenə də azdır".




**Elşən Mehrəliyev:**



- Hamı sevinc içindədir. İki gündən sonra ilk dəfə olaraq xocalılılar doğma yurdda bayram günlərini - şəhər gününü böyük təmtəraqla qeyd edəcəklər. Bundan qürurlu nə ola bilər ki?!

İllər öncə qanlı faciədən keçdik. Atalarımızı, analarımızı, bacı-qardalarımızı, ən əziz insanlarımızı itirdik. Tək bir canımızı götürüb bir gecədə əzab-əziyyətlə Ağdama üz tutduq. İllərlə qaçqınçılıq həyatı yaşadıq. Bir sevincli günümüz olmadı. Hər il fevralın 26-da gözlərimiz qan ağladı, yaralarımız qaysaq bağlamadı. Amma Allah sonunda fəryadımızı eşitdi və bizə xilaskar göndərdi. Elə bir xilaskar ki, bizlər bir ömür boyu ona minnətdar olmalıyıq. Müzəffər Ali Baş Komandan kimi cənab Prezidentimiz İlham Əliyev bizi yenidən Xocalıya qaytardı. Özü də artıq heç bir təhlükəsi olmayan Xocalıya... İndi doğma yurdumuzdayıq, başımızın üstündə dalğalanan bayrağımız qürurumuzdur. İki gündən sonra Xocalı Şəhər Gününü qeyd edəcəyik. Bundan sonra qəmli, kədərli günlərimiz yox, bayram günlərimizin sayı çoxalacaq. Prezidentimizə nə qədər alqış etsək, yenə də azdır.

**Elmira Allahverdiyeva:**



- İndiyəcən Xocalının günü 26 fevral idi. Tək biz yox, Prezidentimizin, Mehriban xanımın sayəsində bütün dünya həmin gün bizi xatırlayır, dərdimizə şərik olurdu. Xocalılılar üçün əsas gün soyqırımına uğradığımız gün idi. Hər bir Xocalı sakininin evində şəhid var. O qanlı faciədə həyat yoldaşım Novruz, oğlum Mahir şəhid oldular. Sinəmdə şəhid yarası var. Hələ də onları axtarıram. Gözüm yollarda qalıb...

Övladlarıma da, nəvələrimə də deyirəm ki, o günü heç vaxt unutmamalıyıq, unutmayacağıq da. Amma bundan sonra kədər günümüzlə yanaşı, sevincli günümüz, qələbə günümüz də var. Allah İlham Əliyevin canını sağ eləsin, bizə azad Xocalını da hədiyyə etdi, arxasınca şəhər günümüzü də bəxş elədi. Ömür boyu prezidentimizə minnətdar olacağıq.

### Azadlığın təntənə günlərini qeyd edən şəhərlərimizin sayı 12-yə çatdı

Xocalıya səfərimizin məqsədi buraya yeni köçən sakinlərin həyat şəraiti ilə yaxından tanış olmaq, fikirlərini öyrənmək idi. Amma onların xoş təəssüratlarına canlı şahidlik etməyin zövqü ayrı oldu.

Bu gün Xocalı şəhər gününü qeyd edir. Bundan sonra hər il sentyabrın 20-də Xocalıda möhtəşəm bayram tədbiri keçiriləcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, 20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi təsis olunub. Bu günə qədər isə işğaldan azad olunan digər şəhərlərimizin günləri bəlli idi.

Prezidentin sərəncamına əsasən, 44 günlük Vətən müharibəsindəki Zəfərimizdən sonra hər il 26 avqust - Laçın Şəhəri Günü, 4 oktyabr - Cəbrayıl Şəhəri Günü, 17 oktyabr - Füzuli Şəhəri Günü, 20 oktyabr - Zəngilan Şəhəri Günü, 25 oktyabr - Qubadlı Şəhəri Günü, 8 noyabr - Şuşa Şəhəri Günü, 20 noyabr - Ağdam Şəhəri Günü, 25 noyabr - Kəlbəcər Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olunur. İndi bu sıraya daha 4 şəhər də əlavə edilir.

Budur, İlham Əliyevin memarı olduğu Şanlı Zəfərin yaratdığı reallıq. 30 il ən ağır sınaqlardan keçən, illərlə məşəqqətlər içərisində yaşayan, haqq səsi eşidilməyən xalq bu gün başıdik, alnıaçıq öz doğma yurdunda xoş gününü, bayramını təmtəraqla qeyd edərək düşmənə gözdağı verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Xocalı-Bakı*







## Qarabağ və Şərqi Zəngəzurda "yaşıl iqtisadiyyat"la bağlı layihələrdə kibertəhlükəsizliyə önəm verilir

**"Azərbaycanın "Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiya"sında "yaşıl iqtisadiyyat"a keçid və kibertəhlükəsizlik məsələləri ön plandadır".**

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Bakıda keçirilən "Yaşıl iqtisadiyyat naminə kibertəhlükəsizlik" mövzusuna həsr olunmuş konfransda çıxışı zamanı deyib.

"Çünki "yaşıl iqtisadiyyat" və kibertəhlükəsizlik məsələləri getdikcə daha çox önəm daşımağa başlayıb. Bu iki sahə əvvəl fərqli görünsə də, bir-biri ilə sıx bağlıdır və inkişaf üçün hər ikisinin balanslaşdırılması çox vacibdir. "Yaşıl iqtisadiyyat", ətraf mühitin qorunması və təbii resursların səmərəli istifadəsi iqtisadi inkişafı birləşdirən bir konsepsiyadır. İqtisadiyyat Nazirliyi tərəfindən digər dövlət qurumları ilə birlikdə hazırlanmış "Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiya"ya uyğun olaraq hazırda dövlət-özəl layihəsi çərçivəsində informasiya və kibertəhlükəsizlik laboratoriyalarının formalaşdırılması istiqamətində kifayət qədər ciddi işlər aparılır. Bu birgə fəaliyyətin əsas məqsədi karbon emissiyalarının azaldılması, resursların təkrar istifadəsi, tullantıların azaldılması, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqinə nail olmaqdır", - deyə S.Ələkbərov əlavə edib.

Qarabağ və Şərqi Zəngəzurda "yaşıl iqtisadiyyat"la bağlı irihəcmli infrastruktur layihələrinin icra edildiyini diqqətə çatdıran Sahib Ələkbərov layihələrin icrası zamanı informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyin təmin edilməsinə xüsusi önəm verildiyini bildirib.

## Azərbaycanın yeni silahları nümayiş olunacaq

**"Bu il keçiriləcək sərgi miqyasına görə ötən illərlə müqayisədə daha genişdir". Bu barədə Azərbaycan Repsublikası Müdafiə Sənayesi Nazirliyinin Aparat rəhbəri Samir Ağabalayev "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları sərgilərinə həsr olunmuş mətbuat konfransında çıxışı zamanı deyib.**

O qeyd edib ki, 2024-cü ildə "ADEX" və "Securex Caspian" sərgilərinin miqyası daha da genişlənərək, əvvəlki illərlə nisbətdə ekspozisiyada artım nümayiş etdirir. Belə ki, sərgilər bu il artıq "Bakı Ekspo" Mərkəzinin yeni istifadəyə verilmiş 4-cü zalı da daxil olmaqla bütün ekspozisiyasını, eləcə də açıq sahəsini əhatə edəcəkdir.

"Sərgilərdə 38 ölkəni təmsil edən 270-dək şirkət iştirakını təsdiq edib. İştirakçı ölkələr Azərbaycanla yanaşı, ABŞ, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, İspaniya, İsrail, İtaliya, Litva, Macarıstan, Pakistan, Qətər, Rusiya Federasiyası, Serbiya, Sinqapur, Slovakiya, Türkiyə, Ukrayna və digərləridir. Builki sərgilər iştirakçıların ümumi sayının 34 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. İştirakçı ölkələr arasında Macarıstan, Qətər, Sinqapur və Slovakiya 2022-ci illə müqayisədə sərgilərin yeni iştirakçılarıdır.

ADEX
AZERBAIJAN DEFENCE EXHIBITION

14 ölkə sərgilərdə milli pavilyonla təmsil olunacaq. Belə ki, Azərbaycan, Belarus, Çexiya, Çin, İtaliya, İsrail, Macarıstan, Pakistan, Qətər, Rusiya, Serbiya, Slovakiya, Türkiyə və Ukrayna sərgilərdə milli pavilyonla iştirak edəcək.

Müdafiə Sənayesi Nazirliyinin Hərbi-texniki əməkdaşlıq şöbəsinin müdiri Gülsüm Rzayeva isə bildirib ki, "Müdafiə Sənayesi Nazirliyi və nazirliyin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinə məxsus pavilyonlarımızda ümumilikdə 193 eksponat sərgilənəcək. Məhsullar arasında ilk dəfə "ADEX" sərgisində 12,7 mm çaplı AH-12,7 pulemyotu və 7,62 mm çaplı yeni növ snayper tüfəngi nümayiş olunacaq. Bunlarla yanaşı, İspaniyanın "Escribano" şirkətinə məxsus ən müasir idarəetmə sistemləri ilə təchiz edilmiş zirehli texnika qülləsi üzərində Azərbaycan istehsalı olan 30 mm-lik AT-30 topu və 7,62 mm-lik elektrik atışlı pulemyot quraşdırılaraq nümayiş etdiriləcək".

Qeyd edək ki, 24-26 sentyabr tarixdə "Bakı Ekspo" Mərkəzində regionda müdafiə sənayesinə həsr olunmuş ən nəhəng tədbir olan 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" sərgisi keçiriləcək. Paralel olaraq, 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları "Securex Caspian" sərgisi də təşkil ediləcək. İlk "ADEX" sərgisi 2014-cü ildə təşkil edilib. İki ildən bir keçirilən sərgi bu il 5 illik yubileyini qeyd etsə də, artıq 10 ildir ki, fəaliyyət göstərir və ildən-ilə iştirakçı siyahısını və əhatə etdiyi sektorları genişləndirir.

Sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkəti və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib. Bu illər ərzində sərgini 30000-dən çox qonaq ziyarət edib.

# 20 Sentyabr Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günüdür





**DİN-in şəhid çavuşu Zahir Əliyevin övladları Xankəndidə Prezidentlə, Mehriban xanımla görüşlərini heç vaxt unutmayacaqlar**

# Andına sadiq qaldı, yurdunu qorudu...

**Vətən oldu oğullar**

**1987-ci ilin soyuq bir qış günündə - yanvar ayının 4-də Azərbaycanın dilbər guşələrindən biri olan Lerik rayonunun Soru kəndində Sədi kişinin ailəsində bir oğlan uşağı dünyaya göz açdı. Körpənin adını Zahir qoydular. Bu, ailədə doğulan ilk uşaq idi. Sədi kişinin, Sumaq ananın sevinci yerə-göyə sığmırdı.**

**Zahirdən sonra ailədə altı uşaq da doğuldu - dörd qız, iki oğlan. Uşaqların atası Sədi Əliyev hərbçi idi. Keçmiş sovet ordusunun sıralarında xidmət edirdi. O, Qazaxıstan Respublikasında, Rusiya Federasiyasının bir çox şəhərində gizir hərbi rütbəsində xidməti vəzifələrini yerinə yetirirdi.**



Ölkəmiz müstəqillik qazandıqdan sonra o, yeni yaradılan Azərbaycan Ordusunda xidmət etmək üçün doğma Vətənə qayıdıb. Bir müddətdən sonra - 1993-cü ildə yaşa görə xidmətdən ehtiyata buraxılıb. Ordu sıralarından tərxis olunandan sonra keçmiş hərbçi müəllim kimi fəaliyyətini davam etdirib. Lerik rayonunun Soru kəndindəki şəhid Təhsin Cəfərov adına tam orta məktəbdə çağırışaqədərki hazırlıq fənnindən dərs deyib. Gənc nəslin, gələcəyin zabit və əsgərlərinin təlim-tərbiyəsində biliyini, bacarığını əsirgəməyib.

Zahir dünyaya gözünü açanda evdə, ailədə atasını hərbi formada görüb. Bəlkə də elə buna görə onda kiçik yaşlarından hərbçi peşəsinə sevgi, məhəbbət yaranıb. Buna görə də Zahir ordu sıralarında vətəndaşlıq borcunu yerinə yetirdikdən bir müddət sonra - 2013-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" hərbi hissəsində xidmət etməyə başlayıb. 2008-ci ildə sevib-seçdiyi Aynurla ailə həyatı qurub. Bu evlilikdən Zahirin iki qız övladı - əvvəlcə Aysu, sonra isə Nilay dünyaya göz açıb.

Hərbçi atasının xidmət yolunu şərəflə davam etdirən Zahir üzərinə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlib. Erməni təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsi dövründə o, Gəncə şəhəri və Göygöl rayonunda komendant postlarında xidmət aparıb. Həmin gərgin günlərdə komandanlığın tapşırıqlarını yüksək peşəkarlıqla icra edib. Vətən müharibəsi zamanı azğın düşmən Gəncəni də şiddətli raket atəşinə tutanda Zahir dağıntılar altında qalan zərərçəkmiş insanlara yardım göstərib, onların həyatını xilas edib.

### Nümunəvi xidməti ilə komandirlərinin rəğbətini qazanmışdı

Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra çavuş Zahir Əliyev müxtəlif vaxtlarda işğaldan azad edilmiş Kəlbəcər, Zəngilan və Laçın rayonlarında təhlükəsizlik tədbirlərinin təmin olunması məqsədilə qısamüddətli ezamiyyətlərə gedib. Ezamiyyətlərdə də üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirib. Buna görə həm komandirlərinin, həm də xidmət yoldaşlarının rəğbətini qazanıb. Nümunəvi xidmətinə görə Zahir daxili işlər nazirinin 29 iyun 2022-ci il tarixli müvafiq əmri ilə 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Zahir Əliyev 19 sentyabr 2023-cü ildə Qarabağda erməni separatçılarına qarşı həyata keçirilən lokal xarakterli antiterror əməliyyatında da fəal iştirak edib. Cəsur əsgər həmin gün polkovnik-leytenant Rəşad Hüseynovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin hərbi qulluqçuları ilə çiyin-çiyinə döyüş tapşırığını yerinə yetirib. Təəssüflər olsun ki, Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə gedərkən gözlənilmədən yolda erməni separatçılarının hücumuna məruz qalıblar. Şəxsi heyətin igidliyi və qəhrəmanlığı sayəsində işğalçıların atəş nöqtələri susdurulub. Döyüş zamanı bir neçə əsgər yaralanıb, itki olmayıb. Vəngli kəndinə az qalmış Zahirgil yenidən düşmən pusqusuna düşüblər. Yolun hər iki tərəfində gizlənmiş separatçılar onlara aramsız atəş açıblar. Bu dəfə də qəsbkarların cavabı layiqincə verilib. Azərbaycan əsgərinin ağır zərbələrinə tab gətirə bilməyən düşmən itki verərək geri çəkilib. Amma təəssüflər olsun ki, bu qeyri-bərabər döyüşdə Zahir və bir neçə döyüşçü yoldaşı şəhid olub. Əməliyyat zamanı Zahir düşmənin atəş nöqtələrini susduraraq üzərinə düşən tapşırığı sonadək şərəflə yerinə yetirib.

Şəhid Zahir Əliyev 21 sentyabr 2023-cü ildə dünyaya göz açdığı Lerik rayonunun Soru kəndinin qəbiristanlığında torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli sərəncamları ilə çavuş Əliyev Zahir Sədi oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Bu günlərdə şəhid Zahir Əliyevin ailəsinin yaşadığı Abşeron rayonunun Ceyranbatan qəsəbəsinə getdik. Şəhidin həyat yoldaşı Aynur Mürsəlovla, qızları Aysu və Nilayla, qardaşları Zamiq Əliyevlə və Vilayət Əlizadə ilə görüşüb söhbət etdik. Daha çox Zahirli günlərdən danışdılar, onun xatirəsini hörmətlə andılar. Söhbətimiz onun şəhid olduğu gündən uşaqlığına qədər uzanıb getdi.



Zamiq Əliyev dedi: "Biz valideynlərimizi erkən itirmişik. İtkilər həmişə ağır olur. O ki qaldı qardaş itkisi ola. Zahir bizə həm böyük qardaş, həm də ata əvəzi idi. Onun qəfil ölümü bizi çox sarsıtdı. Sanki atamızı ikinci dəfə itirdik. Təskinliyi yalnız onda tapırıq ki, Zahir erməni işğalçıları ilə döyüşdə, yurdumuzun azadlığı uğrunda gedən antiterror əməliyyatında şəhid olub. Ondan yadigar qalmış iki balasını göz bəbəyimiz kimi qoruyuruq. Zahiri kəndimizdəki qəbiristanlıqda, valideynlərimizin yanında dəfn etdik. Məzarının üstündə heykəlini qoymuşuq. Kənddə onların xatirəsinə abidə-bulaq kompleksi də tikilib. Kəndimizdəki orta məktəbdə Zahirə həsr olunmuş fotostend hazırlanıb. Rayonun Əliabad kəndinə gedən yolun kənarında quraşdırılan şəhidlərin plakatlarında Zahirin də şəkli var. Yaşadığımız Ceyranbatan qəsəbəsində qardaşımın plakatı quraşdırılıb. Gələnlər, görənlər onun qəhrəmanlığı qarşısında baş əyir, adını ehtiramla çəkirlər. Biz onun qəhrəmanlığı ilə həmişə fəxr edib öyünəcəyik".

- Qardaşım mənim üçün dünyanın ən əziz adamıdır, - deyə Zahirin kiçik qardaşı Vilayət Əlizadə söhbətimizə qoşuldu. - O, çox mehriban, qayğıkeş insan idi. Bütün çətin işlərimizdə qardaşım vəziyyətdən çıxmaq üçün bizə düzgün yol göstərər, ağıllı məsləhətlər verərdi. Təəssüflər olsun ki, onu çox tez itirdik. Mənim üçün Zahir ölməyib və heç vaxt da ölməyəcək.

### Ömrü kimi arzuları da yarımçıq qaldı

Həyat yoldaşı Aynur Mürsəlova onu göz yaşları içində xatırlayaraq dedi: "Zahirlə biz həm də yaxın qohumuq. Toyumuz 2008-ci ildə Bakı şəhərindəki "Qismət" şadlıq sarayında olmuşdu. Görünür, bizim də qismətimiz belə yazılıbmış. 17 il bir yerdə yaşadıq. Onunla yaşadığım illəri ömrümün ən gözəl çağları hesab edirəm. İki övladımız dünyaya gəldi. Onların boyunu sevə-sevə böyüdürdük. Yoldaşımın övladlarımızla bağlı ürəyində arzuları çox idi. Təəssüf ki, Zahir torpaqlarımızın azadlığı uğrunda gedən döyüşdə şəhid oldu. Ömrü kimi arzu və istəkləri də yarımçıq qaldı. İndi çiyinlərimə böyük vəzifə düşür. Gərək Aysunu, Nilayı bir vaxtlar onun ürəyindən keçdiyi kimi böyüdüm.

Biz Gəncə şəhərində yaşayırdıq. 44 günlük Vətən müharibəsində erməni işğalçıları bu gözəl şəhərimizi də raket atəşinə tutdu. Neçə-neçə günahsız insan bu raketlərin qurbanı oldu. Çox gərgin günlər yaşadıq. Şükürlər olsun ki, ordumuz İkinci Qarabağ müharibəsində qalib gəldi, 30 ilə yaxın düşmən tapdağında qalmış torpaqlarımız işğaldan azad olundu. Həmin günlərdə Zahir gecə-gündüz postlarda dayanır, xidmət aparırdı. Zahirlə son görüşümüz ötən il sentyabr ayının 18-də oldu. Onları Qarabağa ermənilərlə döyüşə aparırdılar. Dönə-dönə uşaqları mənə tapşırdı. Sanki ölümü əvvəlcədən ona həyan olmuşdu. Ertəsi gün isə qapımızı onun şəhid olduğu xəbəri döydü. Həmin gün bütün varlığımla sarsıldım. Zahir çox vətənpərvər insan idi. Elə Vətən uğrunda da şəhid oldu. Çalışacam ki, Zahirin yadigarlarını onun qəhrəmanlığına, igidliyinə layiq böyüdüm".

Şəhidin qızları Aysu və Nilayla da söhbət etdik. Onların ikisi də Ceyranbatan qəsəbəsində yerləşən Qubadlı rayon 21 nömrəli İsa Məmmədov adına Aşağı Mollu kənd orta məktəbində oxuyur. Zahirin böyük qızı Aysu səkkizinci sinifdə təhsil alır. Dediyinə görə, dərslərini yaxşı oxuyur. "Həm texniki, həm də humanitar sahəyə böyük marağım var. Biliklərimi artırmaq üçün kitablardan ayrılmıram. Biliklərim artdıqca dünyagörüşüm də formalaşır. Həyatı daha da dərindən anlayıram. Müəllimlərimdən də çox razıyam. Onlar bizə bilik vermək üçün düzgün yol göstərir, dəyərli məsləhətlər verirlər."

### Şəhidin övladları üçün ev tikilir

Aysu atası haqqında kövrələ-kövrələ danışdı. Dedi ki, atası torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub: "Atam yaddaşımda cəsur, qorxmaz, qəhrəman bir insan kimi qalıb. Onu həmişə belə xatırlayacaq, belə anacağam. Arzum budur ki, böyüyəndə mən də Daxili İşlər Nazirliyinin heyəti sıralarında polis kimi xidmət edim. İstəyimə çatmaq üçün daim öz üzərimdə çalışır, hazırlığımı artırıram.

Zahirin kiçik qızı Nilay dördüncü sinifdə oxuyur. Söhbətimiz zamanı Nilay da dərslərini yaxşı oxuduğunu söylədi. Müəllimləri Simarə xanımdan xeyli razılıq etdi. Dedi ki, müəllim dərsləri bizə çox maraqlı keçir. Nilayla söhbət edəndə onu da öyrəndik ki, o, 2023-cü il dekabrın 21-də Xankəndidə keçirilən və o zamanlar maraqla baxdığımız Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən futbol yarışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşüb, xatirə şəkli çəkdirib. Həmin gün olduğu kimi Nilayın yaddaşında qalıb. Deyir ki, mən o günü heç vaxt unutmayacağam. Həm Prezident İlham Əliyevlə, həm də Birinci vitse-prezident Mehriban Əliyeva ilə çəkdirdiyim xatirə şəklini böyüdüb evimizin divarından asmışam. Hər gün bu şəklə baxıb həmin yaddaqalan günü xatırlayıram.

Nilay atasından da danışdı. Dedi ki, onu çox istəyir. Çünki o qəhrəmandır, igiddir, cəsurdur. Döyüşlərdə düşmənləri öldürərək Qarabağı azad edib. Evdə onun adına guşə düzəldiblər. Hər gün səhər-səhər yuxudan oyananda onun şəkilləri ilə "görüşür". Atanın məzarını ziyarət etmək üçün tez-tez Soru kəndinə, dəfn olunduğu qəbiristanlığa gedir. Onun məzarı üzərinə güllər, çiçəklər qoyur. Amma onu da deyir ki, atasının dəfn olunduğu qəbiristanlığa gedən yollar çox narahatdır. Hər dəfə ziyarətə gedəndə əziyyət çəkir. Əgər o yolu asfaltlayıb düzəltsələr, atasının məzarını çox rahat ziyarət edər. Nilay söhbət zamanı arzularından da söz açdı. Dedi ki, böyüyəndə atası kimi hərbçi olacaq. Onun yarımçıq qalmış xidmət yolunu davam etdirəcək.



Söhbətimizi tamamlayan ərəfədə Zamiq dedi ki, qardaşıma Ceyranbatan qəsəbəsində ev tikirik. Artıq birinci mərtəbəsi hazırdır. Şəhidin övladları üçün tikilən evə də baş çəkdik. Həyətin giriş qapısının üstündən yurdumuzun azadlığı uğrunda şəhid olmuş Zahir Əliyevin şəkli asılıb, yanından da üçrəngli bayrağımız dalğalanır. Sanki Zahirin şəkli övladları üçün tikiləcək evə, həyətə keşik çəkir. Bir müddətdən sonra tikinti işləri başa çatacaq. Şəhid uşaqları Aysu və Nilay bu evdə, bu həyətdə diqqət və qayğı altında firavan böyüyəcək və ürəklərində dolaşan arzularına çatacaqlar.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

# Yarımçıq qalmış "Əsgər gündəliyi"

**"...Balam dil açanda ilk sözü "dönməz geri" oldu. Hüseynimin uşaqlıq illəri Birinci Qarabağ savaşına düşmüşdü. O zaman uşaq da, böyük də "Əsgər marşı"nı oxuyardı. Televizorda, radioda daha çox bu marş səslənirdi. Atalar misalı var: "Aşıq gördüyünü çağırar". Hüseyn də körpəlikdən vətəninə aşiq olmuşdu...**

**Çox duyğusal, ürəyi yumşaq idi...**

**Gözəl şeir yazmağı var idi...**



Körpə olanda atası rəhmətə getmişdi, korluq içində böyümüşdü. Tək qadın idim. Birini tapanda, birini tapa bilmirdim. Dörd uşaq böyütmüşəm. Əyinlərini geyindirəndə qarınları ac qalırdı. Qarınlarını doyuranda əyinlərini geyindirə bilmirdim...

Belə böyümüşdü Hüseynim. Hərbidə işə düzəlməmişdən əvvəl ofisiant işləyirdi. Qazancı az idi. Hərbiyə işə girəndə mənə dedi ki, bizim yolumuzda çox çətinlik çəkmisən, səni xanımlar kimi yaşadacağam...

Əsgər olmasına razı deyildim. Məni məcbur razı saldı. Deyirdi ki, mənim iki anam var. Vətənim də anamdır. Biri düşmən işğalı altında inildəyir, biri imkansızlıqdan əziyyət çəkir. Hərbidə olub hər ikinizi sıxıntıdan xilas edəcəyəm".



Dərdli ananın gözləri məchul bir nöqtəyə zillənir. Susur...

Qəfildən ah çəkib əlini dizlərinə vurur: "Kaş ki, mən öləydim, balam yaşayaydı..."

Hüseynin səliqə ilə düzülmüş əşyalarını, otağın baş tərəfindəki böyük portreti göstərib deyir: "O cansız şəkli nə qədər qucaqlamaq olar? Bir Hüseynim deyəndə, min "can" deyərdi balam. Gözümdən yaş axanda gözümün yaşını dili ilə qurudardı, balam. Hamı danışır, hamı gülür, Hüseynim susur. O, belə susqun bala deyildi axı..."

Ana fəryad qoparır... Göz yaşlarında boğulur. Dərdli ana birdən bayılır. Övladları Zaur, Bahar, Ülviyyə həyəcanla anaları Zenfira xanıma yardım edirlər...

Özünə gələn ana "Yaşamaq istəmirəm. Elə bilirəm ki, Hüseynsiz yaşadığım hər gün mənə haramdır" deyir.

...Söhbət 2023-cü il sentyabrın 19-da Qarabağda lokal xarakterli antiterror tədbirləri zamanı qəhrəmancasına həlak olmuş şəhid Mustafayev Hüseyn Əli oğlundan gedir. Hüseynin şəhid olduğu sentyabr günündə əzizləri onun doğulduğu doğma ocaqda toplaşmışdılar. Birlikdə Hüseynli günləri xatırlayırıq.

Hüseyn Mustafayev 1989-cu il fevralın 7-də Ucar rayonunda anadan olub. Şəhərdəki 6 saylı orta məktəbi bitirib. 2005-ci ildə hərbi xidmətə çağrılıb.

Naxçıvanda xidmət edən Hüseyn 2008-ci ildə hərbi xidməti başa vurub doğma rayona qayıdaraq ofisiant işləyib...

Böyük bacısı Bahar söhbətə qoşulur: "Rayon yerində iş tapmaq çətindir. Gördü ki, ofisiantlıqla dolana bilmir. Ofisiantın nə qazancı var ki? Sevdiyi qız da var idi. Başa düşürdü ki, aldığı pulla ailə dolandırıb, ev-eşik sahibi ola bilməyəcək. Bu da ona bir dərd olmuşdu. Əslində, qardaşım çox şən, nikbin adam idi. Hamı onu rayonda bədii qiraət ustası kimi tanıyırdı.Toylarda şeir deyirdi..."

Anası Zenfira xanım yana-yana dillənir: "Balam şeir oxumurdu, şeir yazmırdı, öz taleyini yazırdı. Sən demə, qismətinə şəhidlik düşübmüş oğlumun. Onu da son şeirində yazıb getdi".

2015-ci ildə Hüseyn Müdafiə Nazirliyində MAXE kimi fəaliyyətə başlayır. Yaxsı xidmət etdiyi üçün gizirlik kursuna göndəriblər. Sonra bir neçə rayonda - Xızıda, Mingəçevirdə, Ağstafada Tovuzda, Kəlbəcərdə düz 9 il qüsursuz xidmət edib. Son iş yeri "Komando" bölüyü olub. 2023-cü il sentyabrın 19-da qardaşım Ağdərə rayonunun Çələkdar kəndi istiqamətində gedən döyüslər zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Sentyabrın 21-də Ucar rayonunda Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölümündən sora Prezident İlham Əliyev onu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edib.

Bacısı deyir ki, Hüseyn çox gözəl qardaş idi. Adama ürəkdən can yandırardı. Aldığı maaşını elə bizim uşaqlara xərcləyirdi. Elə insan idi ki, sanki Allah onu yaxşılıq etmək üçün yaratmışdı. Qazandığı puldan qıyıb özünə bir şey almazdı. Anamın, uşaqların geyiminə-keciminə verərdi...

Qardaşı Zaur əlavə edir:

- Hüseyn həmişə öz davranışı, hərəkətləri, mehribanlığı ilə seçilirdi. Çox mərd, qorxmaz, cəsarətli, igid bir oğlan idi. Öz xasiyyətinə uyğun da çoxsaylı dostları var idi. Boş vaxtlarını onlarla birgə keçirərdi. Uşaqlıqdan arzusu hərbçi olmaq idi. Anam qoymurdu. Dolanışığı bəhanə edib, nəhayət ki, xidmətə yollandı. 44 günlük Vətən müharibəsində Tovuzda xidmət edirdi. Dəfələrlə raport yazıb ön cəbhəyə getmək istədiyini bildirmişdi. Elə hey gileylənirdi ki, "belə iş olar, hərbçi olasan, müharibə gedə, sən canlı döyüşə girməyəsən. Şəhidlərimizin ruhundan utanıram". Bizi gözüyaşlı qoysa da, arzusuna çatdı. Vətəninə, torpağına olan sevgisi onu şəhidlik zirvəsinə yüksəltdi...

Bacısı qızı Aylin şəhid dayısı Hüseyn Mustafayevin ömrü kimi yarımçıq qalmış "Əsgər gündəliyi"ni qarşımıza qoyur. Gündəliyi vərəqləyirik. Hüseynin hissləri, düşüncələri sanki dil açıb danışır. Son şeirinin sonuncu bəndi hamımızı kövrəldir:

*Sənin gözlərinə baxa bilmədim,*
*Həsrət sevgimiz üçün qarşılıq imiş.*
*Qapılar bağlandı çıxa bilmədim,*
*Növbəti dayanacaq ayrılıq imiş...*

***Elşən QƏNİYEV, "Azərbaycan"***

## “Əsrin müqaviləsi” – 30





# Siyasi və iqtisadi sabitliyimizin qarantı

## "Əsrin müqaviləsi" Azərbaycanın müasir müstəqillik tarixinin ən mühüm hadisələrindən biridir

**Müasir Azərbaycan tarixinin ən önəmli hadisələrindən olan "Əsrin müqaviləsi"nin imzalanmasından otuz il ötür. 30 illik zaman kəsiyində Azərbaycanın əldə etdiyi tarixi uğurlar bu beynəlxalq müqavilənin əhəmiyyətini bir daha dəyərləndirməyi zəruri edir.**

"Əsrin müqaviləsi"nə siyasi, geosiyasi və iqtisadi aspektdən yanaşmaq lazımdır. 1990-cı illərin əvvəlləri Azərbaycanın siyasi həyatı təlatümlər və təbəddülatlar dövrü idi. Xaos, anarxiya burulğanında boğulan respublikamız parçalanma, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqımız o zaman müdrik qərar qəbul edərək ölkəni bu təhlükədən xilas etmək üçün Liderə - Heydər Əliyevə üz tutdu. Xalq öz Xilaskarını təkidlə Naxçıvandan Bakıya dəvət etdi və demokratik yolla hakimiyyətə gətirdi.

Həmin dönəmdən etibarən Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi möhkəmlənməyə başladı. Transmilli korporasiyaların Azərbaycan neftinə marağının güclü olmasına baxmayaraq, ölkə qanunvericiliyində sərmayə qoyuluşu üçün hüquqi təminatlar yetərli deyildi. Bu məsələlərdə Ulu Öndər Heydər Əliyevin fenomenal şəxsiyyəti mühüm rol oynadı. Ümummilli Lider Heydər Əliyevə olan inam və etimad "Əsrin müqaviləsi"nin bağlanmasında həlledici amilə çevrildi. Belə ki, keçmiş sovetlər birliyinin idarə edilməsində iştirakı zamanı şəxsi keyfiyyətləri ilə seçilməsi, qətiyyəti, işgüzarlığı, ən əsası isə söylədiyi hər sözünün ağası olması onu ən vacib keyfiyyəti kimi başqalarından fərqləndirmiş və dünyanın siyasi liderləri arasında yüksək nüfuz sahibinə çevirmişdi.

Məhz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi yeni epoxanın əsasını qoydu. Bu epoxanın adı Heydər Əliyev epoxası idi. Azərbaycanın siyasi həyatının yeni dövrü məhz müstəqilliyimizin qorunub saxlanması və möhkəmlənməsini diktə edirdi. Dünyanın super güclərinin təmsil olunduğu neft şirkətləri ilə danışıqlar da bu yeni dövrdə baş vermişdi.

Neft şirkətləri ilə danışıqlar 1994-cü ilin martında Bakıda başladı, sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi. Danışıqların həlledici mərhələsi isə ABŞ-nin Hyuston şəhərində keçirildi. Hyustonda 1994-cü il iyulun 21-dən sentyabrın 4-dək 45 gün ərzində aparılan danışıqlarda kəskin dramatik məqamlar da az olmamışdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan nümayəndə heyəti qarşısında qoyduğu vəzifənin təmin olunması heç də asan məsələlər deyildi.

### İlham Əliyev töhfəsi

Danışıqlarda iştirak etmiş korifey neft mütəxəssisi mərhum Xoşbəxt Yusifzadə bu barədə deyirdi: "Danışıqlar ağır gedirdi. Tərəflərin hər biri öz mövqeyini, öz mənafeyini qoruyurdu. Bəzən iş o yerə çatırdı ki, ya qarşı tərəf, ya da biz danışıqları tamamilə dayandırmaq istəyirdik. Bir dəfə qarşı tərəf şərt qoydu ki, Azərbaycan Rusiya ilə danışıb Xəzər dənizinin hüquqi statusunu həll etməsə, danışıqlar davam etdirilməyəcək. Təsəvvür edirsinizmi bu nə demək idi? Məlum olduğu kimi, Rusiya ilə bu məsələ Prezident Heydər Əliyevin səyi nəticəsində yalnız 2002-ci ildə həll edildi. Deməli, 1994-cü ildə Amerikada Hyuston danışıqları dayandırılsaydı, biz yeddi-səkkiz il gözləməli olacaqdıq. Nümayəndə heyətimizin üzvü, o vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyev qarşımıza qoyulmuş şərt barədə Ulu Öndərimizə məlumat verdi, onun göstərişi ilə Vaşinqtona uçdu, orada çox faydalı görüşlər keçirib, məsələni yoluna qoydu.

Biz Hyustonda olanda Mehriban xanım da bizimlə idi. Bir yerdə nahar edirdik. Bizə məsləhət verirdi, bunu belə edin, bunu elə edin, buna belə baxın. Ən vacibi isə o idi ki, biz gedəndə arxamızca su atırdı ki, işimiz uğurlu olsun".

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" gerçəkləşdi. Müqavilənin imzalanmasında Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanının 13 böyük neft şirkəti - ARDNŞ, Amoco, BP, McDermott, UNOCAL, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta iştirak etmişdir. Bununla da Azərbaycanın yeni neft strategiyası və doktrinasının əsası qoyuldu.

"Əsrin müqaviləsi"ni imzalayan dövlətlərdən 3-ü - Rusiya, ABŞ və Böyük Britaniya BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri idi. Müharibə şəraitində olan bir dövlət üçün bu, çox vacib amil idi. Artıq bu müqavilədən sonra Azərbaycanda sabitlik və təhlükəsizliyin təmin edilməsi regional deyil, qlobal bir məsələyə çevrildi. Qafqazın lider dövləti olan Azərbaycanın regionda həlledici söz sahibi olması, ümumqafqazın inkişaf perspektivlərinin məhz Azərbaycandan asılı olması müqavilənin regional və geosiyasi leytmotivinə çevrildi.

### Enerji təhlükəsizliyi və geosiyasi sabitliyin təmin olunması "Əsrin müqaviləsi" kontekstində

Heydər Əliyev epoxası ilə başlayan və Ümummilli Lider tərəfindən "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" şüarı ilə həyata keçirilən iqtisadi siyasət yeni dövrün gerçəkliklərini özündə ehtiva edirdi. Bu iqtisadi siyasətin mərkəzində məhz neft amili dururdu. "Əsrin müqaviləsi"nin baş tutmamasında maraqlı olan qüvvələr həmin ərəfədə Azərbaycanda siyasi qətllər və terrorlar həyata keçirdilər. Lakin Heydər Əliyevi terror aktları ilə Azərbaycanın taleyüklü bu layihəsini həyata keçirməkdən çəkindirə bilmədilər. Bu müqavilənin Azərbaycanın gələcək iqtisadi strategiyasının müəyyən edilməsində nə qədər mühüm rol oynayacağını müəyyənləşdirən böyük siyasi xadim Heydər Əliyev bütün təhdidlərə sinə gərərək, öz prinsipial mövqeyindən geri çəkilmədi və layihəni gerçəkləşdirməyə nail oldu.

Dünya siyasi liderləri içərisində böyük nüfuzu olan Ümummilli Lider Heydər Əliyev vaxtilə SSRİ-ni idarə edən şəxslərdən biri kimi dünyanın siyasi mənzərəsini və gerçəkliklərini yaxşı dəyərləndirən siyasətçi idi. Heydər Əliyevin "Əsrin müqaviləsi" vasitəsilə əks qütblərdə dayanmış Qərb və Rusiya ilə münasibətlərdə "qızıl orta"nı müəyyənetmə bacarığı heyranlıqla qarşılanırdı. Təsadüfi deyil ki, Azərbaycanın ən böyük iqtisadi layihəsi olan "Əsrin müqaviləsi" bağlanarkən birinci növbədə Azərbaycanın milli maraqları ön planda olmaqla, Ermənistan-Azərbaycan münaqişəsinin milli maraqlar kontekstində və xüsusilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi əsas amil olaraq təməl prinsipə çevrilmişdir.

Burada Türkiyə-Azərbaycan münasibətlərinə də xüsusi diqqət yetirmək lazımdır. 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Heydər Əliyevin Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutmuşdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdi. Göründüyü kimi, Qərblə Rusiya arasında "qızıl orta"nı müəyyənləşdirən Ümummilli Lider Heydər Əliyevin Türkiyəyə yönəlik jestləri milli maraqlar çərçivəsində prinsipial əhəmiyyət daşıyır.

Azərbaycanın yerləşdiyi coğrafi mövqe onu Avropa və Asiya arasında mühüm enerji tranzit ölkəsinə çevirdi. 2006-cı ildə BTC boru kəmərinin istifadəyə verilməsi Azərbaycan neftinin Qərb bazarlarına çatdırılmasını asanlaşdırdı. BTC Xəzər dənizindən neftin Türkiyənin Ceyhan limanına qədər nəql olunmasını təmin etdi, Azərbaycanı regional enerji təhlükəsizliyinin əsas aktoruna çevirdi. Bu boru xətti həm də Azərbaycanı karbohidrogen ehtiyatların ixracı baxımından müstəqil oyunçuya çevirdi.

### Neft kapitalından "insan kapitalı"na

Prezident İlham Əliyevin siyasi fəaliyyətinin mühüm məqamlarından biri məhz neft siyasətinin uğur qazanmasına verdiyi töhfələrdir. Cənab İlham Əliyevin prezidentlik dönəmində isə həm uğurlu daxili və xarici siyasətin davam etdirilməsi, həm də ölkənin müdafiə potensialının artırılması nəticəsində ərazi bütövlüyümüz təmin olundu. Xarici siyasət kursunun düzgün müəyyən edilməsi, Qoşulmama Hərəkatına üzvlüyümüz, pandemiya və digər təbii fəlakətlər zamanı onlarla ölkəyə yardım etməyimiz, ən əsası isə düşmən üzərində qələbənin təmin edilməsi Prezident İlham Əliyevin tarixə qızıl hərflərlə yazdığı səhifələr, həmçinin düzgün neft strategiyasının gətirdiyi siyasi dividendlərdəndir.

"Əsrin müqaviləsi"nin gerçəkləşməsi plan üzrə nəzərdə tutulduğu müddətdə həyata keçməyə başladı. 1999-cu ilin dekabrında Azərbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bu neftin satışından əldə edilən valyuta Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil edildi. Görülən bütün tədbirlər qeyri-neft sektorunun inkişafına xidmət edirdi.

Azərbaycanın ən böyük kapitalı insan kapitalıdır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dilindən səsləndirilmiş bu fikir Azərbaycanın dövlət siyasətinin əsas prioritetini təşkil edir. Özünü sosial dövlət elan edən Azərbaycanda həyata keçirilən bütün layihələrin mərkəzində məhz insan amili durur. Əlbəttə, biz neft ölkəsi olmağımız gerçəyini unutmamalıyıq. Təsadüfi deyil ki, Azərbaycanın dövlət büdcəsinin bir hissəsini neftdən əldə edilən gəlir təşkil edir. Lakin qeyri-neft sektorunun inkişafı dövlətimizin ən vacib iqtisadi prioritetlərindəndir. Neftdən əldə edilən gəlirin qeyri-neft sektorunun inkişafına yönəldilməsi iqtisadiyyatın dinamik inkişafını təmin etməkdədir. Bütün sahələrdə, ilk növbədə informasiya texnologiyaları, innovasiyalar olmaqla, neftdən əldə edilən gəlirlə sərmayə qoyuluşunun şahidi oluruq.

Bir istiqaməti xüsusilə qeyd etməliyik. Bu neft sahəsində çalışan kadrların hazırlanmasına sərmayə qoyuluşu ilə bağlıdır. Prezident İlham Əliyevin təsdiq etdiyi Milli Təhlükəsizlik Konsepsiyasında ölkəmizin təhlükəsizliyini təhdid edən hallar sırasında peşəkar insan ehtiyatlarının çatışmazlığı xüsusilə vurğulanmışdır. Konsepsiyaya görə peşəkar milli işçi qüvvəsinin və idarəetmə sektorunun inkişafı üçün zəruri olan bütün səviyyələrdə təlim və tədrisin təmin edilməsinə qadir olan mütərəqqi təhsil sistemi yaradılmalıdır. Əks halda bu, Azərbaycan Respublikasının inkişafına uzaq perspektivdə mənfi təsir göstərə bilər. Bu təhlükənin aradan qaldırılması istiqamətində görülən işlər arasında neft sənayesində milli kadrların hazırlanması da mühüm rol oynayır. Bu sahədə uzun illər fəaliyyət göstərən Azərbaycan Neft Akademiyasının rolunu danmaq olmaz. Lakin bu ali məktəblə bərabər, yeni yaradılmış Ali Neft Məktəbinin də yeni çağırışlara cavab verən müasir milli kadrların hazırlanmasında fəaliyyəti böyükdür.

### Mükəmməl enerji siyasəti

Ümumillikdə, qeyri-neft sektorunun inkişafını aşağıdakı kateqoriyalara ayırmaq olar: neft kapitalının insan kapitalına çevrilməsi; təhsilin, mədəniyyətin və idmanın inkişafına yönəlik layihələr; infrastruktur və nəqliyyat daşımaları layihələri.

İqtisadi rentabelliyi və dayanıqlığı baxımından alternativ enerji mənbələri son dövrlər bizim regionda da aktuallıq qazanmaqdadır. Bu enerji növünün qaynaqlarının təbiət olması bu sahənin səciyyəvi xüsusiyyətidir. Ümumiyyətlə, deyə bilərik ki, son illərdə aparılmış islahatların bir hissəsi bərpaolunan enerji istehsalı ilə bağlıdır. Bu sahədə bir sıra təşəbbüslər uğurla reallaşdırılıb və bərpaolunan energetika sahəsi son dövrlərdə "yaşıl iqtisadiyyat"ın inkişafında önəmli yer alıb. Xarici şirkətlərlə yeni layihələrin imzalanması bu sahədə atılan ciddi addımlardan biridir. İşğaldan azad edilmiş regionlarımızın bərpasında alternativ enerji mənbələri ilə bağlı məşhur olan "ACWA Power" və "Masdar" şirkətləri ilə 500 milyon dollarlıq müqavilə bağlanması dövlətimizin bu sahənin inkişafında maraqlı olduğunun göstəricisidir. Müqavilələr Azərbaycana sərmayə yatırılmasını nəzərdə tutur ki, bu da ilk növbədə milli iqtisadiyyatımıza stimul verəcək. Eyni zamanda yeni iş yerləri açılacaq. Bu layihələr ölkəmizin enerji dayanıqlığını təmin edəcək. Bərpaolunan enerji ölkəmizdə "yaşıl iqtisadiyyat"ın inkişafına töhfə verəcək. Bu sahənin inkişafını şərtləndirmək üçün Milli Məclisdə bir neçə yeni qanun da qəbul edilib. Ötən yaz sessiyasında "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" qanun qəbul edilib. Heç şübhəsiz ki, bu sahənin inkişaf perspektivləri möhkəm təməllər üzərində qurulmalı və inkişaf etdirilməlidir.

Bəzi hallarda postneft dövrü ilə bağlı pessimist təhlillərlə rastlaşırıq. Hesab edirəm ki, postneft dövrü ilə bağlı ən ciddi şəkildə Azərbaycan dövləti, onun rəhbəri cənab İlham Əliyev düşünür. Qeyri-neft sektoruna qoyulan sərmayə, müxtəlif sahələrin inkişaf etdirilməsi bunun bariz nümunəsidir. Bir məsələni də xüsusi vurğulamaq istəyirəm ki, 2017-ci ildə "Əsrin müqaviləsi"nin iştirakçısı olan subyektlərlə yeni pay bölgüsü ilə bağlı müqavilə müddətinin 2050-ci ilə kimi uzadılması postneft dövrünün yaxın gələcəkdə aktual olmamasından xəbər verir. Bir daha vurğulamaq istəyirəm ki, Azərbaycan dövləti, onun uzaqgörən, müdrik Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın düşünülmüş siyasətləri sürətli iqtisadi inkişafa təminat verir. Odur ki, bu mövzuda narahat olmağa dəyməz.

Bu siyasətin nəticəsidir ki, Azərbaycan 4-cü sənaye inqilabının regional mərkəzinə çevrilmişdir. Bu isə Azərbaycanın möhkəm iqtisadi və siyasi təməllər üzərində olduğunu, Qafqazın lider dövləti kimi dünyanın qabaqcıl inkişaf etmiş ölkələri arasında ön sıralarda özünə yer tutacağını göstərir. Təsadüfi deyil ki, artıq "ağıllı şəhər", "ağıllı kənd", "ağıllı fabrik", "ağıllı avtomobil", "ağıllı telefon" kimi konsepsiyalar həyatımızda daha çox görünməyə başlayıb. Onu da qeyd edim ki, Azərbaycan gənclər ölkəsidir, yeniliyə açıq cəmiyyəti var. Hesab edirəm ki, hətta pessimist ekspertlərin proqnozları doğrulsa belə biz xalq, millət olaraq postneft dövrünə hazırıq.

Azərbaycanın iqtisadi potensialının ən vacib komponenti olan neft amilinin düzgün idarə edilməsi 44 günlük Vətən müharibəsində özünü göstərdi. Azərbaycanın hərbi baxımdan dünyanın ən güclü dövlətləri sırasına çıxmasında məhz bu siyasətin düzgün qurulması həlledici rol oynadı. Vaxtilə Ümummilli Lider Heydər Əliyev tərəfindən iqtisadi prioritetlərin düzgün müəyyənləşdirilməsi və cənab İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirilməsi bizimlə müharibə vəziyyətində olan Ermənistanın iqtisadi blokadaya alınmasına gətirib çıxardı. Güclü iqtisadiyyatımız bizə müdafiə sənayemizin inkişaf etdirilməsinə şərait yaratdı. Bütün bunlar iki böyük Sərkərdənin - Ulu Öndər Heydər Əliyevin və və onun layiqli davamçısı İlham Əliyevin zəkasının Azərbaycan xalqına töhfəsi idi.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ölkəmizin enerji strategiyasının reallaşmasında mərkəzi rol oynayır. SOCAR yalnız neft və qaz hasilatı ilə məşğul olmaqla kifayətlənmir, həm də ölkənin neftkimya sənayesini, təbii qazın idxalı və ixracını, habelə neft məhsullarının istehsalını idarə edir. Şirkət həmçinin xarici ölkələrdə də investisiyalar həyata keçirərək beynəlxalq miqyasda öz mövqeyini gücləndirir.

SOCAR təkcə daxili bazarda deyil, həm də beynəlxalq arenada aktiv iştirak edir. Şirkət Gürcüstan, Türkiyə, Ukrayna və digər ölkələrdə neft və qaz infrastrukturuna investisiyalar qoyur. Xüsusən də SOCAR-ın Türkiyədə həyata keçirdiyi STAR neftayırma zavodu layihəsi və PETKİM petrokimya şirkəti ilə əməkdaşlığı Azərbaycan-Türkiyə iqtisadi münasibətlərini yeni səviyyəyə çıxardı.

Azərbaycanın yalnız neft deyil, həm də qaz ehtiyatları strateji əhəmiyyət daşıyır. Xəzər dənizində yerləşən "Şahdəniz" yatağı dünyanın ən iri qaz yataqlarından biridir. "Şahdəniz" layihəsi çərçivəsində hasil edilən qaz hazırda "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya ixrac olunur.

Azərbaycan üçün neftin ixracı mühüm iqtisadi resursdur. Lakin hökumət iqtisadiyyatda neftdən asılılığın azaldılmasına xüsusi önəm verir. Bu, neftin qiymətindəki dəyişikliklərin ölkə iqtisadiyyatına mənfi təsir etməməsi üçün də vacibdir.

### Gələcək perspektivlər və çağırışlar

Azərbaycanın enerji strategiyasının gələcəyi bir neçə əsas faktorla müəyyən olunacaq. Bunlardan biri iqlim dəyişiklikləri ilə bağlıdır. Dünyada iqlim dəyişikliyi ilə mübarizə tədbirləri gücləndikcə neft və qaz sənayesindən istifadənin kriteriyaları təkmilləşir. Azərbaycan da bu istiqamətdə addımlar ataraq, "yaşıl enerji"yə keçid layihələrinə start vermişdir. Bu, bərpaolunan enerji mənbələrinin inkişafını, xüsusən də külək və günəş enerjisindən istifadəni nəzərdə tutur.

Digər faktor beynəlxalq neft bazarları ilə bağlıdır. Neftin dünya bazarındakı qiymət dəyişiklikləri Azərbaycanın gəlirlərinə birbaşa təsir göstərir. Azərbaycanın neft strategiyası bu riskləri nəzərə alaraq, iqtisadi diversifikasiya və neft-qaz sektorundan əldə olunan gəlirlərin daha səmərəli istifadəsini təmin edir.

Digər faktor regional əməkdaşlıq və təhlükəsizlikdir. Azərbaycanın geosiyasi mövqeyi regional münaqişələrə həssasdır. Buna baxmayaraq, Azərbaycan enerji resurslarının nəqli üçün yeni yollar axtarmağa və regional əməkdaşlığı genişləndirməyə davam edir.

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən otuz il Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının nə qədər doğru olduğunu bir daha təsdiq edir. Bu uğurun ən vacib göstəricisi isə cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin enerji siyasətini yeni dövrün çağırışlarına uyğun qətiyyətlə davam etdirməsidir.

*Azərbaycan yeni çağırışlara açıq olan və dəstək verən bir ölkədir. "Yaşıl iqtisadiyyat"ın yeni elmi nəzəri və praktik təmayülləri də məhz ölkəmizdə inkişaf etməkdədir. Azərbaycanın strateji məqsədi isə neft və qazdan əldə edilən gəlirlərin qeyri-neft sektorunun və gələcək nəsillərin davamlı inkişafını təmin etməkdir.*

**Sadiq QURBANOV,**
**Milli Məclisin deputatı**




# Azərbaycanın yeni neft-qaz strategiyasının polad platforması

## "Azəri-Çıraq-Günəşli" - 30 ildə 45 milyard dollar sərmayə, 4,4 milyard barel neft

**30 il əvvəl torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan dünyada riskli ölkə sayılırdı. Belə bir vəziyyətdə xarici neft şirkətlərini inandırmaq, onları Azərbaycana sərmayə qoymağa cəlb etmək mürəkkəb məsələ idi. Ölkənin xəzinəsinin boş olması isə xarici investisiyanın cəlb edilməsini gündəmə gətirmişdi.**

Məhz belə çətin dövrdə Ulu Öndər Heydər Əliyev növbəti tarixi missiyanı yerinə yetirdi. Ümummilli Liderin uzaqgörənliyi, səyi və mübarizəsi, dünyadakı siyasi nüfuzu sayəsində Azərbaycanın yeni neft strateqiyasının təməl daşı olan "Əsrin müqaviləsi" imzalandı.

İlk növbədə kontrakt imzalanarkən Ulu Öndərin bu hadisəni necə dəyərləndirdiyini xatırlayaq: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk".

Bu da bir həqiqətdir ki, keçmiş sovet respublikaları arasında xarici neft şirkətləri ilə beynəlxalq müqavilə imzalayan ilk dövlət məhz Azərbaycan olub. Başqa sözlə, "Əsrin müqaviləsi" postsovet məkanında xarici neft şirkətləri ilə imzalanan ilk beynəlxalq sazişdir.

"Əsrin müqaviləsi" adını almış bu möhtəşəm saziş Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli"(AÇG) yataqlarının tammiqyaslı işlənməsi məqsədini daşıyır. AÇG dənizdə, Bakıdan təxminən 100 kilometr şərqdə yerləşir. Bu meqastruktur Xəzər dənizinin altında 2000-3500 metr dərinlikdə yerləşən Balaxanı VIII və X, həmçinin yuxarı və aşağı Fasilə lay dəstələrini əhatə edir. 2024-cü ilin birinci yarısının sonuna qədər layihəyə ümumi investisiya həcmi təqribən 45 milyard dollar olub. İndiyədək AÇG-dən təqribən 4,4 milyard barel neft hasil edilib.



AÇG-nin işlənməsi bir neçə mərhələdə həyata keçirilib. Belə ki,"Çıraq" yatağından hasilat İlkin Neft Layihəsi (İNL) çərçivəsində 1997-ci ildən başlanıb. Bunun ardınca "Azəri" layihəsinin birinci mərhələsi - "Mərkəzi Azəri" gəlir. Buradan hasilat 2005-ci ilin əvvəlində başlanıb. Sonrakı ikinci faza - "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarını əhatə edib. Onlardan isə hasilat müvafiq olaraq 2005-ci ilin dekabrında və 2006-ci ilin axırlarında alınıb. AÇG-nin işlənməsinin növbəti üçüncü fazası çərçivəsində "Dərinsulu Günəşli" platformasından hasilat 2008-ci ilin aprelində başlanıb. Həmin fazalardan sonra "Qərbi Çıraq" platformasını əhatə edən "Çıraq Neft Layihəsi" reallaşıb. Bu platformadan ilk neft 2014-cü il yanvarın 28-də əldə edilib.

AÇG yataqlarının işlənməsi ilə əlaqədar ən sonuncu layihə "Azəri Mərkəzi Şərqi"dir (ACE) . Bu layihə AÇG-nin müddətinin 2050-ci ilə qədər uzadılması barədə Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də imzalanmış yeni sazişə - "Yeni əsrin müqaviləsi"nə əsasən işlənir. Layihəyə 2019-cu ildə sanksiya verilib. Bundan sonra tikilən ACE platformasından ("Yeni əsrin müqaviləsi" çərçivəsində) ilk neft bu il aprelin 16-da çıxarılıb.

Hazırda AÇG üzrə iştirak payları belədir: BP (Böyük Britaniya) - 30,37 faiz, SOCAR (Azərbaycan) - 25 faiz, MOL( Macarıstan) - 9,57 faiz, İNPEKS (Yaponiya) -9,31 faiz, "Ekvinor" (Norveç) - 7,27 faiz," EksonMobil"- (ABŞ) 6,79 faiz, TPAO (Türkiyə) - 5,73 faiz, İTOÇU (Yaponiya) - 3,65 faiz, ONGCVideş (Hindistan) - 2,31 faiz. Yeri gəlmişkən onu qeyd edək ki, Azərbaycan dünyanın bir çox aparıcı enerji şirkətləri ilə uğurlu, qarşılıqlı maraqlara əsaslanan möhkəm əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb.

Ötən illər ərzində AÇG-dən hasilat müxtəlif həcmdə olub. İndi buradan gündə təxminən 336 min barel neft hasil olunur. Həmin neft dünya bazarlarına əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri və Qərb İxrac Boru Kəməri (Bakı-Supsa marşrutu) ilə nəql olunur.

Bir vaxtlar isə bizi gözü götürməyən kənar qüvvələr, eləcə də "sapı özümüzdən olan baltalar" deyirdilər ki, Azərbaycanda neft yoxdur və belə bir sazişin imzalanması əbəsdir. Cavabı isə zaman özü verdi. Belə ki, "Əsrin müqaviləsi" əsrlərə hesablanmış düzgün və uzaqgörən strategiya əsasında imzalanmışdı. Azərbaycanın AÇG-dəki ehtiyatları hətta ona imkan verdi ki, XX minilliyin 90-cı illərində imzalanmış kontrakt XXI əsrin ortasınadək uzadıldı.

Yeni saziş imzalanarkən Prezident İlham Əliyev demişdir: "Yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, - əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, - onu göstərir ki, hələ də "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, kontraktın icrası müddətində bu rəqəm daha da artacaq".

Bu neft həcmlərinin ölkəmizə gətirdiyi faydalar da misilsizdir. Bu barədə çox deyilib, çox yazılıb. Dövlətimizin başçısı dönə-dönə vurğulayıb ki, ölkəmizin əsas gəlir mənbəyi "Azəri-Çıraq-Günəşli" yataqlarıdır və bunu hamı bilməlidir. Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır, kifayət qədər valyuta ehtiyatları var, iqtisadiyyatı dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində önəmli addımlar atır.

Hələ 7 il əvvəl "Yeni əsrin müqaviləsi" imzalanarkən Prezident İlham Əliyev bunları da bir daha qeyd etmişdir: "Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri, - dünyanın ən gözəl şəhərlərindən biridir, - tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadəetmə imkanlarımız dayanır. Biz bu illərdə Dövlət Neft Fondundan məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük vəsait ayırdıq və 250 min köçkünü 100-ə yaxın yeni salınan qəsəbədə gözəl evlərlə, mənzillərlə təmin etdik".

Həmin vaxtdan bəri nailiyyətlərimiz daha da artıb. Ən başlıcası isə, mənfur düşməni zəbt etdiyi doğma torpaqlarımızdan qovmuş, erməni faşizmi üzərində qələbə çalmışıq. İndi isə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çeviririk. Prezidentimiz bu zəfər üçün də neft layihələrindən iqtisadi güc aldığımızı vurğulayıb.

İndi bu sazişin təcrübəsindən özümüz də bəhrələnirik, qonşularımız və dostlarımız da. "Əsrin müqaviləsi" elə möhkəm özülə, elə polad platformaya çevrilib ki, onun üzərindən yeni möhtəşəm layihələrə yol açılıb. Üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan, Ümummilli Lider Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri çəkilib, Azərbaycanı qaz ixracatçısı kimi tanıdan Bakı-Tbilisi-Ərzurum kəməri inşa edilib. Ölkəmizi pan-Avropa qaz təzhizatçısına çevirən 3500 kilometrlik "Cənub qaz dəhlizi" yaradılıb. Başqa sözlə, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu strategiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, günün tələbləri baxımından inkişaf etdirilir və Azərbaycanı yeni zirvələrə doğru aparır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## “Əsrin müqaviləsi” – 30

# Dövlətimizin güclənməsində uğurlu neft strategiyasının böyük rolu var

**"Ölkəmizin hərtərəfli inkişafında, dünya miqyasında əldə etdiyi nailiyyətlərdə, habelə regionda lider statusunu qazanmasında və beynəlxalq mövqelərinin yüksəlməsində, təbii ki, iqtisadi amilin rolu böyükdür. Uğurla inkişaf edən Azərbaycan iqtisadiyyatının göstəriciləri ilbəil yüksəlib, dünyada baş verən ağır böhranlara baxmayaraq, davamlı xarakter daşıyıb və xalqımızın rifahına xidmət göstərib. Sözsüz ki, rəqabətədavamlı iqtisadi inkişafın təmin olunmasında dövlətimizin enerji siyasəti böyük pay sahibidir və bu siyasətin müəllifi də məhz Ulu Öndər Heydər Əliyev olub. Ümummilli Liderimiz xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra müəyyənləşdirdiyi neft strategiyası qüdrətli, davamlı iqtisadi inkişafa malik Azərbaycanı hədəfləyirdi. Onun bilavasitə rəhbərliyi ilə Azərbaycan bu sahədə tarixi uğura imza ataraq Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin**



**müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzaladı. Siyasi və qlobal əhəmiyyətinə görə, "Əsrin müqaviləsi" adlanan sazişin imzalanmasında 7 ölkədən dünyanın nüfuzlu 11 neft şirkəti iştirak edib. Azərbaycanın enerji siyasətində tarixi dönüşə səbəb olan bu müqavilə ölkəmizə böyük nüfuz gətirdi, dünyaya inteqrasiyasına, dövlətlərarası münasibətlərin qurulmasına və inkişafına kömək etdi".**

Bu fikirləri kütləvi informasiya vasitələrinə açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Sahib Məmmədov deyib.

"Bildiyimiz kimi, həmin vaxtlar Azərbaycan cəmi 3 il idi müstəqillik qazanmışdı, ölkəmiz üçün təhlükələr hələ tam aradan qalxmamışdı. Həmçinin Xəzər dənizi ilə bağlı ətraf ölkələr arasında iddialar qalmaqda idi. Son dərəcə belə çətin və riskli dönəmdə dünyanın nüfuzlu şirkətlərinin bu müqaviləni imzalaması, Azərbaycanın neft sektoruna investisiyalar yatırması bilavasitə Ulu Öndər Heydər Əliyevin şəxsi nüfuzu, onun fəaliyyətinə və müdrik rəhbərliyinə olan dərin inamla bağlı idi. Onlar əmin idilər ki, böyük siyasətçi Heydər Əliyevin imzası dəyişməzdir, Azərbaycan müqavilənin şərtlərinə görə, üzərinə düşən bütün öhdəlikləri vaxtında və layiqincə yerinə yetirəcək. Yeri gəlmişkən, hələ o vaxta qədər postsovet dövlətləri arasında xarici neft şirkətləri ilə belə bir beynəlxalq müqavilə bağlayan olmamışdı, bunu ilk olaraq Azərbaycan etdi. Hadisələrin sonrakı gedişi göstərdi ki, müstəqil Azərbaycanın ilk enerji sazişi olan "Əsrin müqaviləsi" gözləntiləri artıqlaması ilə doğrultdu, ölkəmiz dünyanın enerji təhlükəsizliyində əhəmiyyətli rola malik aktora çevrildi. Layihənin effektiv həyata keçirilməsi ölkəmizin maliyyə imkanlarını artırdı, iqtisadiyyatımızı gücləndirdi, iş yerlərinin açılmasına, sahə üzrə yüksəkixtisaslı mütəxəssislərin yetişməsinə şərait yaratdı, eləcə də digər dövlətlərlə ticarət əlaqələrinin qurulmasına və inkişafına təkan verdi", - konfederasiya sədri qeyd edib.

Onun sözlərinə görə, beynəlxalq ictimaiyyət gördü ki, Azərbaycan dövləti öz təbii sərvətlərinin sahibidir, suveren hüquqlarını qətiyyətlə qoruyur, bunlardan səmərəli, xalqının mənafeyi naminə istifadə edir: "Sonralar ölkəmiz bu istiqamətdə daha uğurlu layihələrə imza atdı, neft hasilatı dəfələrlə yüksəldi. Artıq dünya bazarına nəql üçün yeni marşrutlar üzərində işlənməyə başlanıldı. Çünki Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri artıq artan yükü daşımaq imkanında deyildilər. Odur ki, Azərbaycanın neft strategiyasının banisi Ulu Öndərimiz Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin çəkilməsi təşəbbüsü ilə çıxış etdi və 2002-ci ildə kəmərin təməli qoyuldu. Bu gün isə BTC-nin faydalarını saymaqla qurtarmaq olmaz, ümumiyyətlə, regionun inkişafına, ölkələr arasında münasibətlərə təsiri böyükdür. 2017-ci ildə dövlət başçısı cənab İlham Əliyevin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş saziş imzalandı. Bu, Azərbaycanın neft tarixində növbəti əlamətdar hadisə idi və bununla ölkəmiz enerji siyasətində yeni inkişaf mərhələsinə qədəm qoydu. "Yeni əsrin müqaviləsi"ndə nəzərdə tutulan şərtlər ölkəmiz üçün daha səmərəli idi və perspektivləri çoxdur".

"Ulu Öndər Heydər Əliyevin banisi olduğu Azərbaycanın enerji siyasəti Prezident İlham Əliyev tərəfindən yeni geosiyasi və geoiqtisadi şəraitə uyğunlaşdırılaraq daha da inkişaf etdirilib, imkanları dəfələrlə genişləndirilib. Zəngin karbohidrogen ehtiyatlarına və inkişaf etmiş yanacaq-energetika infrastrukturuna malik olan ölkəmiz bu gün regionun enerji mərkəzinə çevrilib, dünyada baş verən mürəkkəb proseslər fonunda bu sahədə yaşanan böhranda xilaskar missiyasını yerinə yetirir. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn layihələr Avropaya işıq saçır, qoca qitənin enerji təminatına əhəmiyyətli dərəcədə töhfələr verir. Bu gün Azərbaycan həm də müasir dövrün reallıqlarından və özünün potensialından çıxış edərək "yaşıl enerji"yə sürətli keçid edir, hətta bu istiqamətdə lider ölkələr sırasındadır. Əminik ki, günü-gündən inkişaf edən, dünyada böyük söz sahibi olan Azərbaycan yaxın gələcəkdə dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə qarşıda duran bütün hədəflərinə çatacaq", - AHİK sədri Sahib Məmmədov vurğulayıb.






# 50 il buruqlar arasında

## 72 yaşlı təcrübəli neftçi-geoloq Ələmdar Useynov bu gün gənc həmkarlarının ən yaxın məsləhətçisidir

**İnsanın xoşbəxtliyi nə tutduğu mövqedən, nə də yaşının az və ya çox olmasından asılıdır. İnsan xoşbəxtliyini o zaman dərk edir ki, illər onun taleyində gərəkli iz buraxır və o özündən sonra bu həyatda xoş xatirələr qoya bilir. Bunu bacarmaq böyük xoşbəxtlikdir, baxmayaraq ki, bu, elə çətin bir iş də deyil, sadəcə, belə doğulmaq lazımdır, 72 yaşlı həmsöhbətim Ələmdar Useynov kimi.**



Ələmdar Useynovla söhbət edərkən anladım ki, o, nəinki seçdiyi geoloq sənətinə mükəmməl yiyələnib, həm də bu peşəni ən uca zirvəyə daşıyanlarla çiyin-çiyinə olub. Dənizin dibi və ən uca zirvənin sön nöqtəsi... əks istqamətlərdən boylansa da buradakı fiziki qanunauyğunluq - "əksliklərin vəhdəti" qanunu xoş bir ahəng yaradaraq taleyinə işıq tutub. O, bu işığın başlanğıc nöqtəsinin böyük bacısından gəldiyini söyləyir:

- Bacım ixtisasca geoloq idi. Elmlər Akademiyasında işləyirdi. Onun peşəsi məndə maraq yaratmışdı, o üzdən işi-peşəsi ilə bağlı hərdən soruşur, bilik əldə etməyə çalışırdım. O da mənə çox həvəslə geologiyanın sirlərindən danışırdı. Beləliklə, məndə bu sənətə çox böyük maraq və sevgi yarandı. Ədəbiyyat müəllimiz "Kim olmaq istəyirsən?" mövzusunda inşa tapşıranda düşünmədən həmin sevginin əlindən tutub "geoloq olacam" yazdım. Onda Bakıdakı 172 saylı məktəbdə oxuyurdum. 1969-cu ildə məktəbi bitirib ovaxtkı M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun Geoloji kəşfiyyat fakültəsinə qəbul olundum. Və o gün bu gün "qara qızıl"ın - dəniz neftinin içindəyəm.

Doğrusu, "qara qızıl" sözü bizdə qəribə nostalji ovqat yaratdı. Onun nə olduğunu gəncliyimizdən bilirdik. Sovet mətbuatında "neft" ən çox "qara qızıl" kimi təqdim olunurdu və təbii ki, jurnalist olaraq biz də bu bənzətmədən istifadə edirdik. Həmsöhbətimiz də bunu duymuş kimi həmin mövzuda maraqlı bir əhvalat danışdı:

- I Pyotr 1722-ci ildə Bakıya yolladığı hərbi ekspedisiyanın rəisi general Matuşkinə xüsusi tapşırıq verib ki, əbədi və müqəddəs odun-alovun əsası olan qara neftdən mümkün qədər Peterburqa çox göndərin, neft işi ilə məşğul olan bir neçə usta və mütəxəssisi də ora ezam edin. Çarın məqsədi Xəzərsahili vilayətlərdən, xüsusən də Bakıdan yerli əhalini - azərbaycanlıları köçürüb, onların torpaqlarında erməni, gürcü və rusları yerləşdirərək özünə xristianlardan ibarət istinadgah yaratmaq imiş. İş elə gətirib ki, ölüm çarın bu arzusunu ürəyində qoyub. İllər sonra Bakı qubernatoru 1840-cı ildə Peterburq Elmlər Akademiyasına göndərdiyi Bakı neft nümunələrini yoxlayandan sonra "alim"lər ona ibrət dərsi vermək üçün belə cavab yazıblar:"Bu üfunətli maddə ancaq araba çarxlarını yağlamağa yaraya bilər". Amma həmin "üfunətli maddə" sonradan "qara qızıl" adını alaraq bütün dünyanın marağında oldu. Elə həmin dövrlərdən "qara qızıl" diyarı olan Bakının şöhrəti bütün dünyaya yayıldı. Varlanmaq üçün dünyanın məşhur mühəndisləri, memarları, alimləri, kimyaçıları, texnoloqları, inşaatçıları Bakıya axışaraq mənsəb və dövlət sahibi oldular.

Ələmdar Useynov deyir ki, arzusu ali təhsilini başa vurandan sonra Sibir yataqlarında Fərman Salmanovun yanında işləmək olub, Tümenin neft quyularında iz qoymaq istəyib. Hətta IV kursda diplom işi yazmaq üçün Surqut yaxınlığındakı Nefteyuqansk şəhərində 3 aylıq təcrübə keçib. Həmin vaxt orda qalıb işləmək arzusunu bildirsə də, ona müsbət cavab verilməyib: "3 il Azərbaycanda işləyəndən sonra gəlib burda çalışa bilərsən". Beləcə, gənc Ələmdarın Tümenneftdə işləmək istəyi arzu olaraq qalıb.

Amma onun gəncliyinin başqa bir qəribə xatirəsi də var. O da diplom rəhbəri - həmin vaxtın tanınmış geoloqu Baxış Sultanovla bağlıdır. Ə.Useynov:

- 1937-ci ildə Baxış Sultanovun Bibiheybət yatağında qazdığı quyudan neft çıxmayıb. Bu M.Bağırovun qəzəbinə səbəb olub və onun həbs olunmasına göstəriş verib. Lakin Baxış Sultanov həbsdə olanda həmin quyudan neft fontan vurub. Bunu eşidən Mircəfər Bağırov geoloqu həbsdən azad edib, ona ev və avtomobil verib.

1974-cü ildən taleyini "qara qızıl"a bağlayan Ələmdar Useynov deyir ki, 50 ildir "neft qoxusu" verir: "Mənim üçün neft qoxusu dünyanın ən bahalı ətirindən üstündür" deyir təcrübəli neftçi. Çünki Xəzərin tufanı, qasırğası, küləyin şiddəti, şahə qalxan dalğanın nəriltisi onu heç vaxt qorxutmayıb, əksinə, bərkidib, peşəsinə daha sıx bağlayıb. Neftçi geoloq üçün dəniz ana kimidir. Nə qədər qəzəbli olsa da sakit vaxtları insana laylay deyir.

Hələ II kursda oxuyanda Almaniyanın Frayberq şəhərindəki Dağ-Mədən Akademiyasında, sonra keçmiş S.Orconikidze adına Neftqazçıxarma İdarəsində təcrübə keçən və təyinatla keçmiş Serebrovski adına Neftqazçıxarma İdarəsində operator kimi işə başlayan Ələmdar Useynov yaxın zamanlarda Xəzərdə neftin bitəcəyini ehtimal edənlərin fikirlərini qəbul etmir:

- Xəzərin nefti tükənməzdir, sonsuz sərvətdir. Götürək Hövsan-Zığ yatağını. 1996-cı ilə qədər bu yataq sutkada 2-3 ton neft verirdi. Artıq müasir texnologiyalarla qazılan yeni quyulardan gündə 300 tona qədər neft hasil olunur. Onu da deyim ki, Xəzərdə hələ də kəşf olunmamış yataqlar çoxdur. 500-1000 metr dərinlikdə olan həmin yataqlar seysmik kəşfiyyat işi aparmaqla kəşf edilir.

Həmsöhbətimiz Xəzər nefti haqqında xeyli danışdı. Xəzər dənizində ilk dəfə kəşfiyyat quyusunu Mixail Kaveroçkinin rəhbərlik etdiyi briqadanın qazdırdığını dedi, məşhur qazma ustası Ağa Nemətullanı xatırladı. Söylədi ki, 1952-ci ildə 5 nömrəli quyuda axtarış aparan, bu ərazidə nefti kəşf edən Ağa Nemətulla olub. Həmin kəşfdən sonra - 1955-ci ildə Qumdəniz yatağında Neftqazçıxarma İdarəsi yaradılıb. İndi bu idarə "Bahar Enerji" LTD adlanır.

"Fəxri neftçi" Ələmdar Useynov işdən yorulmur, təqaüddə olsa da, təcrübəli geoloq kimi elə keçmişini xatırladığı "Bahar Enerji" LTD-dən peşəsini gənclərə öyrətmək üçün tez-tez dəvət alır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Əsrin müqaviləsi" – 30

**Tarix olduğu kimi**

**Azərbaycanın yeni neft strategiyasının əsasının qoyulduğu "Əsrin müqaviləsi"ndən 30 il ötür.**

**Ulu Öndər Heydər Əliyevin səyləri, uğurlu siyasəti nəticəsində imzalanan müqavilə, dahi liderin özünün də dediyi kimi, Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün unikal imkanlar yaratdı.**

**1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında imzalanan "Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsinə və Hasilatın Pay Bölgüsünə dair Saziş" tarixi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırıldı. Səkkiz ölkənin - Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanının 11 məşhur neft şirkətinin iştirakı ilə imzalanmış saziş Azərbaycan iqtisadiyyatının dönüş nöqtəsinə çevrildi.**



## Azərbaycan dünyanın enerji xəritəsini dəyişdi

"Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil oldu. Xəzər hövzəsinin Azərbaycan sektorunda ən iri neft-qaz yataqlar bloku olan "Azəri-Çıraq-Günəşli"nin ehtiyatı əvvəl 511 milyon ton həcmində proqnozlaşdırılsa da, sonradan bu göstərici 1.072 milyard ton həcmində müəyyən edildi.

1995-ci ildə "Çıraq" yatağından ilk neftin çıxarılması məqsədilə "Çıraq-1" platforması bərpa edildi. AÇG blokundan ilk neft isə 1997-ci ilin noyabrında "Çıraq" yatağından əldə edildi. 2005-ci ildə "Mərkəzi Azəri" platformasının istismara verilməsi ilə bu yataqdan da ilk neft çıxarıldı. Daha sonra "Qərbi Azəri" və "Şərqi Azəri" platformaları inşa edildi və müvafiq olaraq 2005-ci və 2006-cı ilin sonlarında istismar edilməyə başlandı. 2008-ci ildə "Dərinsulu Günəşli", 2014-cü ildə isə "Qərbi Çıraq" platformalarının işə salınması hasilatın artırılmasına təkan verdi. Ümumilikdə, layihə çərçivəsində 300 milyon barel neftin çıxarılması planlaşdırılır.

2017-ci ildə bu kontrakt Azərbaycan üçün daha əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadıldı. Sazişin imzalanma mərasimində çıxış edən Prezident İlham Əliyev də bu məqama toxunaraq qeyd etmişdi ki, imzalanacaq sazişin ölkəmiz üçün çox böyük əhəmiyyəti var: "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılır. Yeni imzalanacaq kontrakt Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış kontrakt da bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır".

Prezident sazişin bir neçə əsas parametrlərini xalqın diqqətinə çatdırdı:

- Saziş imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək;
- SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək;
- SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılacaq və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək.

Göründüyü kimi, əsas şərtlər göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu sazişin çox böyük əhəmiyyəti var.

Biz isə 30 illik tarixə malik, ölkə iqtisadiyyatının dirçəliş sazişinin keçdiyi dövrə və əhəmiyyətinə bir daha nəzər salırıq.

### "Ulu Öndər neft savaşını xeyrimizə həll etdi"

İlk həmsöhbətimiz Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Orucdur. Siyasi ekspert qeyd edir ki, 1990-cı illər sovetlər birliyinin dağılması ilə paralel Azərbaycan ərazilərinin işğal altına düşməsi strateji sərvətlər uğrunda mübarizəni daha da şiddətləndirdi.

Xəzər ətrafında gedən amansız savaş, əslində, bu bölgədə hökmranlıq uğrunda müharibənin tərkib hissəsi idi: "Neft sərvətləri tarixən müxtəlif dövlətlər arasında konfliktlərin əsas səbəblərindən biri olub. Reallıq odur ki, bu qara maye kəşf olunandan sabitliyə, inkişafa deyil, daha çox amansız çarpışmalara aparıb çıxarıb. Buna görə də Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdandan sonra iqtisadiyyatın dağılmasını durdurmaq üçün ilk növbədə neft savaşını ölkəmizin xeyrinə həll etdi və yeni tərəfdaşlar qazandı. Xəzərin statusu ilə bağlı yeni toqquşmalara səbəb olan prosesi durdurdu. Ölkənin sosial, siyasi, hərbi gücü sıfırlananda və ya aşağı düşəndə o, hər hansı beynəlxalq müqavilələrə gedirsə, şərtlər bütün hallarda onun xeyrinə olur, çünki istədiyini diktə edə bilir. Hesab edirəm ki, həmin dövrdə İlham Əliyevin Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti olaraq bu qlobal mübarizədə Azərbaycanın mənafelərini uğurla müdafiə etməsi ilə 20 sentyabrda "Əsrin müqaviləsi"nin imzalanması bölgədə sabitliyin yaradılmasına, atəşkəsin əldə edilməsinə, digər tərəfdən Azərbaycanın ölkələr arasında beynəlxalq rəqabətin ayaq altına çevrilməməsinə, bundan başqa, neft sənayesinin inkişafı hesabına əldə olunan gəlirlərin bir hissəsini məcburi köçkünlərin şəraitinin yaxşılaşdırılmasına, o cümlədən şəhid ailələrinə, qaçqınlara və digər ehtiyaclı sosial təbəqələrə yönəldə bilməsinə real imkanlar yaratdı.

Təkcə o faktı xatırlatmaq yerinə düşər ki, ötən illər ərzində 114-dən artıq qəsəbənin salınması məhz həmin neft gəlirləri hesabına idi. Ulu Öndərdən, bilavasitə onun liderliyindən yön alan bu kurs 2000-ci illərdən başlayaraq milyardlarla dollar vəsaitin büdcəyə daxil olması ilə iqtisadiyyatın digər bütün sferalarını ayağa qaldırmağa imkan verdi. Həmçinin bölgələrin mütənasib inkişafı mümkün oldu. Bakı daxil olmaqla, regionlarda elektrik enerjisinin fasilələrlə, gün ərzində 3-4 saat verildiyini, sənaye məhsulları istehsalından danışmağın mümkünsüz olduğunu heç kim unutmayıb. "Əsrin müqaviləsi" əsasında imzalanan 30-a yaxın saziş, 2017-ci ildə müqavilənin 2050-ci ilə qədər uzadılması da sübut etdi ki, Azərbaycan mühüm strategiyaya malikdir".

"Əsrin müqaviləsi" imzalanana qədər Azərbaycanda iqtisadi vəziyyətin həddindən artıq gərgin olduğunu deyən Neft Araşdırmaları Mərkəzinin rəhbəri, enerji məsələləri üzrə ekspert İlham Şaban qeyd edir ki, həmin dövrdə tənəzzül pik həddə çatmışdı. Keçmiş sovetlər birliyinin ölkələri ilə iqtisadi əlaqələr dağılmışdı, ölkədə stabil vəziyyət yox idi. Digər tərəfdən Azərbaycan Ermənistan tərəfindən işğala, təcavüzə məruz qaldığı üçün vəziyyəti stabilləşdirmək üçün yol yox idi. Ölkədə nəinki əməkhaqları gecikdirilir, hətta neftçilər belə ən yaxşı halda üç ayda bir dəfə maaş ala bilirdilər. İllik inflyasiya göstəricisi 1993-94-cü illərdə 1200-1680 faiz arasında idi. "Belə bir şəraitdə çox uzaqda bir işıq görünməyə başlayırdı. Bu da "Əsrin müqaviləsi"nin imzalanması idi. 20 sentyabr 1994-cü ildə Azərbaycan və 11 xarici şirkət arasında imzalanmış saziş ölkəmizə ümidlər gətirən layihə idi", - deyə o əlavə edir.

İqtisadçı Aydın Hüseynov da bildirir ki, 30 il əvvəl dünya geosiyasi məkanında "Əsrin müqaviləsi" ilə uğurlu və olduqca mühüm tarixi başlanğıca imza atan Azərbaycanın həyata keçirdiyi milli enerji siyasəti, enerji diplomatiyası ilk növbədə respublikamızın təhlükəsizliyini təmin edib, çoxşaxəli enerji marşrutları sisteminin yaradılmasına əlverişli zəmin yaradıb, dünyanın enerji xəritəsini dəyişib. Onun sözlərinə görə, "Əsrin müqaviləsi" Azərbaycan üçün ən mühüm strateji hadisələrin yadda qalması üçün əsas olub: "1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə görüşü çərçivəsində Ulu Öndər Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə" dair saziş imzalandı. Eyni zamanda Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsi"ni imzaladılar. Bununla da Azərbaycanın Qərblə iqtisadi-siyasi münasibətlərində yeni mərhələ başlandı".

2017-ci il sentyabrın 14-də "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən işlənmiş Saziş"ə əsasən, müqavilə 2049-cu ilin sonunadək uzadıldı. Yeni sazişə əsasən, "BP" fəaliyyətini layihənin operatoru kimi davam etdirir, SOCAR-ın payı 11,65 faizdən 25 faizə qaldırılıb, mənfəət neftinin isə 75 faizi Azərbaycana çatır. Beləliklə, əsası Ulu Öndər tərəfindən qoyulan mühüm layihənin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi idi ki, artıq Azərbaycana daha uyğun, əlverişli şərtlərlə saziş yeniləndi.

**Zahid Oruc:**



- İlham Əliyevin Neft Şirkətinin vitse-prezidenti olaraq bu qlobal mübarizədə Azərbaycanın mənafelərini uğurla müdafiə etməsi ilə 20 sentyabrda "Əsrin müqaviləsi"nin imzalanması bölgədə sabitliyin yaradılmasına, atəşkəsin əldə edilməsinə, digər tərəfdən Azərbaycanın ölkələr arasında beynəlxalq rəqabətin ayaq altına çevrilməməsinə, bundan başqa, neft sənayesinin inkişafı hesabına əldə olunan gəlirlərin bir hissəsini məcburi köçkünlərin şəraitinin yaxşılaşdırılmasına, o cümlədən şəhid ailələrinə, qaçqınlara və digər ehtiyaclı sosial təbəqələrə yönəldə bilməsinə real imkanlar yaratdı.

"Əsrin müqaviləsi" bütövlükdə xalqın mənafeyinə xidmət etməklə rifah halını yüksəldib. Yüzlərlə layihə məhz bu siyasət sayəsində həyata keçirilib. Bu gün xarici ölkələrdə investisiya qoyarkən neft sərvətlərindən bəhrələnərik.

**Aydın Hüseynov:**



- 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri ilə Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair sazişi", eyni zamanda Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsi"ni imzaladılar. Bununla da Azərbaycanın Qərblə iqtisadi-siyasi münasibətlərində yeni mərhələ başlandı.

"Əsrin müqaviləsi" Azərbaycanın milli gəlirlərinin artması, neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinə yönəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi və Azərbaycanın strateji valyuta ehtiyatlarının artmasında da mühüm rol oynayıb.

**İlham Şaban:**



- Həmin dövrdə tənəzzül pik həddə çatmışdı. Keçmiş sovetlər birliyinin ölkələri ilə iqtisadi əlaqələr dağılmışdı, ölkədə stabil vəziyyət yox idi.

Digər tərəfdən Azərbaycan Ermənistan tərəfindən işğala, təcavüzə məruz qaldığı üçün vəziyyəti stabilləşdirmək üçün yol yox idi. Ölkədə nəinki əməkhaqları gecikdirilir, hətta neftçilər belə ən yaxşı halda üç ayda bir dəfə maaş ala bilirdilər. İllik inflyasiya göstəricisi 1993-94-cü illərdə 1200-1680 faiz arasında idi. Belə bir şəraitdə çox uzaqda bir işıq görünməyə başlayırdı. Bu da "Əsrin müqaviləsi"nin imzalanması idi. 20 sentyabr 1994-cü ildə Azərbaycan və 11 xarici şirkət arasında imzalanmış saziş ölkəmizə ümidlər gətirən layihə idi.

### İlham Əliyevin ciddi strateji qərarları

İlham Şaban bildirir ki, Azərbaycan Rusiyada, Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda hasilatın pay bölgüsü üzrə sazişlər imzalasa da, onların ən mükəmməli, dövlətin maraqlarının yüksək səviyyədə qorunduğu məhz AÇG üzrə saziş idi. Ondan sonra imzalanan sazişlərdə də məhz o əsas kimi götürülərək daha da təkmilləşdirilib. Marketinq, bazarlara çıxış, dövlətin maraqlarının maksimum qorunması kommersiya danışıqlarına rəhbərlik edən İlham Əliyevin səylərinin nəticəsi idi.

1995-ci ildə "Əsrin müqaviləsi"nin icrasına başlanıldığını deyən ekspert qeyd edir ki, məhz həmin il Azərbaycan iqtisadiyyatında 1990-cı ildən başlamış tənəzzülün sonu oldu: "Həmin il ümumi daxili məhsulun artımı qeydə alındı, bununla da Azərbaycanın həyatında böyük dəyişikliklərin astanasına gəldik. "Əsrin müqaviləsi"nin icrası ölkəmizdə bazar iqtisadiyyatının sənayedə ilk layihəsi idi. Digər respublikalardan həm də onunla fərqlənirdik ki, Ermənistanla müharibə şəraiti, bir milyona yaxın qaçqın və məcburi köçkünün olması, bu cür əzab-əziyyətli dövrdə Azərbaycanda özəlləşdirməyə start verildi. Bu baxımdan "Azəri-Çıraq-Günəşli" layihəsi iqtisadiyyatın digər sektorları, o cümlədən neft sahəsi üçün mayak rolunu oynadı. Dövlətin birbaşa iştirakı olmadan hər şeyi qurub-yaratmaq, inkişaf etdirmək, yeni bazarlar tapmaq, dövlətə vergi vermək, bununla dövlətin büdcəsini formalaşdırmaq, həmçinin sosial layihələr həyata keçirmək - bütün bunlar o vaxt bizim üçün tam yad bir şey idi. Nə özümüzdə, nə də qonşu dövlətlərdə görmüşdük. Bu baxımdan AÇG layihəsi Azərbaycan üçün kifayət qədər böyük rola malik oldu".

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinin istifadəyə verilməsi ilə Azərbaycanın Avropaya enerji nəqli başlandığını xatırladan A.Hüseynov vurğulayır ki, BTC nəhəng neft marşrutu kimi regionda əsas boru kəmərinə çevrilib: "Qazaxıstan və Türkmənistanın dünya bazarına çıxması və enerji təhlükəsizliyi sisteminə qoşulmasında bu kəmərin flaqman olması öz təsdiqini tapdı. Qazaxıstan neftinin Xəzər dənizi və respublikamızın ərazisindən nəql edilməsi və bu neft boru kəməri vasitəsilə dünya bazarına çıxarılması mühüm əhəmiyyət daşıdı. 2010-cu ildə Türkmənistan öz neftini BTC ilə nəql etməyə başladı".

Zahid Oruc isə vurğulayır ki, cənab İlham Əliyevin liderliyi sayəsində müxtəlif neft və qaz boru kəmərlərinin gündəliyə gəlməsi Qərbə çıxış imkanımızı artırıb. Mahiyyət etibarilə bütün bunlar çox sonralar həm də Qarabağ uğrunda müharibənin tərkib hissəsinə çevrildi. Əgər neft siyasəti düzgün qurulmasaydı, Azərbaycan böyük vəsaitlər əldə etməsəydi, digər yandan tərəfdaşlar qazanmasaydı, 2020-ci ildə Vətən müharibəsinə başlayanda güclü ordunu, XXI əsrin texnoloji savaşının nümunəsini yaradan və qlobal layları tərpətdiyi halda lokal səviyyədə düşməni məğlub edən dövlət ola bilməyəcəkdi. Əlbəttə ki, bu, Ümummilli Liderin siyasi kursudur. Onu da demək lazımdır ki, XXI əsrdə beynəlxalq münasibətlər sistemi daha amansız didişmələrlə müşayiət olunduğundan İlham Əliyevdən Heydər Əliyev qədər ciddi strateji qərarlar istənilirdi: "Bu dövr ərzində ölkəmizin səsini beynəlxalq aləmə çatdırmaqla, mühüm tərəfdaşlar qazanmaqla, ən sonda yeni layihələrlə Avropanın enerji təhlükəsizliyi siyasətində aktiv yer tutmaqla nəticə etibarilə torpaqlarımızın azadlığına nail olduq. Biz istər suverenlik, istərsə də ərazi baxımından mübarizəmizdə uğurlu nəticələrə ona görə nail olduq ki, güclü resurslar əldə etdik. Yüz mindən artıq hərbi qulluqçu, zabit və əsgər heyətini ayaqda saxlamaq, ən strateji silahlarla təmin etmək, Cənubi Qafqazın bu cür güclü Silahlı Qüvvələrini formalaşdırmaq, həmçinin siyasi mənada Avropanın onlarla ölkəsini yanında görmək indi ərazi problemi yaşayan heç bir dövlətə müəssər olmayıb. Bu, strateji mənada Prezident İlham Əliyevin liderlik qabiliyyəti, onun sərkərdəliyinin təcəssümüdür".

### Cəsarətli addımları, sistemli mübarizəni özündə təcəssüm etdirən 30 il

Aydın Hüseynov isə qeyd edir ki, BTC regionun enerji xəritəsini dəyişib. "Əsrin müqaviləsi" yeni enerji müqavilələrinin, enerji dəhlizlərinin, neft-qaz sektorunda mühüm hadisələrin baş verməsinə səbəb olub.

Bu gün Trans-Anadolu boru kəməri (TANAP), Trans-Adriatik boru kəməri (TAP) layihələri məhz 1994-cü ildə əsası qoyulmuş uğurlu neft strategiyasının mühüm nəticəsidir. "Əsrin müqaviləsi"nin imzalanması həmçinin Azərbaycanın milli gəlirlərinin artmasında da mühüm rol oynamaqdadır. "Neft strategiyasının əsas başlıca prinsiplərindən biri neft gəlirlərinin ədalətli bölgüsü və şəffaflığın təmin edilməsidir. Bu məqsədlə 1999-cu ildə yaradılmış Dövlət Neft Fondunun fəaliyyəti ölkəmizdə neft vəsaitlərinin ədalətli bölüşdürülməsi konsepsiyasının nə qədər düzgün olduğunu təsdiqləyir.

O, bildirir ki, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın milli gəlirlərinin artması, neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinə yönəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi və Azərbaycanın strateji valyuta ehtiyatlarının artmasında da mühüm rol oynayıb.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bu ay Prezident İlham Əliyevin İtaliyada Beynəlxalq Çernobbio Forumundakı çıxışını xatırladaraq bildirir ki, dövlət başçısı səfər zamanı çox unikal fikir söyləyib: "Ölkə rəhbəri dedi ki, təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu. Bu, nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, beynəlxalq hüquqi çərçivə ilə yanaşı, cəsarət və güc faktoru da olsun. Biri olmazsa, savaşı qazana bilməzsən. Savaşlar üçün nə qədər böyük vəsaitlər qoyulur, ancaq rəhbər amili, xalqı birləşdirmək, ordunu yüksək ruhda tutmaq, qlobal təzyiqləri neytrallaşdırmaq, diplomatik-informativ savaşda nümunə olmaq bir çox dövlət başçısına nəsib olmayıb. Əslində, bizim üçün kəmərlər də, müqavilələr də mahiyyət etibarilə siyasi təhlükəsizliyimizin, müstəqilliyimizin qarantı oldu. Digər tərəfdən 30 illik yubiley bizim cəsarətli addımların, yorulmaz, sistemli, bir sıra hallarda hətta məhdudiyyətli, müxtəlif müqavimətləri yararaq keçən mübarizəmizi özündə təcəssüm etdirən tarixdir. Otuz rəqəmi bizim müxtəlif "narıncı inqilab"lara qarşı mübarizə tariximizdir. Eyni zamanda bölgəyə müxtəlif üsul idarələrini yeritmək, ərazidə forpostlar qurmaq, İran, Türkiyə, Rusiya əleyhinə cəbhələr açmaq istəyən dairələrə qarşı da apardığımız düzgün müstəqil mövqeyin ifadəsidir".

Ekspert düşünür ki, "Əsrin müqaviləsi" bütövlükdə xalqın mənafeyinə xidmət etməklə, rifah halını yüksəldib. Yüzlərlə layihə məhz bu siyasət sayəsində həyata keçirilib. Bu gün xarici ölkələrdə investisiya qoyarkən neft sərvətlərindən bəhrələnərik.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi üçün hökumət tərəfindən mühüm addımlar atılır. Ölkə rəhbəri alternativ enerjini dövlət kursuna çevirib. İndi "yaşıl Azərbaycan" modeli bu kursun nüvəsidir. Biz texnologiyaları hərəkətə gətirən bu mayedən xilas olub daha fərqli enerjinin üzərində gələcəyimizi formalaşdırmaqda maraqlıyıq. "Dövlət başçısı bu siyasəti qarşıya ən mühüm tələb kimi qoyub. Düşünürəm ki, bu, cəmiyyət tərəfindən də alqışlanır, ona görə də bu həm də bizim üçün zəfərin ildönümüdür. Buna görə də təkcə neftçiləri deyil, bütün millətimizi təbrik edirəm", - deyə o əlavə edib.

İlham Şaban da vurğulayır ki, "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan ilk addımlarını atan ölkə kimi əlinə vəsait gəldikcə, ondan səmərəli şəkildə istifadə etməyə başlayıb. Təkcə paytaxtın deyil, bütün regionların inkişafı istiqamətində işlər görülüb. Azərbaycanda neft vəsaitlərinin daxil olduğu ilk illərdə bir yol 5 ilə çəkilirdisə, indiki ilə müqayisədə 5 dəfə baha qiymətə başa gəlirdisə, indi həyata keçirilən layihələr həm kvalifikasiyanı, həm də vəsaitləri peşəkar istifadə etməkdə digər postsovet ölkələrindən nə qədər irəli getdiyimizi göstərir.

Energetika Nazirliyinin məlumatına əsasən, "Azəri-Çıraq-Günəşli" yataqları istismara veriləndən bu il sentyabrın 1-dək 595,8 milyon ton neft hasil edilib. Bu ilin 8 ayında isə AÇG-dən 11,1 milyon ton neft çıxarılıb. Azərbaycan iqtisadiyyatını tənəzzüldən xilas edən, yeni sahələrin inkişafı fonunda ümumilikdə ölkənin dirçəlməsinə səbəb olan "Əsrin müqaviləsi" nəticəsində qeyri-neft sektoru da inkişaf yoluna qədəm qoyub. Bu gün Azərbaycan dünyada yalnız neft ölkəsi kimi deyil, həm də qeyri-neft sektorunda öncül yerlərindən birini tutursa, bu da elə həmin tarixi müqavilənin bəhrəsidir. Davamlı siyasət sayəsində Azərbaycan bir sıra Avropa ölkəsinin əsas tərəfdaşlarından birinə çevrilməklə nüfuzunu daha da artırıb.

Bu da Ulu Öndər tərəfindən əsası qoyulmuş yeni neft strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin bariz təcəssümüdür.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Azərbaycan ilə İtaliya arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib





İtaliyada rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Venesiya meydanında ucaldılan Naməlum əsgərin abidəsini ziyarət edib, önünə əklil qoyub, xatirəsini anıb.



AZƏRTAC xəbər verir ki, sonra Azərbaycan Ordusunun Baş Qərargah rəisi İtaliya Silahlı Qüvvələrinin hazırda fəaliyyətdə olan Baş Qərargah rəisi admiral Cuzeppe Kavo Draqone ilə görüşüb.

Baş Qərargahda keçirilən rəsmi qarşılanma mərasimində hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanovun da iştirak etdiyi görüşdə İtaliya Müdafiə Nazirliyinin və Silahlı Qüvvələrinin strukturu, fəaliyyət istiqamətləri ilə bağlı brifinq təqdim olunub.

Təkbətək və geniştərkibli görüşlərdə, həmçinin Azərbaycan ilə İtaliya arasında hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə edilib. General-polkovnik K.Vəliyev admiral C.K.Draqoneni NATO-nun Hərbi Komitəsinin rəhbəri təyin olunması ilə əlaqədar təbrik edib, ona yeni vəzifəsində uğurlar arzulayıb.

❖ ❖ ❖

İtaliya Respublikasında rəsmi səfəri çərçivəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev İtaliya Respublikasının müdafiə naziri Quido Krosetto ilə görüşüb.

Tərəflər ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan Respublikasının İtaliya Respublikasındakı səfiri Rəşad Aslanov da iştirak edib.

# Antiterror əməliyyatlarının ildönümü münasibətilə İkinci Şəhidlər xiyabanında anım mərasimi keçirilib





Sentyabrın 19-da Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirlərinin ildönümü münasibətilə İkinci Şəhidlər xiyabanında anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Müdafiə Nazirliyinin bir qrup şəxsi heyəti, icra hakimiyyətlərinin əməkdaşları, şəhidlərin ailə üzvləri, qazilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir ərazi bütövlüyümüz və suverenliyimiz naminə canından keçən qəhrəmanların əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi və hərbi orkestrin müşayiəti ilə Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov bildirib ki, antiterror əməliyyatlarının keçirilməsində məqsəd Qarabağda yerləşən Ermənistanın qanunsuz silahlı birləşmələrinin və separatçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması idi: "2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən separatçı qüvvələr Azərbaycan ərazisini tərk etməli olsalar da, Ermənistan rəhbərliyi və onların havadarlarının köməyi nəticəsində həmin hərbi birləşmələr ərazimizdə qalmaqla dinc əhaliyə, hərbi qulluqçulara qarşı terror xarakterli əməliyyatlar həyata keçirməyə davam edirdi. Bunun nəticəsində həm mülki vətəndaşlar, həm də hərbi qulluqçularımız arasında itkilərimiz, şəhidlərimiz olurdu. Buna görə də lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi qərara alındı. Əməliyyat zamanı Azərbaycan Ordusu dünya hərb tarixində görünməyən müddətdə - təxminən 23 saat ərzində Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmaqla bərabər, onları kapitulyasiyaya məcbur etdi. Ordumuzun bu qələbəsi ölkə rəhbərliyinin, xalqımızın Silahlı Qüvvələrimizə olan inamından irəli gəlirdi. Antiterror əməliyyatları zamanı hərbi qulluqçularımız böyük rəşadət və qəhrəmanlıq nümunələri göstərdilər. Təəssüf ki, həmin hərbi əməliyyatlar zamanı şəhadətə yüksələn əsgərlərimiz və zabitlərimiz də oldu. Onların hər biri böyük ehtiram və hörmətlə anılır, canları, qanları bahasına bəxş etdiyi Zəfərə görə minnətdarlıq bildirilir".

Sonra şəhid hərbi qulluqçuların məzarları ziyarət olunub, məzarları önünə tər çiçəklər düzülüb, əklil qoyulub, ruhlarına dualar oxunub.

Ötən il Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalan 19 yaşlı əsgər Qiyas Manafovun atası Ramil Manafov AZƏRTAC-ın müxbiri ilə söhbətində övladının orta məktəbi bitirdikdən dərhal sonra hərbi xidmətə yola düşdüyünü bildirib: "Vətənə olan borcunu Xocavənd-Xankəndi istiqamətində layiqli xidməti ilə ödəməyə çalışırdı. Komandirlərinin dediyinə görə, şəxsi heyət arasında məsuliyyəti, nizam-intizamı ilə seçilirmiş. Onun xarakterində bizim də kəşf edə bilmədiyimiz incəliklərə döyüş yoldaşları hərbi əməliyyatlarda şahid olublar. Antiterror tədbirləri zamanı Xocavənd-Xankəndi istiqamətində gedən döyüşlərdə iştirak edib və yaşından böyük qəhrəmanlıq nümunələri göstərib. Qiyas sentyabrın 19-dan 20-nə keçən gecə canından çox sevdiyi Vətən yolunda şəhid olub. Övlad itkisi ağır olsa da, onun Azərbaycan Respublikasının ərazi bütövlüyünün tam şəkildə bərpa olunması naminə son damla qanına qədər vuruşması, o ali zirvəni fəth etməsi ilə qürur duyuruq".

Şəhid əsgər Murad Arzullayevin atası Təvəkkül Arzullayev isə övladında daim öndə xidmət etmək, vuruşmaq eşqi var olduğunu söyləyib: "Komando birliyində xidmət edirdi. Tək övlad olduğundan ona görə narahatlıq yaşadığımızı bilirdi. Bu səbəbdən də hər şeyi bizdən gizlədirdi. Ən sonuncu dəfə 2023-cü ilin martında məzuniyyətə gəlmişdi. Ondakı dəyişikliklər nəzərimdən qaçmamışdı. Hündür boyuna yaraşan cüssəli bədəni övladımı daha da gözəgəlimli etmişdi. Ona baxdıqca qürurlanırdım. Son bir il idi ki, Qubadlıda xidmətini davam etdirirdi. Antiterror tədbirlərindən bir həftə əvvəl danışdıq. Təlimlərə gedəcəyini dedi. Gəlməyinə də sayılı günlər qalmışdı. Gəldi, amma bayrağa bükülmüş şəkildə çiyinlərdə gətirdilər…

Murad Xocavənd rayonun Qırmızı Bazar qəsəbəsi istiqamətində yüksəkliklərdən birinin azad edilməsi uğrunda döyüşlərdə şəhid olub. Biz onun döyüşlərdə iştirak etdiyini şəhidlik xəbərini alandan sonra bildik. Hətta o, 2022-ci il sentyabrın 12-14-də ermənilərin sərhəd ərazilərində törətdiyi təxribatlar zamanı Laçın istiqamətində də döyüşübmüş. Murad hər şeyi bizdən gizlətmişdi. Biz bir qəhrəman yetişdirdiyimizdən xəbərsiz imişik. O, öz istəyi ilə döyüşlərə atılıb, misilsiz şücaət göstərib. Murad 23 saat ərzində tarixdə görünməyən uğura imza atan rəşadətli ordunun hərbi qulluqçusudur. Tək onu deyə bilərəm ki, oğlumla qürur duyuram".

# <u>XİN:</u> ABŞ Konqresində keçirilən dinləmələrin məqsədi Azərbaycanla münasibətləri gərginləşdirməkdir

"Azərbaycanla bağlı bütün faktları açıq şəkildə təhrif edən və saxtalaşdıran bu cür tədbirin məqsədi Azərbaycan-ABŞ münasibətlərini gərginləşdirməkdir".

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə sentyabrın 19-da ABŞ Konqresində Azərbaycan əleyhinə keçirilən tədbirlə bağlı yerli medianın sualına cavabında bildirib.

Onun sözlərinə görə, bu, ABŞ Konqresindəki bəzi qrupların Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə açıq şəkildə hörmətsizlik nümayiş etdirərək, Azərbaycandakı vəziyyəti insan hüquqları pərdəsi altında necə təhrif etdiklərinin növbəti təzahürüdür:

"Təəssüf ki, ABŞ-nin milli təhlükəsizlik maraqlarından daha çox öz daxili mülahizələri və şəxsi mənfəətlərini rəhbər tutan ABŞ Konqresinin üzvləri tərəfindən təşkil edilən bu cür birtərəfli və qərəzli tədbirlər uzun müddətdir ki, ABŞ Konqresi üçün adi hal alıb. Üstəlik, sözügedən dinləməni təşkil edən konqresmenlərin özlərini dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsini dərindən dəstəkləyən şəxslər kimi təqdim etməsinin fonunda keçmiş separatçı rejimin nümayəndələrinin də bu dinləmələrdə iştirakı təsəvvür edilə bilən bütün çərçivələri aşır". Ayxan Hacızadə bildirib ki, Azərbaycanın ötən il həyata keçirdiyi antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun olub və Azərbaycan heç vaxt mülki əhalini hədəf almayıb.

"Azərbaycanın suveren ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğalı və hərbi təcavüzü dövründə azərbaycanlılara qarşı törədilmiş genişmiqyaslı etnik təmizləmə və qətliamlar, eləcə də Azərbaycanın dini və mədəni abidələrinin yer üzündən silinməsi isə əksinə, heç vaxt ABŞ Konqresi tərəfindən qınanmayıb. Ermənistandan fərqli olaraq, Azərbaycan dəfələrlə erməniləri və azərbaycanlıları birgə yaşamağa və əməkdaşlığa çağırıb və ermənilərin Azərbaycan vətəndaşları kimi bütün hüquq və imtiyazlarla təmin oluna, müdafiə və təhlükəsizlikdən yararlana biləcəklərinə dair təminat verib. Eyni zamanda regionumuzdakı vəziyyətin dini çərçivədə qarşıdurma kimi qələmə verilməsi narahatlıq doğurur, bu kimi addımlar sülh quruculuğuna və barışığa zərər vurur. Bununla yanaşı, erməni diasporu tərəfindən maliyyələşdirilən bəzi şəxs və təşkilatların dinləmələr zamanı Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və bu kimi bəyanatları qətiyyətlə pisləyirik. Həmin şəxs və təşkilatların himayədarlıq etdikləri Ermənistanda fundamental insan hüquq və azadlıqlarının pozulması, o cümlədən siyasi təqiblər nəticəsində həbs olunan şəxslərin həbsxanada həlak olması, siyasətçilərə və onların ailə üzvlərinə qarşı təzyiq hallarına fokuslanması daha məqsədəuyğun olardı. Dinləmələrdə istinad edilən qondarma "Artsax" Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş hərbi işğal və Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindən 750 minə yaxın azərbaycanlı mülki əhaliyə qarşı aparılmış etnik təmizləmə nəticəsində yaradılmış qeyri-qanuni qurumdan başqa bir şey deyildi. Eyni zamanda Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağ bölgəsinin coğrafi adının "Artsax" kimi təhrif edilməsi coğrafi adların beynəlxalq standartlaşdırılması üzrə prinsip və prosedurların açıq şəkildə pozulması, habelə ABŞ-nin 80-242 (1947) saylı qanununa uyğun olaraq ABŞ-nin Coğrafi Adlar üzrə Şurası (BGN) tərəfindən təsdiq edilmiş ABŞ Hökuməti orqanları tərəfindən milli və xarici coğrafi adların istifadə standartlarının təhrif edilməsidir. Biz ABŞ Konqresinin rəhbərliyini Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinə xələl gətirən bu cür tədbirlərin qarşısını almağa çağırır və xarici siyasətin həyata keçirilməsinə nəzarət edən qurum kimi Dövlət Departamentindən ABŞ Konqresində erməni lobbi qrupları tərəfindən sui-istifadə edilən bu cür hallara qarşı müvafiq tədbirlərin görülməsini gözləyirik", - deyə vurğulanıb.

Xatırladaq ki, sentyabrın 19-da ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında "Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan hüquqları" adlı dinləmə keçirilib və çıxış edənlər tərəfindən Azərbaycana qarşı çoxsaylı ittihamlar səsləndirilib.

# <u>XİN:</u> "Antiterror tədbirlərinin "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verilməsi qəbuledilməzdir"

Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək ölkəmizin Qarabağ iqtisadi rayonundan tamamilə çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikasının suverenliyinin və konstitusiya quruluşunun bərpası məqsədilə lokal xarakterli antiterror tədbirlərinin Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verilməsi qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin sentyabrın 19-da yaydığı bəyanata dair şərhində yer alıb.

A.Hacızadə həmçinin qeyd edib: "Sülhpərvər ölkə olduğunu iddia etməsinə baxmayaraq, Ermənistan tərəfindən Azərbaycanın əzəli və əbədi torpağı Qarabağın "Dağlıq Qarabağ" kimi qondarma adlarla çağırılması Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı hörmətsizliyin bariz nümunəsidir.

Ötən il sentyabrın 19-20-də Silahlı Qüvvələrimiz tərəfindən cəmi 24 saatdan az bir müddətdə öz suveren ərazilərimizdə aparılan antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirilib. Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tarixinin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsidir.

Ermənistanın 2020-ci il Vətən müharibəsində düçar olduğu məğlubiyyətə və qəbul etdiyi öhdəliklərə baxmayaraq və 2023-cü ilədək keçən üç ilə yaxın müddət ərzində öhdəliklərinə zidd şəkildə, nəinki öz qanunsuz silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmadığı, hətta Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürdüyü məlum idi. Ölkəmizə qarşı mina terrorunu davam etdirən Ermənistan zaman keçdikcə onun daha geniş vüsət almasına rəvac verirdi. Ermənistan rəsmiləri hər vəchlə ərazilərimizdə saxladıqları qondarma rejimin təbliğatını aparırdı və bu ölkənin baş naziri 2023-cü il sentyabrın 2-də qondarma "müstəqillik"lə bağlı separatçı rejimə təbriklərini çatdırdı.

Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüququn prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü acınacaqlı vəziyyətdən nəticə çıxarmayan Ermənistanın heç bir çərçivəyə sığmayan bu kimi davranışlarının qarşısının alınması əsas şərtlərdən idi.

2023-cü il sentyabrın 19-da erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 vətəndaşımızın həlak olması isə Azərbaycanın səbir kasasının daşmasına səbəb oldu və antiterror tədbirlərini qaçılmaz etdi.

Ermənistan tərəfinin təhrikedici səylərinə və təbliğatına baxmayaraq, antiterror tədbirləri aparıldığı zaman mülki əhali hədəfə alınmadı, mülki infrastruktura zərər vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı. Yaşayış yerlərini tərk etməmək barədə Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına, tətbiq olunan reinteqrasiya proqramına baxmayaraq, erməni sakinlər Azərbaycan ərazilərini tərk etmək barədə qərar verdilər. Bu, onların azad seçimi idi və bunu "etnik təmizləmə" kimi qələmə vermək Ermənistandan və işğal etdiyi Azərbaycan ərazilərindən azərbaycanlıları kütləvi şəkildə qovan, soyqırımı və kütləvi qırğınlar törədən Ermənistanın riyakarlığını nümayiş etdirir.

Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasından sonra Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması, nəticə etibarilə yekun sülh sazişinin imzalanması üçün tarixi fürsət yaranıb. Bu baxımdan Azərbaycanın regionumuzun təhlükəsizliyi və tərəqqisi naminə sülh prosesinin təşəbbüskarı olduğu, bu istiqamətdə həqiqi səylər göstərdiyi məqamda Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında ölkəmizin ərazi bütövlüyünə qarşı iddiaların qalması qəbuledilməzdir. Həmçinin Ermənistan tərəfindən tarixi sülh fürsətinin əldən verilməməsi üçün sözügedən iddiaların aradan qaldırılması istiqamətində tezliklə lazımi adekvat addımların atılması zəruridir.

Azərbaycan xalqı və dövləti üçün bu tarixi önəmli gündə bir daha ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçən Vətən övladlarımızın əziz xatirəsini dərin ehtiramla yad edirik.

Şanlı Silahlı Qüvvələrimizlə fəxr edir, dövlətimizin və xalqımızın hər zaman müzəffər olmasını diləyirik!"

# "Bütün dövlətləri Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıdışını dəstəkləməyə çağırırıq"

Qərbi Azərbaycan İcması antiterror tədbirlərinin ildönümü ilə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Bu gün Azərbaycan Respublikasının Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirlərindən bir il ötür. Azərbaycan otuz ildən artıq davam edən haqsızlığa bu tədbirlərlə son qoydu və ölkənin suverenliyini tam bərpa etdi. Bu qətiyyətli addım Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı uzunmüddətli qəsdini sona çatdıraraq beynəlxalq hüququn aliliyini təmin etdi.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə başlanmış sistemli mübarizə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla tamamlandı. Otuz il davam edən və tam qələbə ilə nəticələnən bu mübarizə Azərbaycanda xalq və dövlət arasında birliyin təcəssümüdür.

Azərbaycanın atdığı addımlar təkcə özünün milli maraqlarına xidmət etməyib, həm də beynəlxalq ədalət prinsiplərini müdafiə edib. Bu, dünyanın xaos və ədalətsizliklərlə dolu olduğu bir dövrdə haqqın və ədalətin nadir təntənəsidir. Təəssüf ki, bəzi xarici qüvvələr bu nailiyyətləri mənfi formada göstərməyə və ikiüzlülük yolu ilə yenidən gərginlik yaratmağa cəhd göstərirlər. Biz bu qüvvələrdən beynəlxalq hüququn normalarına hörmət göstərməyi və regionda davamlı sülhə mane olmamağı tələb edirik.

Biz bütün dövlətləri ədalətin bu şanlı qələbəsini alqışlamağa və tarixin bu ağrılı səhifəsinin ləyaqətlə bağlanması üçün Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıdışını dəstəkləməyə çağırırıq".

# Uğursuz keşiş geri çəkilir

## Hərbi xunta kilsənin də "xidmətlərindən" məhrum olur

Ermənistanda keçmiş hərbi xunta təmsilçilərinin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə planlaşdırılan etiraz aksiyaları baş tutmaya bilər.



Buna səbəb revanşistlərin kifayət qədər aksiyalara insanları cəlb edə bilməməsidir. Xalq arasında nüfuzunu itirən keçmiş hərbi xunta təmsilçilərinin din xadimlərindən vasitə kimi istifadə etmələri bundan əvvəlki etirazlarda açıq aydın ortada idi. Əsas məqam isə bu yürüşə erməni keşişin başçılıq etməyidir. Baş verən son hadisələr isə onu göstərir ki, artıq din xadimləri də revanşistlərin aksiyalarına etibar etmirlər.

Bu günlərdə keşiş Baqrat Qalstanyan Ermənistan parlamentində "Hayastan" və "Şərəfim Var" fraksiyalarının təmsilçiləri ilə iki saatlıq görüş keçirib. "Past" nəşri yazıb ki, təfərrüatlar açıqlanmasa da, müxalif hərəkatının liderinin sözlərinə görə, Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılması imkanlarını müzakirə ediblər. Qeyd edilib ki, Qalstanyan hakimiyyətə "isti payız" vəd etmişdi, lakin indiyə qədər bu yalnız müxalifətin hiddəti baxımından "isti"dir: "Qalstanyan və başqaları heç bir fikir ayrılığının olmadığını iddia edərək, hərəkata dəstək verəcəklərinə söz versələr də, hərəkatın gündən-günə söndüyü göz qabağındadır. Bunu Baqratın parlamentdəki bəyanatı da sübut edir. "Mənim siyasi lider olmaq ambisiyam yoxdur, bunu əvvəldən demişəm" - deyə o qeyd edib. Hələ may ayında baş nazirliyə namizədin başqa şəxs ola biləcəyi ilə bağlı şayiələr var idi. Baqrat Qalstanyanın özünə gəldikdə isə onun üçün konstitusiya maneəsi var. Həmin vaxt hərəkat lideri namizəd olacağını, hakim qüvvənin isə ictimaiyyətin qərarı ilə hesablaşmalı olacağını bəyan etmişdi. İctimaiyyətin qərarı isə alınmadı, hakim güc də müxalifəti yalnız ələ salmaqla məşğuldur və heç bir qorxu hiss etmir".

Aydındır ki, revanşistlər kilsənin imkanlarından istifadə etməyə çalışırlar. Nəzərə alınmalıdır ki, Ermənistan kilsəsi kifayət qədər nüfuza və gücə sahibdir. Lakin son hadisələr göstərir ki, keçmiş hərbi xunta və onların xarici havadarları sonuncu kartdan - kilsə faktorundan yararlanmaq istəkləri də getdikcə fiaskoya uğramaqdadır.

İrəvanda əhali arasında aparılan sorğularda səsləndirilən fikirlərdən görünən odur ki, xalq birmənalı şəkildə Sarkisyan-Koçaryan koalisiyasına yox deyir. "4rd.am" nəşrinin müxbiri feysbuk sosial şəbəkəsindəki səhifəsindən canlı yayım açaraq insanlara "Sülh müqaviləsi Ermənistan üçün təhlükəli sayıla bilərmi" sualını ünvanlayıbdır. Bir çox etirazçı qorxmadan, çəkinmədən müstəqil şəkildə fikirlərini ifadə edib. Onların sırasında müəllim, həkim, iqtisadçı, mühəndis, biznesmen, usta, idmançı fikirlərinə belə rast gəlmək mümkündür. Məsələn, ixtisasca iqtisadçı olan Stepan Qriqoryan deyir: "Acı həqiqət olsa da, demək lazımdır. İlham Əliyev yenə Paşinyanı qorxuya salıb. Hər zaman bizim rəhbərdən çox öndə olduğunu göstərə bilib. Azərbaycan Prezidenti hər gün müxtəlif bəyanatlar verir, bizimki də qorxudan dediyi fikirləri təkzib edir. Hələ üstəlik, qorxusundan evinə də gedə bilmir. Acı mənzərədir".

Robert Mkrtçyan adlı biri isə açıqlamasında deyib ki, İlham Əliyev xalqın bütün arzularını gerçəkləşdirir. Əslində, sülh müqaviləsinin imzalanması hər birimiz üçün möhtəşəm olardı. Bu gün etiraz edənlər heç də müharibə, "Artsax" istəmirlər. Yaxşı gələcək arzulayırlar. Etiraf etmək lazımdır ki, o torpaqlar Azərbaycanındır. Biz daha ölüm istəmirik.

Anton Melkumyan adlı sakin deyib ki, Paşinyan Ermənistana xəyanət etdi: "Bundan əvvəlki dövrdə Sarkisyan vətənimizi, zavodlarımızı, torpaqlarımızın yarısını quldur oliqarxlara, yarısını da xaricilərə satdı. Onun rəhbərliyi altında Ermənistan xaricilər üçün gəlir mənbəyinə çevrildi. Paşinyan gəldikdən sonra da dəyişən bir şey olmadı. Hər ikisi xalqı yox, öz gələcəklərini fikirləşiblər".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Naftalanlı şəhid övladı Türkiyədə keçirilən beynəlxalq turnirdə gümüş medal qazanmışdır

Naftalandakı Uşaq Gənclər İdman Məktəbinin gənc cüdoçusu Sadiq Qurbanov Türkiyədə keçirilən beynəlxalq "1922 Edirne" açıq cüdo turnirində II yerə çıxaraq gümüş medal qazanmışdır.



Qardaş Türkiyədən qayıdan gənc idmançı ilə Naftalan Şəhər İcra Hakimiyyətində görüş keçirilmişdir. ŞİH-in başçısı Vüqar Novruzov gənc idmançını qazandığı qələbə münasibətilə təbrik etmiş, ona idmanda və təhsilində uğurlar arzulamışdır. Bildirilmişdir ki, şəhid ailəsinin yeganə övladı olan Sadiq ölkədaxili və beynəlxalq yarışlarda dəfələrlə iştirak etmiş, 2 dəfə region birinciliyinin, müxtəlif beynəlxalq turnirlərin qalibi olaraq uğurlu nəticələr əldə etmişdir.

Görüşdə Sadiq Qurbanova və onun məşqçisi Fuad Əliyevə şəhər icra hakimiyyətinin fəxri fərmanları və hədiyyələri təqdim edilmişdir.

Qeyd edək ki, 2020-ci il 27 sentyabr tarixində 44 günlük Vətən müharibəsinin ilk günündə Sadiqin ailəsindən 2-si uşaq olmaqla 5 nəfər şəhid olmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Avropada "Boris" kabusu

## 24 nəfər həlak olub, bəzi şəhərlərdə fövqəladə vəziyyət elan edilib

Mərkəzi və Şərqi Avropada tüğyan edən "Boris" qasırğası nəticəsində ən azı 24 nəfər həlak olub. Təbii fəlakət Polşa, Rumıniya, İtaliya, Çexiya, Slovakiya, Avstriya və Macarıstanda bir çox yaşayış məntəqəsinə ziyan vurub.









Polşanın cənub-qərbindəki Vroslav şəhərində əsgərlər və könüllülər evləri və iş yerlərini qorumaq üçün şəhər ətrafındakı məcrasından çıxmış çayların yaxınlığında qum torbaları yerləşdiriblər. Ölkənin cənubundakı sakinlərə kömək etmək üçün 5 mindən çox əsgər göndərilib. Təxminən 40 min insan Nısa şəhərindən təxliyə edilib. Polşanın Baş naziri Donald Tusk bir ay davam edəcək fövqəladə vəziyyət elan edib.

Rumıniyanın Qalats bölgəsində baş verən daşqınlar fəlakətlə nəticələnib. İnsanların illərlə qazandıqları hər şey indi torpaq altına düşüb. Özü də bu, təkrarlanan fəlakətdir: ərazi keçmişdə iki dəfə güclü daşqınlardan əziyyət çəkib.

Slobozia-Konaki kəndində su 750 evə, yəni kəndin təxminən 80 faizinə ziyan vurub. Hakimiyyət evsizlər üçün düşərgə qurub.

Kostace Neqri kəndində su yolun bir hissəsini aparıb. Ərazidə 2013-cü və 2016-cı illərdə də daşqınlar baş verib. Hakimiyyət o vaxtdan bəri burada təbii fəlakətlərdən qorunmaq üçün hansısa tədbirin görülüb-görülmədiyini deyə bilmir.

Çexiyada 15 min insan təxliyə edilib. Yerli qeyri-hökumət təşkilatı "Clovek v tisn"nin məlumatına görə, Çexiya son 27 ilin ən güclü daşqını ilə üzləşib.

Ən çox zərər çəkmiş şəhərlərdən biri də Ostrava olub.

Slovakiya və Macarıstanda Dunay çayında suyun səviyyəsi sürətlə yüksəlməkdə davam edir. Bu səbəbdən Bratislava və Budapeşt mümkün daşqınlara hazırlaşır. Leanifalou kəndində macar əsgərləri qum torbalarından istifadə edərək daşqına qarşı baryerlərin qurulmasına kömək edirlər.

Kütləvi informasiya vasitələrinin verdiyi məlumata görə, yüksək su səviyyəsinə görə Avstriya hakimiyyəti Dunay çayının bəzi hissələrini naviqasiya üçün bağlayıb.

Xorvatiya Meteorologiya və Hidroloji Xidməti çayda suyun "son dərəcə nadir" yüksəlməsi ilə bağlı xəbərdarlıq edib və zərurət yaranarsa daşqın baryerlərinin qurulmasının planlaşdırıldığını təsdiqləyib.

İtaliyanın şimalındakı Emilia-Romanya bölgəsində, Brizigella şəhərinin səlahiyyətliləri sosial şəbəkələr vasitəsilə zərər çəkmiş ərazilərdəki insanları evlərini tərk etməyə çağırır, çünki növbəti 24-36 saat ərzində şiddətli hava xəbərdarlığı hələ də qüvvədədir. Ölkənin mərkəzində yerləşən Peskara şəhərində artıq daşqınlar başlayıb.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Polşanın baş naziri Donald Tusk və daşqınlardan zərər çəkmiş ölkələrin digər hökumət başçıları ilə görüşmək üçün Vroslava yollanıb.

Meteoroloqların bildirdiyinə görə, Mərkəzi Avropada rekord miqdarda yağan yağışlara iqlim dəyişikliyi də daxil olmaqla bir sıra amillər səbəb olub.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Oturaq həyat tərzinin fəsadları

Oturaq həyat tərzinin bir çox xəstəliklərə yol açdığı, ölüm riskini artırdığı məlumdur. Hazırda dünyada milyonlarla insan hərəkətsizliyin səbəb olduğu xərçəng, yüksək təzyiq, ürək-damar, şəkər kimi xroniki xəstəliklərdən əziyyət çəkir.



Bəşər tarixinin ilk dövrlərində tələbatların ödənilməsi üçün hərəkət qaçılmaz zərurət idi. İnsanlar ov ovlamaq, yemək toplamaq və digər həyati fəaliyyətlər üçün daim hərəkətdə olurdular. İnsan orqanizmi uzun məsafələrə yeriməyə, qaçmağa və müxtəlif fiziki fəaliyyətlərə uyğunlaşmışdı. Lakin sivilizasiyanın inkişafı ilə bunlar dəyişdi. Əsrlər boyu yeriməyə və köçəri həyat tərzinə öyrəşmiş insanlar sonrakı dövrdə oturaq həyat tərzinə keçdilər. Təsəvvür edin ki, daş dövründə bir insanın gündəlik kalori ehtiyacı təxminən 7 min idi. Bu isə indiki peşəkar idmançıların enerji ehtiyaclarına bərabərdir.

Qədim dövrlərdə insanlar qidalanmaq üçün ovla məşğul olurdularsa, indi qida əldə etmək üçün xüsusi səy göstərməyə ehtiyac yoxdur. Müasir dövrün sosial-iqtisadi strukturu qida əldə etməyin şərtlərini dəyişib. Dünya əhalisinin böyük hissəsi şəkərli, duzlu və piylənməyə meyilləndirən qidalara üstünlük verir.

"Fast food" restoranları, hər yerdə tapılan hazır yeməklər qida ehtiyacını tez və praktiki şəkildə ödəyir.

Beləliklə, müasir həyat tərzi insanların hərəkətliliyi həcmini ciddi şəkildə azaldıb. Uzun müddət oturmaq və hərəkətsiz qalmaq isə sağlamlıq problemlərini artırıb. Əvvəllər təmizlik işləri zəhmət tələb edirdisə, indi tozsoranların, qabyuyanların və paltaryuyanların köməyilə məişət işlərini daha az zəhmətlə və qısa müddətdə bitirmək mümkündür. Texnologiyanın həyatımıza gətirdiyi rahatlıqlardan sonra fiziki aktivliyin azalması insan əzələlərinin zəifləməsinə, müqavimət pozğunluğuna və piylənməyə səbəb olur. Saatlarla və yanlış oturma zamanla onurğaya da mənfi təsir göstərərək bel ağrılarına gətirib çıxarır. Mütəxəssislər düzgün oturma vərdişlərinin mənimsənilməsinin vacibliyini vurğulayırlar.

Qeyd edək ki, hərəkətsizlik bədənin enerji sərfini azaldır, çəkiyə nəzarəti çətinləşdirir. Mütəxəssislər müəyyən fasilələrlə qısa məşqlərin edilməsinin və qan dövranının nizama salınmasının vacibliyini vurğulayırlar. Müntəzəm idmanla məşğul olmaq vacibdir. Lakin buna vaxt və ya fürsət tapa bilmədikdə gündə 10 min addım atmağa çalışmaq lazımdır.

Sağlamlıq üçün balanslı və düzgün qidalanmaya üstünlük verilməlidir. Yüksək kalorili, işlənmiş qidalar yerinə təzə meyvə, tərəvəz, tam taxıl və zülalla zəngin qidalar istehlak edilməlidir. Bu qidalanma enerjini yüksək saxlayaraq çəkini idarə etməyə kömək edəcək.

Az yuxu zərərli olduğu kimi, çox yatmağın da müxtəlif fəsadları var. Əgər səhər oyandıqda özünü yorğun və ya yuxulu hiss edirsənsə, bu, kifayət qədər keyfiyyətli yuxu almadığına işarədir. Problemi həll etmək üçün ilk olaraq yuxu rejimi qurulmalıdır. Bədəni və zehni təzələmək üçün gündə 7-8 saat yuxu vacibdir.

Eyni zamanda stresdən uzaq olmaq lazımdır. Günümüzdə stressiz yaşayan çox az insan var, amma bununla yaşamağı öyrənməliyik. Sosial fəaliyyətlər, hobbilər, peşəkar dəstək və nəfəs məşqləri kimi texnikalarla stresi azaltmağa çalışmalıyıq. Oturaq həyat tərzi yalnız fiziki deyil, həm də psixi sağlamlığa mənfi təsir göstərir. Uzun müddət oturmaq stres səviyyəsini artıra, diqqəti çətinləşdirə və ümumi psixi sağlamlığa mənfi təsir göstərə bilər. Mütəxəssislər qeyd edirlər ki, müntəzəm fasilələr və qısa gəzintilər zehni fəaliyyəti tənzimləyir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi İlqar Abbasov və agentliyin kollektivi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi general-mayor Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4204**
**Sifariş 2116**

**Qiyməti 60 qəpik**